Xalqın qəzeti!

# Xalq qəzeti

№ 167 (30861) 12 avqust 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# 8 Noyabrdan 8 Avqusta...

## *Prezident İlham Əliyevin böyük liderliyi ilə möhtəşəm zəfər yaşantılarımız davam edir*



**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Vaşinqtondan özünün sosial şəbəkə profilində paylaşım edərək, Prezident İlham Əliyevin müharibədə qalib gəldiyi kimi, sülhü də qazandığını vurğuladı. Əlbəttə, sülhü qazanmaq asan başa gəlmir. Əvvəla, sülh ədalətli olmalıdır. Digər tərəfdən, tarixdə bir çox fakt var ki, ayrı-ayrı dövlətlər döyüş meydanlarında əldə etdiklərini danışıqlar masasında itiriblər. Deməli, qazanılanı qorumaq vacibdir. Məhz bu mənada dövlətimizin başçısının fəaliyyəti örnəkdir. Ədalətli sülhə nail olaraq qələbəni qorumaq örnəyi.**

Ədaləti qorumaq, öz xalqının maraq və mənafelərinin müdafiəsində ardıcıl və prinsipial davranmaq müstəsna məharət tələb edir. Ancaq heç də hər liderdə bu məharət olmur.

*(ardı 5-ci səhifədə)*

## İlham Əliyev fəhmi və Tramp tramplini



**Amerika dünyanın o başıdır, Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında məsafə də çox uzaqdır. O qədər uzaq ki, Bakıda axşam düşəndə Vaşinqtonda səhər başlanır. Ancaq zaman-zaman bu məsafənin dəyişdiyi də çox olub. Yox, nə aralıqdakı kilometrlər azalıb-artıb, nə də bu fərq yay vaxtına keçidlə əlaqədar saatın dəyişməsiylə yaranıb. Müasir dünya elə vəziyyətdədir ki, məsafələrin yalnız köhnədən bəlli ənənəvi ölçülərlə müəyyənləşdirilməsi artıq keçmiş hadisəsidir. Siyasətlər ən uzaqları da bir-birinə çox yovuq edə, ən yaxın qonşuları da bir-birndən çox aralı sala bilir.**

2025-ci il avqustun 8-i ABŞ–Azərbaycan Respublikası münasibətlərinin bütün tarixi boyunca Bakı ilə Vaşinqton arasındakı məsafənin ən qısa olduğu bir gün idi. Səbəb günün içərisini dolduran hadisələrdi.

Prezident İlham Əliyev onu müşayiət edən nümayəndə heyəti ilə Ağ Evdə idi və balaca bir otaqda dünya tarixinin əlamətdar anları yaşanırdı. O otağa ona görə "balaca" deyirəm ki, baş verən hadisə bu kiçik məkana sığmaz qədər nəhəng idi və əsla yalnız orada dövlət başçıları ilə təmsil olunan 3 ölkəyə aid deyildi. Dünyanın siyasəti, dünyanın özünün çöhrəsi, Yer kürəsinin siyasi xəritəsi dəyişməkdədir və həmin ağlasığmaz dəyişiklikləri edənlərin ön sırasında biz varıq – Azərbaycan var, onun lideri Prezident İlham Əliyev var!

*(ardı 4-cü səhifədə)*

## Regionda davamlı sülhə zəmin yaranıb



səhifə ⇨ 6

## Tarixi dəyişən sülh konsepsiyası Azərbaycanın dövlət siyasəti kimi



səhifə ⇨ 9

## Vaşinqton formatı yeni reallıq yaradır



səhifə ⇨ 6

## Azərbaycanın sülh prinsipiallığı – Ermənistan üçün ev tapşırığı

### *Geri dönüş olmamalıdır, növbəti "12 dəqiqə" yolverilməzdir*



**"Cənubi Qafqaz sabitlik məkanı olacaq. Bizə sabitlik, təhlükəsizlik lazımdır. Çünki Cənubi Qafqaz əsrlər boyu qan tökülməsi, toqquşma, işğal məkanı olmuşdur və Qafqaz xalqları çox əziyyət çəkiblər. Ona görə də kifayətdir, biz artıq sülh şəraitində yaşamalıyıq". Bu fikirləri Prezident İlham Əliyev iyulun 19-da Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı səsləndirib.**

Avqustun 8-də isə Vaşinqtonda Azərbaycan və Ermənistan arasında yekun sülh sazişinin imzalanmasına doğru çox ciddi addım atıldı. "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in razılaşdırılmış mətni xarici işlər nazirləri tərəfindən paraflandı. Hadisə hər iki ölkə liderinin görüşünün nəticələrinə dair Birgə Bəyannamədə əksini tapdı. O Bəyannamədə ki, orada ABŞ Prezidenti Donald Trampın da imzası var.

*(ardı 7-ci səhifədə)*

## Təzyiqi təqdirə çevirmək modeli



### *Azərbaycanı sülh güzəştinə məcbur etməyə çalışanlar da Vaşinqton razılaşmasını alqışlayırlar*

**Sağlam gücün, təpərin bəlağətə ehtiyacı olmur. Buna sahib olan mütləq özünü təsdiqləməyin yollarını da bilir. Bu mənada son beş ildə beynəlxalq hüquqa riayət etməklə həm ərazi bütövlüyünü, həm də suverenliyini bərpa edən Azərbaycanı yenə də günahkar çıxarmağa çalışırdılar. İşğalçı, sülhü pozan, boynuna götürdüyü öhdəlikləri yerinə yetirməyən Ermənistan, təslimçiliyə dartılan isə Azərbaycan.**

Rəsmi Bakı göstərdi ki, bu ikili oyunun qaydalarını, ədalətsizliyi qəti çəkildə qəbul etmir və Prezident İlham Əliyevin qətiyyətlə dediyi "Siz deyən yox, biz deyən olacaq" postulatı ikiüzlülüyə, saxtakarlığa, tərəfkeşliyə üstün gəldi. Hadisələrə obyektiv, sağlam prizmadan yanaşmaq istəməyənlərin aqibətini bizimlə bərabər bütün dünya gördü.

*(ardı 8-ci səhifədə)*

# İordaniya kralı Azərbaycan liderini ABŞ səfərinin uğuruna görə təbrik edib

**Avqustun 11-də İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

İordaniya Kralı Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsi və əldə olunmuş tarixi nəticələr ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırıb, bu razılaşmaların regionda davamlı sülhün, təhlükəsizliyin və hərtərəfli əməkdaşlığın təmin olunmasına xidmət edəcəyinə ümidvarlığını bildirib.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını ifadə edərək, ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında imzalanmış Birgə Bəyannamənin, həmçinin sülh və dövlətlərarası münasibətlərin yaradılmasına dair sazişin paraflanmasının və digər sənədlərin regionda sülhün təmin olunması baxımından vacibliyini vurğulayıb. Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasında Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi rolunu qeyd edib.

Telefon danışığı zamanı Azərbaycanla İordaniya arasında ikitərəfli münasibətlərə toxunulub, siyasi əlaqələrin mövcud vəziyyətindən məmnunluq ifadə olunub, müxtəlif sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan Prezidentinin Pakistanın Baş naziri ilə telefon dialoqu

**Avqustun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifə zəng edib.**

Telefon söhbəti zamanı Pakistanın Baş nazirinin ölkəmizə səfəri, Laçında ikitərəfli, həmçinin Azərbaycan-Türkiyə-Pakistan formatında keçirilmiş üçtərəfli görüşlər, eyni zamanda, onun İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi Sammitində iştirakı məmnunluqla xatırlanıb.

Prezident İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində imzalanmış sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanan bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün, sabitliyin və çiçəklənmənin təmin olunması baxımından əhəmiyyətinə toxunulub, bu nəticələrin əldə edilməsində ABŞ Prezidenti Donald Trampın xüsusi rolu qeyd olunub.

Məhəmməd Şahbaz Şərif əldə olunmuş razılaşmaların önəmini vurğulayıb və Prezident İlham Əliyevə təbriklərini çatdırıb.

Telefon söhbəti əsnasında iqtisadi, enerji, ticari və sərmayələr sahələrində ikitərəfli əlaqələrin daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# Vaşinqton razılaşmaları Ukrayna üçün də böyük ümidlər doğurur

**Avqustun 10-da Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı əsnasında Ukrayna Prezidenti dövlətimizin başçısını Amerika Birləşmiş Ştatları Prezidenti Donald Trampın dəstəyi ilə Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə təbrik edib və bu görüşün tarixi xarakter daşıdığını vurğulayıb.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirib, Ermənistanla Azərbaycan arasında əldə olunmuş razılaşmaların, xüsusilə ABŞ Prezidentinin şahidliyi ilə iki ölkə arasında imzalanmış bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün və sabitliyin təmin olunmasına və çiçəklənməyə xidmət göstərəcəyini qeyd edib.

Telefon danışığı əsnasında Azərbaycan və Ukrayna arasında ikitərəfli əlaqələrə də toxunulub. Bu xüsusda, ötən ay Bakıda iki ölkə arasında hökumətlərarası komissiyanın iclasının keçirilməsi və bu çərçivədə iqtisadi-ticarət əlaqələrinin inkişafına dair səmərəli müzakirələrin aparıldığı vurğulanıb.

Telefon danışığı zamanı tərəflər Ukrayna ərazisində Azərbaycanın SOCAR şirkətinə məxsus neft anbarına və ölkəmizə aid digər obyektlərə, həmçinin Azərbaycan qazını Ukraynaya nəql edən qaz kompressor stansiyasına Rusiya tərəfindən məqsədyönlü şəkildə hava zərbələrinin endirilməsini pisləyib, bunun Azərbaycan ilə Ukrayna arasında energetika sahəsində əməkdaşlığın dayandırılmasına heç bir halda səbəb olmayacağına əminliklərini vurğulayıblar.

***Prezidentin Mətbuat Xidməti***

# Qazaxıstan Prezidentinin dost və qardaş məmnunluğu

**Avqustun 10-da Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Qazaxıstan Prezidenti Azərbaycanla Ermənistan arasında normallaşma gündəliyi ilə əlaqədar Amerika Birləşmiş Ştatlarında əldə olunmuş razılaşmalar münasibətilə dövlətimizin başçısını və Azərbaycan xalqını təbrik edib. Kasım-Jomart Tokayev bu nəticələrin tarixi əhəmiyyət daşıdığını qeyd edərək, onların regionda hərtərəfli əməkdaşlıq üçün imkan yaradacağına ümidvarlığını bildirib.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkür edərək, Amerika Birləşmiş Ştatlarında Azərbaycan ilə Ermənistan arasında ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətini vurğulayıb. Bu xüsusda göstərdiyi dəstəyə görə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın rolunu qeyd edib.

Prezident İlham Əliyev Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz nəqliyyat bağlantısı üzrə əldə olunmuş razılaşmanın Orta Dəhlizin yükaşırma qabiliyyətinə gələcəkdə müsbət təsir göstərəcəyini də deyib.

Dövlətimizin başçısı Qazaxıstanın ötən ilin mayında sülh danışıqları çərçivəsində Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasında aparılan danışıqlara ev sahibliyi etməsinə və bu prosesə töhfəsinə görə minnətdarlığını bildirib.

Telefon danışığı zamanı Azərbaycan ilə Qazaxıstan arasında əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# Türkmənistan Azərbaycanın uğurlarına ürəkdən sevinir

**Avqustun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova zəng edib.**

Telefon söhbəti zamanı Qurbanqulu Berdiməhəmmədovun bir müddət əvvəl Azərbaycana, o cümlədən Qarabağa səfəri və bu çərçivədə aparılmış müzakirələr məmnunluqla xatırlanıb.

Prezident İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafına toxunublar.

Telefon danışığı əsnasında Türkmənistanın Avaza şəhərində keçirilmiş BMT-nin Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üzrə Üçüncü Konfransının əhəmiyyəti qeyd edilib. Dövlətimizin başçısı bu tədbirin uğurla təşkil olunması ilə bağlı Qurbanqulu Berdiməhəmmədova təbriklərini çatdırıb.

Prezident İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanmasının və ATƏT-in Minsk qrupunun ləğvinə dair birgə müraciətin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunulub.

Bu nəticələrin əldə olunmasında ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd edən dövlətimizin başçısı Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında əlaqənin yaradılmasına xidmət edəcək maneəsiz nəqliyyat bağlantısının bütün regionun çiçəklənməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Türkmənistan Xalq Məsləhətinin sədri əldə edilmiş tarixi razılaşmalar münasibətilə dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırıb.

Prezident İlham Əliyev onun salamlarını Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədova çatdırmağı xahiş edib.

Qurbanqulu Berdiməhəmmədov da Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun salamlarını və təbriklərini dövlətimizin başçısına çatdırıb.

Telefon söhbəti zamanı gələcək təmaslarla bağlı fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# Qətər Dövləti Azərbaycan–Ermənistan yaxınlaşmasını alqışlayır

**Avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Əl Taniyə zəng edib.**

Telefon söhbəti zamanı bir müddət əvvəl Azərbaycan, Türkiyə, Qətər və Suriyanın birgə əməkdaşlığı nəticəsində Azərbaycan qazının Suriyaya çatdırılması layihəsinin önəmi vurğulanıb, bunun həyata keçirilməsində Qətərin maliyyə dəstəyi xüsusilə qeyd edilib.

Prezident İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanmasının və digər sənədlərin regionda davamlı sülhün, sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunulub.

Bu nailiyyətlərin əldə edilməsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın rolu qeyd edilib. Prezident İlham Əliyev Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz nəqliyyat bağlantısı üzrə əldə olunmuş razılaşmanın Orta Dəhlizin yükaşırma qabiliyyətinə gələcəkdə müsbət təsir göstərəcəyini də vurğulayıb.

Dövlətimizin başçısı Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə verdiyi dəstəyə görə Qətər Əmirinə təşəkkürünü bildirib.

Şeyx Təmim bin Həməd Əl Tani sülh gündəliyinin irəli aparılmasında göstərdiyi liderlik və əldə olunmuş tarixi nəticələr ilə bağlı Prezident İlham Əliyevə təbriklərini çatdırıb.

Azərbaycan Prezidenti Qətər Əmirini ölkəmizə səfərə dəvət edib. Dəvət məmnunluqla qəbul olunub.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

2025-ci il avqustun 8-də Ağ Evdə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında tarixi sülh bəyannaməsinin imzalanması münasibətilə Sizə İslam dünyasının mərkəzindən ən səmimi təbriklərimi çatdırıram.

Bu, Cənubi Qafqazın üfüqünü ümid və harmoniya ilə işıqlandıran parlaq bir hadisədir. Bu, eyni zamanda tarixi zənginləşdirən, dünyanı ruhlandıran, dostluq, əməkdaşlıq və qarşılıqlı hörmət yollarını açan mühüm bir mərhələdir.

Zati-aliləri, bu nailiyyət Sizin uzaqgörən liderliyinizin, əvəzsiz fədakarlığınızın və ortaq rifah gələcəyini formalaşdırmaq istiqamətində göstərdiyiniz əzmkar səylərin əyani təzahürüdür. Sizin müdrik rəhbərliyiniz sayəsində Azərbaycan Respublikası xalqları ortaq məqsədlər ətrafında birləşdirə biləcək qətiyyətin, dialoqun, gələcək baxışların parlaq nümunəsinə çevrilmişdir.

ICESCO-nun Baş direktoru kimi mən də bu anın sevincini və xalqınıza bəxş etdiyi qüruru bölüşürəm. Bu, sadəcə bir razılaşma deyil, gələcək nəsillərə bəxş olunan bir hədiyyədir, mədəniyyətlərin, ideyaların və imkanların inkişaf edəcəyi bir bünövrədir. ICESCO Azərbaycanın yanında olmaqla, təhsil, mədəniyyət və elm sahələrində təşəbbüslər vasitəsilə bu sülh ruhuna töhfə verməyə, hər bir sahədə anlaşmaya və əməkdaşlığa hazırdır.

Uca Allah bu yeni dövrü uğurlu etsin, onun yaratdığı bağları möhkəmləndirsin və region xalqlarına daha böyük nailiyyətlər, birlik və rifah bəxş etsin!

Zati-aliləri, bu tarixi və ilhamverici nailiyyət münasibətilə Sizə bir daha ən səmimi təbriklərimi çatdırır, ən yüksək ehtiramımı bildirirəm. Azərbaycanın adı tarixin bu parlaq səhifəsi ilə əbədi olaraq xatırlanacaqdır.

**Dərin hörmətlə,**

***Salim bin Məhəmməd ƏL-MALİK,***
***ICESCO-nun Baş direktoru***

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Prezident Donald Trampın şahidliyi ilə Amerika Birləşmiş Ştatlarında Azərbaycanın mühüm rolu olan sülh sazişi ilə bağlı Birgə Bəyannamənin imzalanması münasibətilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri adından Sizə ən səmimi təbriklərimizi çatdırırıq.

Bu tarixi nailiyyət təkcə diplomatiyanın və dövlətçiliyin təntənəsi deyil, həm də təfəkkürün bölücülük üzərində qələbə çalmasının sübutudur.

Bu, Qafqaz regionunda davamlı sülhün təmin edilməsi istiqamətində həlledici addımdır və bölgənin bütün xalqları üçün sabitliyin, firavanlığın təmin olunmasında, əməkdaşlığın inkişafında tarixi hadisə kimi yadda qalacaqdır. Biz, həmçinin bu sülhün ailələrin, uşaqların və icmaların hələ də əziyyət çəkdikləri hər bir məkana çatacağına inanırıq.

Biz Zati-alinizin xalqlar arasında anlaşmanın və konstruktiv dialoqun möhkəmləndirilməsi istiqamətində uzaqgörənlik, daimi fədakarlıq və sarsılmaz sadiqlik nümayiş etdirərək bu prosesin uğurla nəticələnməsinə şəxsi və həlledici töhfəsini xüsusi vurğulayırıq.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycanın qlobal sülh səylərində etibarlı və hörmətli tərəfdaş kimi artan roluna şahidlik etməkdən qürur duyur və ortaq dəyərlərimizin prinsiplərinə uyğun olaraq, xalqlar, mədəniyyətlər arasında körpülər quran təşəbbüsləri dəstəkləməyə hazırdır.

Zati-aliləri, ən dərin hörmət və ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

**Vayra Vike-FREYBERQA,**
**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,**
**1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti,**

**İsmail SERAGELDİN,**
**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,**
**1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti,**

**Rosen PLEVNELİYEV,**
**2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti,**

**Zlatko LAQUMCİYA,**
**2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri,**

**Eka TKEŞELAŞVİLİ,**
**2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini,**

**İvo YOSİPOVİÇ,**
**2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti,**

**Çaba KOROŞİ,**
**BMT Baş Assambleyasının 77-ci sessiyasının sədri,**

**Mladen İVANİÇ,**
**2014-2015, 2016-2017-ci illərdə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri,**

**Volkan BOZKIR,**
**BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri,**

**Vuk YEREMİÇ,**
**BMT Baş Assambleyasının 67-ci sessiyasının sədri,**

**Amina QURİB-FAKİM**
**2015-2018-ci illərdə, Mavrikinin Prezidenti,**

**Petar STOYANOV,**
**1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti,**

**Suzan ELLİOT,**
**Amerika Xarici Siyasət üzrə Milli Komitəsinin prezidenti və baş icraçı direktoru,**

**Filip VUYANOVİÇ,**
**2003-2018-ci illərdə Monteneqronun Prezidenti,**

**Dimitris AVRAMOPULOS,**
**2014-2019-cu illərdə miqrasiya, daxili işlər və vətəndaşlıq üzrə Avropa komissarı,**

**İv LÖTERM,**
**2008, 2009-2011-ci illərdə Belçika Krallığının Baş naziri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında bütün regionda ədalətli və davamlı sülhə nail olmağa imkan yaradan razılaşmanın əldə edilməsi ilə bağlı tarixi nailiyyət münasibətilə Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın Beynəlxalq Katibliyi adından Sizə və Sizin simanızda Azərbaycan xalqına ən səmimi təbriklərimizi çatdırıram.

İki ölkə arasında sülh sazişinin ABŞ Prezidentinin iştirakı və şahidliyi ilə Vaşinqtonda, Ağ Evdə paraflanması Sizin rəhbərliyinizlə Azərbaycan diplomatiyasının əldə etdiyi mühüm uğurdur. Şübhəsiz ki, bu hadisə regiondakı proseslərə yeni dinamika gətirərək geosiyasi tarazlığı yenidən formalaşdıracaq, eləcə də beynəlxalq sülhə və əməkdaşlığa təkan verəcək və onları möhkəmləndirəcək.

Sülhə nail olmaq yolunda bu mühüm uğur yalnız Azərbaycan Respublikasının şanlı Qələbəsindən və işğal olunmuş torpaqlarının azad edilməsindən, ölkənin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra mümkün olub.

Biz, həmçinin bildiririk ki, bu, müdrik Lider və görkəmli dövlət xadimi kimi Sizin şəxsi qələbənizdir. Təlatümlü və çətin beynəlxalq şəraitdə sülh naminə fəaliyyətinizdə Sizə uğurlar arzulayırıq.

Biz Sizin prinsipial mövqeyinizi, qətiyyətinizi və GUAM-ın üzvü olan dövlətlərin müstəqilliyini, ərazi bütövlüyünü, suverenliyini qorumaq uğrunda apardıqları mübarizədə dəstəkləməkdə yorulmaz səylərinizi yüksək qiymətləndiririk. Həmişə olduğu kimi, biz regional təşkilat olaraq Qara dəniz və Xəzər dənizi regionlarında sülh, sabitlik, əməkdaşlıq və firavanlıq istiqamətində siyasətinizi dəstəkləməyə hazırıq.

Zati-aliləri, bu əlamətdar hadisə münasibətilə bir daha səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edir, sülh gündəliyinizi bundan sonra da həyata keçirməkdə Sizə uğurlar arzulayırıq. Azərbaycan xalqına isə sülh, tərəqqi və firavanlıq diləyirik.

**Hörmətlə,**

***Altay ƏFƏNDİYEV,***
***GUAM-ın Baş katibi***

# Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Energetika Nazirliyinə vəsait ayrılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası humanizm prinsiplərinə söykənərək, ikitərəfli və çoxtərəfli əsasda dünyanın bir çox ölkəsinə humanitar yardım göstərir.

Son illərdə Ukraynada yaranmış vəziyyətlə əlaqədar Azərbaycan dövləti tərəfindən Ukrayna xalqına da bir neçə dəfə humanitar yardım göndərilmişdir.

Azərbaycan Respublikası ilə Ukrayna arasında münasibətlər dostluq və tərəfdaşlıq zəminində müvafiq ikitərəfli sənədlər, o cümlədən 2000-ci il 16 mart tarixli "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında Müqavilə", 2008-ci il 22 may tarixli "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə" və 2022-ci il 14 yanvar tarixli "Azərbaycan Respublikası Prezidentinin və Ukrayna Prezidentinin Birgə Bəyannaməsi" əsasında inkişaf edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Azərbaycan Respublikasında istehsal olunan elektrik avadanlığının satın alınması və göndərilməsi üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Energetika Nazirliyinə 2,0 (iki) milyon ABŞ dollarının manat ekvivalentində vəsait ayrılsın.

**2** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 avqust 2025-ci il**

# Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi məqsədilə Sumqayıt şəhəri, Sülh prospekti ünvanında yerləşən və "Azərboru" Açıq Səhmdar Cəmiyyətinin istifadəsindəki dövlət mülkiyyətində olan sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar kateqoriyasına aid 26,6676 hektar torpaq sahəsinin icarəyə vermək hüququ ilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin istifadəsinə verilməsi ilə bağlı üç ay müddətində tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**2** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Sumqayıt Şəhər İcra Hakimiyyəti bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 avqust 2025-ci il**

# Azərbaycan ilə Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Sazişin paraflanmış mətni açıqlanıb



**2025-ci il avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti, Amerika Birləşmiş Ştatlarının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin iştirakı ilə Azərbaycan və Ermənistanın xarici işlər nazirləri "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətnini paraflayıblar.**

Paraflanmış Sazişin ingilis dilində mətni ilə bu keçid vasitəsilə tanış olmaq mümkündür. Sazişin eyni dərəcədə autentik olan Azərbaycan dilinə qeyri-rəsmi tərcüməsi ilə bu keçid vasitəsilə tanış olmaq olar.

Bundan əlavə, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının xarici işlər nazirlərinin ATƏT-in Minsk Prosesi və əlaqəli strukturların (ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun) bağlanması ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciətindən sonra, dünən ATƏT Nazirlər Şurasının bağlanma ilə bağlı qərar layihəsi ATƏT iştirakçı dövlətləri arasında yayılıb və onlar qərarın qəbul edilməsi üçün lazımi prosedurları dəstəkləməyə çağırılıblar.

# *"Greek City Times"*: Onilliklər boyu davam etmiş münaqişəyə son qoyuldu

**Avqustun 8-də Vaşinqtonda, ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında imzalanan Birgə Bəyannamə Cənubi Qafqazın son onilliklərdə gördüyü ən mühüm siyasi hadisələrdən biridir.**



Bu qənaəti "Greek City Times" nəşrində jurnalist Bill Giannopoulosun dərc edilmiş analitik məqalədə açıqlayıb.

Müəllif vurğulayıb ki, bu tarixi sənəd iki ölkə arasında diplomatik münasibətlərin bərpasını, ərazi bütövlüyünün qarşılıqlı tanınmasını, nəqliyyat və ticarət əlaqələrinin genişləndirilməsini və regionda davamlı sülhün təmin olunmasını nəzərdə tutur. Analitik yazıda razılaşmanın əsas hissəsi kimi "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" (TRIPP) adlı strateji tranzit dəhlizinin yaradıldığı qeyd olunur. Bu dəhliz Naxçıvanla birbaşa əlaqəni təmin edəcək. Layihə çərçivəsində dəmir və avtomobil yolları, neft-qaz kəmərləri və fiber-optik rabitə infrastrukturu inşa ediləcək. TRIPP-in məqsədi Mərkəzi Asiya, Yaxın Şərq və Avropa bazarlarını birləşdirən təhlükəsiz və sürətli ticarət marşrutu yaratmaqdır.

Bill Giannopoulosun fikrincə, bu layihə yalnız iqtisadi deyil, həm də geosiyasi baxımdan region üçün yeni reallıq formalaşdıracaq.

Məqalədə qeyd olunur ki, razılaşma beynəlxalq aləmdə qarışıq reaksiyalar doğurub: Rusiya təşəbbüsü alqışlayaraq, onu regional sabitlik üçün müsbət addım kimi qiymətləndirib, lakin Qafqaz problemlərinin həllində yerli mexanizmlərin üstün tutulmasının vacibliyini vurğulayıb. İran isə dəhlizin öz sərhədinə yaxınlığından narahat olduğunu bildirərək, layihəni ABŞ-ın bölgədə təsirini artıracaq addım kimi dəyərləndirib.

Müəllif vurğulayır ki, Azərbaycanda bu sülh təşəbbüsü ehtiyatlı optimizmlə qarşılanır. Ekspertlər razılaşmanın ölkənin geosiyasi mövqeyini möhkəmləndirəcəyinə, xarici sərmayəni təşviq edəcəyinə və Cənubi Qafqazın beynəlxalq ticarət şəbəkələrinə daha fəal qoşulacağına inanırlar.

Məqalədə bildirilir ki, 1980-ci illərin sonundan bəri davam edən Qarabağ münaqişəsi bölgədə davamlı gərginlik mənbəyi olub. 2020-ci il müharibəsi vəziyyəti dəyişsə də, yekun sülh sənədinə qədər proses uzanıb. Vaşinqtonda imzalanan razılaşma isə bu prosesin kulminasiyası kimi qiymətləndirilir.

***XQ***

# Vladimir Feketenin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində xidmətlərinə görə Vladimir Fekete "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 avqust 2025-ci il**

# R.G.Vəliyevin 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dəniz gəmiçiliyinin inkişafı sahəsində uzunmüddətli və səmərəli fəaliyyətinə görə Rauf Göyüş oğlu Vəliyev 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 avqust 2025-ci il**

# Ərdoğan və Paşinyan ABŞ-da əldə olunan razılaşmanı müzakirə edib



**Avqustun 11-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın Baş naziri Nikol Paşinyanla telefonla danışıb.**

Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsi xəbər verir ki, Ermənistan tərəfinin təşəbbüsü ilə baş tutan söhbət zamanı Azərbaycan ilə Ermənistan arasında sülh danışıqları ətrafında fikir mübadiləsi aparılıb.

Türkiyə Prezidenti Ermənistanın Baş nazirini Azərbaycanla əldə olunan razılaşma münasibətilə təbrik edib. Eyni zamanda, sülh yolunda göstərilən iradənin regionda sabitlik üçün vacib olduğunu vurğulayıb. Bununla bağlı atılan addımların konkret təşəbbüslərlə davam etdirilməsinin zəruriliyini diqqətə çatdırıb.

Rəcəb Tayyib Ərdoğan Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması prosesi çərçivəsində texniki səviyyəli danışıqların davam etdiriləcəyini də vurğulayıb.

# Ceyhun Bayramov ilə Aİ-nin ali nümayəndəsi Kaya Kallas arasında telefon danışığı




**Avqustun 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas arasında telefon danışığı aparılıb.**

Xarici İşlər Nazirliyindən bildirilib ki, Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Azərbaycan-Ermənistan liderlərinin Vaşinqton görüşü zamanı Azərbaycan, Amerika Birləşmiş Ştatları və Ermənistan liderlərinin Sammitinin nəticəsində liderlər tərəfindən imzalanmış Birgə Bəyanamə, sülh sazişinin paraflanması, ATƏT-in Minsk Prosesi və aidiyyəti strukturların ləğvinə birgə çağırış, habelə əldə edilmiş digər razılıqlar münasibətilə təbriklərini çatdırıb.

Bu razılaşmaların bölgədə sülh və sabitliyin təmin olunması üçün mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb. Kaya Kallas Aİ-nin sülh prosesinin irəlilədilməsinə daim dəstək verməyə hazır olduğunu bildirib.

Telefon danışığı zamanı, həmçinin Azərbaycan-Aİ münasibətlərindən irəli gələn məsələlər və perspektivlər, regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

# İlham Əliyev fəhmi və Tramp tramplini

**(əvvəli 1-ci səhifədə)**

Addım-addım böyük tarixlər ömrümüzdən keçir. Baş verən bir-birindən əzəmətli, taledəyişici hadisələrin şahidi olmaq başqa bir məsudluqdur. Söz yox, o zəfərlər ki bizim gözümüzün qarşısında cərəyan edir, gələcək nəsillər həmin olmuşları Azərbaycan tarixinin ən parlaq səhifələri kimi qavrayacaq, bütün bunlara şahid olmuşları da müstəsna insanlar kimi xatırlayacaq.

Bəs həmin tarixləri yaradanlar necə?

Əlbəttə ki, onların, vaxt ötüşüylə, daha çox müqayisələr aparmaq fürsəti yaranarkən verəcəyi qiymət indi yaxın məsafədən baxaraq bizim verdiyimiz qiymətlərdən qat-qat dürüst və indikindən də dəfələrlə yüksək olacaq.

Prezident İlham Əliyevin strateji düşüncəsinin əhatəsi elə genişdir və o qədər aydındır ki, onun böyüklüyünü bu gün yalnız rəhbəri ilə iftixar edən Azərbaycan xalqı deyil, bütün dünya ya açıq, ya da qəlbində etiraf etməkdədir.

Dünyanın ən qüdrətli dövləti olan Amerika Birləşmiş Ştatlarının Prezidenti Azərbaycan rəhbərinin onun haqqında müxtəlif vaxtlarda söylədiyi qiymətverici fikirləri fəxrlə öz səhifəsində yerləşdirirsə, bunun səbəbi yalnız o deyil ki, bunlar başqa bir dövlət başçısının onun haqqında tərifli sözləridir. Doğrudur, dünyada tərifdən hamının xoşu gəlir və kim desə ki, o, daha çox tənqidi sevir, bu sözlərin səmimiyyətinə inanmaq həmişə müşkül olacaq. Ancaq tərifdən-tərifə də fərq var. Axtarsanız, Donald Trampın yenidən dövlət başçısı seçilərək fəaliyyətə başlamasından bir qədər əvvəl də, Ağ Evdə səlahiyyətlərinin icrasını gerçəkləşdirdiyi son aylarda da onun haqqında dünyanın tanınmış siyasətçiləri və dövlət xadimləri arasından da, elə müxtəlif ölkələrin prezidentlərindən də xoş sözlər söyləmiş olan çoxlarının adlarını da, fikirlərini də tapacaqsınız. Prezident Tramp həmin söylənmişlərdən məhz Azərbaycan rəhbərinin fikirlərini seçərək bir dəfə deyil, ardıcıl öz fərdi ictimai səhifəsində ona görə yerləşdirir ki, bunları sadəcə tərif və xoş sözlər olaraq yox, dərin zəkalı, müdrik və güclü bir liderin qənaətləri kimi qəbul edir və anlayır ki, gendən baxanlar da o sözləri məhz həmin şəkildə qəbul edirlər.

Bu, təsəvvürediləndir, ancaq gözlə görülüb eşidilənə də dünya şahiddir – Ağ Evdə Prezident Donald Tramp və Prezident İlham Əliyev yanaşıdırlar. Mikrofonlar açıq, kameralar işləyir, həmin andakıları dünya görübeşidir və ABŞ rəhbəri Azərbaycan dövlətinin başçısına "Siz böyük lidersiniz" deyir və dərhal da Prezident Əliyev təvazö ilə Prezident Trampa cavab verir: "Mən böyük liderlə yanaşı əyləşmişəm".

Hər ikisi haqlıdır. Bunu isbat edən dəlillər çoxsa da, sübutların ən üzdə olanı elə həmin görüş, o cür yanaşı oturub o səmimiyyətlə müzakirələr aparmaları, həmin görüşə və müzakirələrə gətirib çıxaran yolu hazırlaya bilmələridir.

ABŞ dünyadakı 200-ə yaxın dövlətdən biri olmaqdan daha böyükdür, həmin dövlətlərin birincisi, ən qüdrətlisidir və dünyanın qismətini müəyyən edənlərin əvvəlincisidir. Vaşinqtonda yalnız bu ölkənin deyil, dünyanın aqibətinə dair layihələr cızılır, qərarlar verilir, hərəkətlər edilir. Bir nömrəli paytaxtdan və bir saylı ofisdən gələn hər səda dünyanın dörd bucağında əks-sədalanır, ardınca da hərə öz arşınına görə təhlillərə başlayır. Söz yox, bu Zirvə Toplantısı da istisna deyil.

Müstəqilliyimizin və ölkəmizə qarşı erməni işğalının başlanmasının lap əvvəlində – 1992-ci ildə ABŞ Konqresi "Azadlığı müdafiə aktı"na əlavə edilən və Azərbaycana ABŞ-nin birbaşa dövlət yardımını yasaqlayan qanunvericilik aktını qəbul etdi.

Və bununla da ölkəmiz ABŞ hökumətindən birbaşa yardım almayan yeganə postsovet dövlətinə çevrildi. Lap başlanğıcdan bu, erməni lobbisinin əl altından birbaşa təsirləri və onların şirnikləndirici cazibə dairəsində olan senatorların vurnuxmaları ilə baş tutmuş mürtəce bir qərar idi və təməldən həqiqətlər kəlləmayallaq edilərək məsələ bu cür də qoyulmuşdu ki, həmin sənəd Azərbaycan tərəfindən Dağlıq Qarabağın "işğalı" və Ermənistana qarşı blokadasını dayandırmaq məqsədilə qəbul edilir. Təbii, söhbət yardımda deyildi, Azərbaycan özü özünü təmin etmək, yaşatmaq və iqtisadi cəhətdən gücləndirə bilmək qabiliyyətini çoxdan ortaya qoyub və həmin mənhus "düzəliş" də guya zahirən maddi dəstəkdən imtinanı nəzərdə tutsa da, sırf siyasi səciyyəli idi, ABŞ-nin Ermənistan–Azərbaycan münaqişəsində heç də bizətərəf olmayan mövqeyini əks etdirirdi. 33 il sonra həmin "düzəliş"in, nəhayət ki, ləğv edilməsi bir tərəfdən ABŞ-nin Azərbaycana yetərincə sağlamlaşmış münasibətinin bəyanıdırsa, digər tərəfdən də Azərbaycanın Qarabağ Zəfərinin daha bir mərhələsi, illərcə davam etmiş və çox faciələr gətirmiş həmin qarşıdurmanın banisi və daimi qızışdırıcılarından olan erməni lobbisi üzərində qələbəmiz deməkdir!

Ancaq 2025-ci il avqustun 8-nə, həmin düzəlişə xitam verilməsinə, Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunun, Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına, nəhayət, 3 dövlətin başçısının Birgə Bəyannaməyə qol atmasına qədər gərgin mübarizəli, çətin, axtarışlı yol keçilib.

Qələbəyə şahid olmaq, buna heyrətlənmək, məftun qalmaq xoşdur, amma gərək



həmişə həmin nəticəyə gətirib çıxaran uzun yolu da, bu ağır yükü çiyinlərində daşımışları da sayğı ilə düşünəsən.

2025-in isti avqust günlərində dünya mətbuatının hərarəti həmişəkindən daha çoxdur. Vaşinqton görüşünün təfərrüatlarından bəhs edir, qiymətləndirmələr etməyə çalışırlar. Xarici mətbuat, o sıradan Ermənistanda olan və erməniçiliklə bağlı bir çox xəbər agentlikləri, saytlar, qəzetlər Vaşinqton görüşlərini Prezident İlham Əliyevin döyüş meydanındakı qələbəsindən sonra masa arxasında, diplomatiya meydanında zəfəri sayır, Azərbaycan rəhbərinin qarşısına məqsəd qoyduqlarının hamısına çatdığını bildirir, ən vacibi isə, bu görüşün və imzalanmış sənədlərin, həmin sənədlərin daha yeni anlaşmaların imzalanması üçün hazırladığı özülün Cənubi Qafqazda qüvvələr nisbətinin dəyişməsində, bölgədə gələcək ictimai-siyasi gerçəkliyin necə olacağını müəyyənləşdirməkdə həlledici rol oynayacağını yazırlar.

Vaşinqton görüşündə Prezident Əliyev, həmişəki kimi, parlaq idi, hədəfə dəqiq vuran idi, nitqləri ilə, davranışları ilə ağıl və güc saçırdı, yenə Azərbaycan onunla böyük görünürdü.

Bütün ölçüləri ilə ABŞ və Azərbaycan Respublikası müqayisəyəgəlməz qədər fərqlidir. Lakin güclü lider varlığı ilə, təfəkkürü və əməlləri ilə Vətənini də böyütməyi, ən qüdrətli dövlətlərlə eyni mərtəbəyə qoymağı bacarır.

Öncəgörmə Tanrının seçkin insanlara bəxş etdiyi ayrı bir istedaddır. Böyük siyasətdəsənsə, nə qədər məlumatlı olursan-ol, belə bir fəhm, sabahıhissetmə, hadisələri, gedişatı qabaqcadan görəbilmə duyğusu səndə yoxdursa, güclü sayılmayacaqsan, illah da, son qərar və son söz səlahiyyəti səndədirsə və belə bəsirətlilikdən məhrumsansa, tez-tez yanılacaqsan, büdrəyəcəksən, kobud səhvlər buraxacaqsan, başqalarını da çaşdıracaqsan, heç vaxt da ötkün şəxsiyyətə çevrilə bilməyəcəksən.

Prezident İlham Əliyev idarəçiliyinin iki onilliyi ərzində Azərbaycanın 200 illik başağrısı və qaçılmaz fəlakətlərinin qaynağı olan pırtlaşıq qara (rəngi başqa cür də göstərmək olar) düyünü biryolluq çözə bildisə, Azərbaycanı dünyanın enerji, nəqliyyat, iqtisadi həyatında yankeçilməz tərəfdaşlardan birinə çevirməyə müvəffəq oldusa, ölkəmizi və dövlətimizi beynəlxalq aləmdə bugünkü ucalığa qaldırmağı bacardısa, respublikanı təsir dairəsində saxlamağa can atan çoxsaylı dövlətlər və qüvvələrin bütün məkr və təhdidlərinin öhdəsindən gələrək müstəqil siyasətini inamla aparmaq qüdrətini nümayiş etdirdisə, bu niyyətəçatmada əngin bilik, sarsılmaz iradə, dəmir qətiyyət ("Dəmir yumruq" da onun bir simgəsi), əzmkarlıq, inadkarlıq, dönməzlik, sözübütövlüklə bərabər və bəlkə bunlardan da daha əvvəl həmin fəhm, gələcəyisezmə, yalnız hesablamalarla deyil, müəyyən həlledici anlarda "altıncı duyğu" dediyimiz daxili gücün hökmüylə hərəkət edib qərarlar qəbul etməsinin də danılmaz yeri var!

Tarix yazılan və tarixə yazılacaq o gündə – 2025-ci ilin 8 avqustunda Ağ Evdə Prezident İlham Əliyev dünyanın ən qüdrətli dövlətinin başçısı ilə yanaşı idi, davranışları, danışıqları heç vəchlə "böyük qardaş" qarşısında dayananın hərəkətləri və söyləyişləri deyildi, inamlı idi, sərbəst idi və müəyyən məqamlarda, xüsusən, Donald Trampın Nobel Sülh Mükafatına layiqliyi təklifini dilə gətirəndə isə vəziyyətin sahibi idi, ona xas natiqlik məharəti ilə auditoriyanı da tərəfinə çəkmişdi: "Nobel Sülh Mükafatı Prezident Trampa verilməsə, kimə verilməlidir? Mən heç bir iş görməmiş, lakin mükafat almış şəxslərlə bağlı Nobel Sülh Mükafatının çox müəmmalı qərarlarının tarixinə varmaq istəməzdim. Lakin Prezident Tramp altı ay ərzində möcüzə yaratdı. Bir sözlə, düşünürəm ki, erməni həmkarım da dəstəkləyəcək. Auditoriyanın reaksiyasından hesab edirəm ki, biz qayıdan kimi birgə məktubun hazırlanması üzərində razılığa gələcəyik.

Ümid edirəm ki, mən, həmçinin, Prezidentin mükafatlandırma mərasiminə qoşulacağam. Ümidvarıq ki, o, bizi mərasimə dəvət edəcək".

Həmingünkü dialoqlarının hər birində aşkarca duyulurdu ki, Tramp bu ünsiyyətdən çox məmnundur, qarşısında kamil bir şəxsiyyətin dayanmasının fərqindədir və açıqca da söylədi: "Siz ağıllı və güclü lidersiniz".

Bu hüsn-rəğbətsə Azərbaycanın həmin gündəki daha bir qazancı idi. Demək, bu mehriban təmas körpüsü sabah ölkələrimiz arasında əməkdaşlığın daha da dərinləşməsinə yardım edəcək.

Bu, Prezident Trampın Azərbaycan lideri ilə ilk canlı təması idi. Ancaq həmin görüşəcən də Prezident İlham Əliyevin əvvəllər ABŞ və şəxsən onun haqqında nələr söyləməsindən xəbərdar idi və bildiklərinin dalğasında, təbii ki, danışıqlar başlananadək müsbət təəssürata köklənmişdi. Lakin təmasın ilk anlarındaca bu xoş təəssürat qat-qat dərinləşdi. Əlavə şərhə ehtiyac yoxdu, hər şey aydınca görünürdü. İstər-istəməz belə düşüncə də yaranırdı ki, elə bil Ağ Evin bugünkü sahibi ilə bağlı Prezident İlham Əliyevin bu görüşə qədər müxtəlif vaxtlarda dediyi müsbət fikirlərin, o sıradan ABŞ-də prezident seçkiləri ərəfəsində söylədiklərinin də hamısı irəlicədən hər sözü, hər ifadəsinədək ölçülüb-biçilibmiş.

Öncəgörüm, uzağı qabaqcadan hiss edərək dəyərləndirmə, sabaha hazır olmaq fəhmi elə bu deməkdir.

Vaşinqton Zirvəsində Prezident Tramp "Sərvət hər problemi həll etmir" söylədi və əlbəttə ki, haqlı idi. Amma bir istisna ilə. Bu sərvət insandırsa, böyük zəka sahibi şəxsiyyətdirsə, çox şeyləri həll etməyə qadir olur.

Örnəyi – Prezident İlham Əliyev!

Onikinci yüzilin səlcuq tarixçisi Nəcməddin Əbu Bəkr Ravəndi "Rahət əs-sudur və ayət əs-surur" – "Könüllərin rahatlığı və sevinclərin əlaməti" adlı əsərinin sonundakı "Hökmdarların əyləncələri" adlı fəslində dövlət başçılarına tövsiyə edirdi ki, nərd deyil, şahmat oynamağa üstünlük versinlər. İzah edirdi ki, nərddə zərlər var və onlar işin gedişini dəyişə bilir – nərdtaxta arxasında rəqibinizdən daha yaxşı oynayaraq qalib çıxarsınız, ancaq o, uğurunuzu heçə endirərək cığallıqla deyə bilər ki, sizə zər verdi, ona görə uddunuz. Lakin belə də ola bilər ki, siz oyunu hər cəhətdən yüksək səviyyədə aparsanız da, rəqibin zərlərinin yaxşı gətirməsi üzündən uduzarsınız. Rəqibinizsə sizi cırnadaraq söyləyər ki, o, daha ağıllı oynadığı üçün sizi məğlubiyyətə uğratdı.

Böyük siyasət meydanını nərd taxtası sayaraq zərə bel bağlayanları da, ya uzaqbaşı bu qəliz aləmdə dama gedişləri ilə nailiyyətlərə çata biləcəklərinə ümid bəsləyərək büdrəyənləri də, xar olanları da az görmədik.

Prezident İlham Əliyev qlobal siyasətdə ən mahir qrossmeysterlərdən biri olduğunu artıq çoxdan sübuta yetirmişdir.

Onun böyük siyasətdəki yolu əsrin dörddəbiri həcmində (mən bura İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri və ölkənin Baş naziri kimi çalışdığı müddəti də əlavə edirəm) zahirən qısa tarixi dövrü əhatə etsə də, Azərbaycanın həlli mümkünsüz kimi görünən bir silsilə Tarixi (!) problemlərinin həllinə müvəffəq olması dövlət xadimi kimi bu şəxsiyyətin nadirliyi və fövqəladəliyini bariz şəkildə ortaya qoyur.

Gözümüzün qarşısında göz açıb gördüyümüz, indiyəcən bu şəkildə tanıdığımız dünyanın nizamı dəyişdirilir, siyasi xəritəsi başqalaşır.

Və Böyük Azərbaycanlı İlham Əliyev bu planetar dəyişikliklərdə bilavasitə imzası olan müstəsna simalardan biridir.

Hər günü Zəfər salnaməmizin ayrıca bir qürur səhifəsi olan 2020-ci ilin Vətən müharibəsi və onun Şuşa zirvəli 8 Noyabr qələbəsi, ardınca isə 2023-cü ilin 19-20 sentyabrındakı 23 saatlıq antiterror əməliyyatı və onun tam təmizlənmiş Xankəndi təntənəsinin bu millət sevinclərinin baş memarı Prezident İlham Əliyevin adını xalqın bağrının başında həmişə yaşadacağına şəkk yoxdur.

Qurduğu güclü iqtisadiyyat, yaratdığı mükəmməl ordu, apardığı ölçülü-biçili siyasət və müharibə gedişində özünün də İkinci Qadir Orduya çevrilməsi sayəsində bu qələbəni gətirmiş Prezident İlham Əliyevin həmin hünəri siqləti ilə 1918-ci ilin mayında qurucu babalarımızın bu millətə istiqlalı dadızdırmasına, müstəqil milli dövlətimizi qurmasına, unudulmaz Heydər Əliyevin 70 illik həsrətdən sonra bərpa edilmiş müstəqilliyimizin 1993-cü ildə yenidən itirilmək, 2 yaşına çatmamış gənc dövlətimizin parçalanma və süqut təhlükəsi ilə üzə-üzə qalarkən göstərdiyi rəşadətlə tay tutula bilər. Ancaq İlham Əliyevin etdiklərinin çevrəsi daha geniş və mahiyyəti daha dərindir axı.

Nə XX yüzilin əvvəllərində ilk dəfə elan edilərkən, nə də 1991-ci ilin oktyabrında təzədən bərpa olunanda Azərbaycan istiqlalı heç də rəsmiyyətdə bizə aid ərazimizin hər nöqtəsində bərqərar olmamışdı. Bu ülvi millət arzusu və dövlət idealını reallaşdırmaq Prezident İlham Əliyevin siyasi tərcümeyi-halını bəzəyən hadisədir.

Bütöv Azərbaycan istiqlalı Prezident İlham Əliyevin əsəridir! Daha bütövlərini də bunca mötəbər zəmin üzərində zaman özü gətirəcək!

Ancaq digər mühümdən mühüm müvəffəqiyyətsə ondan ibarətdir ki, güc və imkanlar baxımından qətiyyən bərabər olmayan, üzdən görünən və görünməyən qəliz qarşıdurmada apardığı son dərəcə incə, zərgər dəqiqlikli siyasət və çox gedişləri irəlicədən görmək qabiliyyəti ilə Prezident İlham Əliyev Azərbaycanı və bölgəni erməniçilikdən qat-qat təhlükəli, əslində həmin fəsadın da doğurucusu olmuş bəladan qurtarır. Ancaq tək Azərbaycanı da yox!

Prezident İlham Əliyevin Vaşinqton zəfəri artıq onun yalnız Azərbaycan deyil, yeni Qafqaz quruculuğundakı misilsiz ƏSƏRi kimi dəyərləndirilməlidir.

Tarixdən gələn köhnə və nəcib ənənəylə millət öndərlərinin, sərkərdələrin adının qarşısına onların şücaətlərinin və yaddaşlara həkk olunan əməllərinin nişanəsi olan kəlmələr əlavə edilib. Birinə "Fateh", birinə "Qurucu", birinə "Adil", birinə "Məğlubedilməz"... deyiblər. Qarabağ qələbəsindən sonra Prezident İlham Əliyevin adının önündə xalq da, qələm adamları da "Müzəffər" kəlməsini minnətdarlıq və sevgi ifadəsi olaraq işlətməyə başladılar. Ancaq, zənnimcə, Prezident İlham Əliyevə bugündən belə daha çox yaraşan "XİLASKAR" sözüdür. Çünki 30 ilə yaxın müddətdə işğal altında qalmış Azərbaycan torpaqlarını azadlığa çıxarmaq onun başlıca xidmətlərindən sadəcə biridir. Vaşinqton Zirvəsindən sonra açılan perspektivlər Prezident İlham Əliyevi Azərbaycanla yanaşı bütün Cənubi Qafqazın da son iki əsrdən artıq müddətdə məruz qaldığı və gələcəkdə davam edəcəyi ehtimalı da istisna olunmayan gözüdoymaz imperialist iştahlardan, labüd xarici təsir və müdaxilələrdən də xilasediciliyin əsas memarına döndərir.

Prezident İlham Əliyev təkcə yeni, qüdrətli, qalib Azərbaycanın deyil, həm də artıq topsuz-tüfəngsiz, yüksək zəkasının və diplomatik istedadının sayəsində gerçəkləşdirməyi bacardığı xilaskarlıq missiyası ilə sabahkı daha güclü, daha yekdil, daha inkişaf etmiş Cənubi Qafqazın xilaskarı və qurucusu adlanmağa layiqdir.

Bu misilsiz xilaskarlıq və quruculuğun təkan nöqtəsi Zəngəzur dəhlizidir və Prezident Trampın Azərbaycan liderinə bağışladığı simvolik "Ağ Ev açarı" kimi, həmin dəhliz də çox rəmzidir, artıq məcazi mənada yox, elə sözün birbaşa anlamında AÇARdır!

Arxada qalan illərdə bağlanmış beynəlxalq əhəmiyyətli, Avropanın bir sıra ölkələrini qovuşduran və mərkəzində dayandığımız hər layihə iqtisadi səmərəsindən savayı həm də siyasi yük daşıyır, qoruyucu mənası var. Zamanında Ulu öndər "Əsrin müqaviləsi"ni bağlamaq yolunda hətta həyatını risk altında qoyaraq ona görə inadla mübarizə aparırdı və istəyinə də nail oldu ki, həmin bağlaşmaya yalnız Azərbaycanın sabahkı firavan həyatına, zənginliyinə, qüdrətinə gətirib çıxaracaq vasitə kimi deyil, ölkəmizi və müstəqilliyimizi ən müxtəlif xarici təhlükələrdən qoruyacaq zireh kimi baxırdı. Vaxtın gedişi də bunu sübuta yetirdi.

Azərbaycan dövlətinə rəhbərliyə başladığı ilk çağlardan Prezident İlham Əliyev də eyni xətti aparıb: Azərbaycanı dünya əhəmiyyətli mühüm enerji, nəqliyyat, çeşidli iqtisadi müştərək layihələrin aparıcısına, ya aparıcılarından birinə çevirmək, bununla həm ölkəni sərvətləndirmək, daha qadir etmək, həm birbaşa işbirliyi və əməkdaşlıq qurulan ölkələrlə daha sıx dostluq, tərəfdaşlıq münasibətləri ilə bağlanmaq, üstəlik də qıraqdan edilə biləcək təzyiqlərdən, təxribatlardan, həmlələrdən (hətta mümkün işğal tərpənişlərindən) və yüz cür başqa arzuolunmazlıqlardan sığortalanmaq.

Bu xətti gələcəkdə daha inam və qətiyyətlə davam etdirə bilmək üçünsə tədarük etdiyi başlıca etibarlı özüllərdən biri də ABŞ ilə strateji əməkdaşlıq və tərəfdaşlıq yolunun seçilməsi, bu istiqamətdə son ABŞ səfərində ciddi addımların atılması oldu.

Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü və qətiyyətli siyasətin və səylərin nəticəsində, nəhayət ki, xeyir-duası Vaşinqton ZİRVƏsində verilən "Zəngəzur dəhlizi" əslində gələcəyə açılan möhtəşəm bir qapı, sabahın yol xəritəsi, söz və nüfuz sahibliyinin səmtini və keyfiyyətini büsbütün başqalaşdıran, dünyanın iqtisadi və siyasi dəyişmə və yeniləşməsini müəyyənləşdirən diqqətəlayiq həlqələrindən biridir.

"Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) adlanacaq bu bağlantı layihəsi ilə Azərbaycanın bir hissəsi digər hissəsi ilə – əsas ərazimizlə Naxçıvan müstəqim olaraq birbaşa gediş-gəliş imkanı qazanmaqdan əlavə biz tranzit ölkə olmağın yeni imkanlarını da qazanırıq.

Azərbaycana qarşı təcavüzü davam etdirdiyi bütün müddət boyunca Ermənistan ölkəmizin əsas, aparıcı olduğu beynəlxalq müştərək regional layihələrin hamısından kənarda saxlanılmışdı. İndi bu ölkə üçün də geniş inkişaf imkanları açılır. Ancaq yalnız iqtisadi də deyil, onun müstəqilliyini, ərazi bütövlüyünü qoruyacaq imkanlar. Prezident İlham Əliyev bu haqda Vaşinqton sammitindən və Birgə Bəyannamənin qəbulundan öncə də qarşı tərəfə mövqeyini bildirib, onlara düz yolu göstərib: "Mən Ermənistanın Baş naziri ilə görüşlərin birində demişdim ki, Ermənistanın tranzit ölkə olmaq şansı yaranacaq. Dedim ki, siz tranzit ölkə olmağın mənasını bilmirsiniz. Çünki siz tranzit ölkə deyilsiniz və yalnız Azərbaycan sayəsində tranzit ölkə ola bilərsiniz. Azərbaycansız tranzit ölkə olmaq mümkün deyil və siz tranzit ölkə olmağın üstünlüyünü görəcəksiniz. Biz daha güclü tranzit ölkə olmağa çalışırıq. Biz istəyirik ki, ərazimizdən keçən dəhlizlər daha çox yükdaşıma qabiliyyətinə malik olsun. Bu, pul gətirir, iş yerləri açır və siyasi imkanlar vəd edir. Söhbət Ermənistanın uzun illər özünü məhrum etdiyi imkanlardan gedir. Beləliklə, bu nəqliyyat marşrutu – qısaltması TRIPP kimi səslənən "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" daha bir tarixi nailiyyət olacaq".

Doğru sözlərdir, həqiqətən, biz bölgədə iqtisadi və siyasi mühitə nəzarətin mənzərəsini, keyfiyyətini və mahiyyətini dəyişəcək önəmli tarixi hadisənin ərəfəsindəyik. Bəs açılacaq Zəngəzur yoluna qarşı irəlicədən də müşahidə edilmiş, indi də səslənməkdə olan etirazlar, asıb-kəsmələr bu niyyətin gerçəkləşməsinə nəsə maneələr yarada bilərmi? 3 liderin bir masa arxasında oturaraq Baş Paytaxtda bu sənədi imzalaması həmin suala "heç bir narahatlığa əsas yoxdur" cavabıdır ki, var. Həmin mərhələyə gəlib çatanadək bütün mümkün əksgetmələr də, göstərilə biləcək müqavimətlər də dönə-dönə müzakirə edilib, ölçülüb-biçilib ki, nəhayət, bu haqda dünyaya səslənmək, dünyanın da gözü qarşısında imzalama mərasimi keçirmək qət edilib. Odur ki, indi hansı vilayətdən hansı bivec hərbə-zorbalar və cılız hədyanlar eşidilsə də, o cür qımıldanmalar hərəkətə gəlmiş qatarın ardınca çığıran naçarın boş hay-küyündən artıq deyil. Ad Dəhlizin üstündədir, "Sülh və Rifah" marşrutunun təhlükəsizlik və fəaliyyətinin zəmanətçisi Amerika Birləşmiş Ştatlarıdır və bu superdövlət kiminlə necə danışmağın, nə təhər rəftar etməyin də qaydalarını gözəl bilir.

Zəngəzur dəhlizini, ya artıq rəsmiləşən adı ilə deyərsək, TRİPP-i ecazkar Sabah Açarı saymağımız, haqqında daim düşündüyümüz və uğrunda çalışdığımız, Yeganə Doğma Ailəmiz olan Türk dünyası ilə bağlıdır. Mərkəzi Asiyadan Zəngəzura çatıb Naxçıvana yetişəcək, oradan Türkiyəyə uzanacaq Nəhəng Türk Yolu bir şah damar kimi türk ölkələrini qovuşduracaq, qarşılıqlı iqtisadi maraqlar öz töhfələrini verəcək, bütün digər bəhrələri ilə yanaşı türk cümhuriyyətlərini bir-birinə daha bağlı, daha vəhdətdə, iqtisadi cəhətdən daha qüvvətli edəcək.

2025-ci ilin 8 avqustunda ABŞ və Azərbaycan prezidentləri ilk dəfə görüşdülər və baxışlarda, mövqelərdə, ayrıntılara münasibətdə o qədər yaxınlıq vardı ki, sanki çoxdan eyni yolu yanaşı gedən məsləkdaşdılar.

ABŞ-nin 45 və 47-ci prezidenti eyni adamdır. Fəqət 47-ci Prezident 45-ci Prezidentin apardığı sülhçü, qurucu, rifahçı, barışdırıcı, tənzimləyici xətti yenə davam etdirsə də, o, artıq həm də başqa liderdir. Az olmayan yaşına rəğmən ruhən cavan olan Donald Trampın bir məziyyəti də onun çevik uyğunlaşma, vaxtla ayaqlaşma bacarığı, günün yeni istəkləri və çağırışlarını həssaslıqla sezmək keyfiyyətidir. Bugünün Trampı ənənəvi olaraq dünyanı dəyişməyə meyilli ABŞ-nin özünü də dəyişir, onu bir para yıpranmış təsisatlardan arıtlayır, qondarma demokratiya pərdəsi altında aparılmış saxtakar, riyakar və müftəxor təmayüllərdən azad etməyə çalışır. Ona görə də dünənəcən Ağ Evə qiblə kimi baxan və kəsilmiş maliyyəyə görə indi ağzı yağlı tikədən məhrum olmuş qondarma "azadlıq aşiqləri" asi düşərək dünənki ibadətgahlarını qeyzlə "Qara Ev" adlandırırlar.

Donald Tramp sülhün, yaxınlaşmanın, bir-birinə uyğunlaşmanın ucuz sözbazlıqdan deyil, konkret əməldən keçən modellərini təklif edir, ağırlığı iqtisadiyyata sarı yönəldir və "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" da ABŞ dövlət başçısının sülhçü səylərinin daha bir təsdiqidir.

Ancaq bu "Marşrut" da, Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə İşçi Qrupunun yaradılması haqqında Azərbaycan və ABŞ hökumətləri arasında imzalanmış Anlaşma Memorandumu da böyük ölçüdə yeni inkişaf sıçrayışları üçün tramplindir. Tramp tramplininin açdığı üfüqlərin Azərbaycana vəd etdiyi yeni yüksəlişlər ən yaxın sabahlardan gülümsəyir.

***Rəfael HÜSEYNOV,***
***Milli Məclisin sədr müavini, akademik***

# 8 Noyabrdan 8 Avqusta...

(əvvəli 1-ci səhifədə)



Beynəlxalq miqyasda cərəyan edən mürəkkəb proseslər, nəhəng təbəddülatlar fonunda hadisə və proseslərin necə cərəyan edəcəyini müəyyənləşdirmək bacarığına malik çox az dövlət başçısı tapılar. Nəzərə alaq ki, hər prezident, yaxud hökumət rəhbəri lider statusunu daşımır. Xoşbəxtlikdən, Azərbaycanın dövlət başçısı məhz belə bir liderdir və biz bu günlərdə İlham Əliyev liderliyinin daha bir təntənəsini yaşadıq. Elə bir təntənə ki, təəssüratı hər birimizə inanılmaz qürur və fəxarət hissi yaşatmaqdadır.

Yaşadığımız dünya dərin və geniş çalxalanma mərhələsindədir. Müharibələr, qarşıdurmalar, toqquşmalar, ümumən qeyri-adi proseslər insanları gərgin duruma salır, hədsiz narahatlıq və nigaranlıq yaradır. Qarşıda bəşəriyyəti nələrin gözlədiyinə dair ən müxtəlif ehtimallar isə bir çox hallarda subyektivizmin təsirinə məruz qalır. Amma hətta belə çətin şəraitdə də xalq olaraq qəti şəkildə əminik: siyasi idarəçilikdə, çoxplanlı fikir və düşüncələrində, əhatəli hesablamalarında əsla yanılmayan, tutduğu yoldan dönməyərək sarsılmaz xarakter nümayiş etdirən məhz Azərbaycan lideridir – Prezident İlham Əliyevdir. Xalqımızı Zəfərə daşıyan da dövlətimizin başçısının bu xarakteridir. Bu xarakter Azərbaycana ardıcıl parlaq zəfərlər, onun özünə isə Müzəffər Ali Baş Komandan ünvanı qazandırıb.

2020-ci ilin Vətən müharibəsi başlayan andan indiyədək Ali Baş Komandan İlham Əliyevin söylədiyi fikirlər dillər əzbərinə, zərb-məsəllərə çevrilib. Bu gün dövlətimizin başçısının yüksək praqmatizmə əsaslanmış addımları hər bir azərbaycanlının iftixar mənbəyidir. O addımlar Azərbaycanı, əslində isə ümumən Cənubi Qafqazı 8 avqust 2025-ci il tarixi Zəfərinə apardı və ötən beş ilin uğurlar salnaməsinin həlledici qələbə ilə başa çatdığını tam əminliklə vurğulamaq mümkündür.

Prezident İlham Əliyevin əminliyi və qətiyyəti yaşadığımız qarışıq və nigaran zamanda ən ümdə təskinliyimiz və təsellimizdir. Elə bir təskinlik ki, Prezidentin bu tarixi ABŞ səfəri kimi nəhəng reallıq üçün sonsuz inam yaratdı. Elə bir təsəlli ki, üzümüzə Ağ Evin qapılarının da açılacağına heç bir şübhə yeri qoymadı. Çünki İlham Əliyevin liderliyi öz gücünü birinci növbədə xalqın etimadından, möhtəşəm siyasi zəka ilə dürüstlük və səmimiyyətin vəhdətindən alır.

Özünün məşhur formulu ilə ifadə etsək, hər bir azərbaycanlının Prezidenti olan İlham Əliyevin lider uzaqgörənliyinin təntənəsi təkcə doğma xalqımızın düşüncəsində möhkəmlənmiş gerçəklik deyil. Dünyanın bir çox ölkələrinin nüfuzlu şəxsləri bu barədə söz açır, arqumentlər səsləndirir, paralellər aparırlar. Məsələn, yaxşı yadımdadır ki, 2022-ci ildə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan cənab İlham Əliyevi Rusiyanı, regionu ən dəqiq tanıyan lider, Rusiya-Ukrayna müharibəsinin ən yaxşı təhlilçilərindən biri kimi dəyərləndirmişdi. Nəzərə alaq ki, Türkiyə kimi böyük güc faktorunun, NATO ölkəsi rəhbərinin belə fikir səsləndirməsi adi məsələ sayıla bilməz. Dünyanın ən böyük dövlətinin lideri olan Donald Trampın Prezident İlham Əliyevə Ağ Evdəki xitabı da bu baxımdan müstəsna önəm daşıyır: “Siz böyük lidersiniz”.

Dövlətimizin başçısının yaratdığı aydın, uğurlu təəssüratın bəhrəsidir ki, ABŞ Prezidenti Trampın dilindən “Xalqınız böyük xalqdır” iltifatını da eşitdik və inanılmaz dərəcədə qürurlandıq. Şübhəsiz, bu iltifat dəyər baxımından pik nöqtə sayıla bilər. Xalqımızın böyüklüyünün belə yüksək səviyyədə etirafına imkan qazandıran da Prezident İlham Əliyevdir, onun üstün siyasi-diplomatik kursudur. Deməli, Ağ Evdə - dünyanın ən böyük dövlətinin ali ofisində, dünyanın ən möhtəşəm Prezidentinin Azərbaycanın ali rəhbərinə ünvanlanmış xoş fikirləri də həqiqi liderliyə layiqli dəyər və qiymətin beynəlxalq miqyasdakı ən parlaq təzahürüdür. Belə təzahürlə necə öyünməyəsən?

Prezident İlham Əliyevin ABŞ-yə səfəri gözlənilən idi. Bununla bağlı xəbərlər yayılmağa başlayanda Azərbaycanda, az qala, hər kəs bu mövzu barədə müzakirə aparırdı. Səfər çərçivəsində yaşananlar isə gözləntiləri nəinki tam mənada doğrultdu, hətta bir sıra cəhətlərinə görə bütün gözləntilərdən yüksəkdə qərarlaşdı.

Ən müxtəlif şəxslərin dəqiq müşahidə qabiliyyətinin tutarlı nəticələrini, görüş zamanı ayrı-ayrı jestlərə, mimikalara nəzərən rəmzi məqamları necə qiymətləndirdiklərini sosial şəbəkələrdə diqqətlə izlədim. Hər kəsi qürurlandıran məqamlardan biri də Prezident İlham Əliyevin Ağ Evdəki özünəməxsus sərbəstliyi, çox az sayda liderə xas olan özgüvəni, orada az qala ev yiyəsi statusunda davranması idi. Hesab edirəm ki, dövlətimizin başçısının həm dəqiqlik və ciddiyyəti, həm hansısa məsələlərlə bağlı fikirləri, çevik, mükəmməl reaksiyası, ümumən, onun bu səfərin, görüşlərin əhəmiyyətinə, Donald Trampın sülh anlaşmasında roluna dair dilə gətirdiyi düşüncələr, bəzən çox incə yumorla, siyasi ustalıqla dedikləri diplomatiya dərsliklərində layiqincə yer alacaq.

Prezident İlham Əliyev Vaşinqtondakı mükəmməl siyasi-diplomatik davranışları ilə yeni dünya nizamının mahiyyətinə dərindən bələd olan bir liderin nailiyyətlər salnaməsinin yeni səhifələrini yazdı. Əlbəttə, belə bir liderin ABŞ-yə yüksək səviyyəli səfəri zamanı ərsəyə gəlmiş sənədlər də tarixi əhəmiyyət daşımalı idi və belə də oldu. Bu, təkcə mənim və Azərbaycan ictimaiyyətinin deyil, beynəlxalq aləmin gəldiyi qənaətdir, oturuşmuş fikirdir.

Azərbaycan, ABŞ və Ermənistan Birgə Bəyannaməsi, xarici işlər nazirləri tərəfindən sülh sazişinin paraflanması, Bəyannamədə bunun vurğulanması nəzərimdə 1988-ci ildən başlayaraq, insanlarımızın həyatına ağır təsirlər göstərmiş münaqişənin müxtəlif epizodlarını canlandırdı. Torpaqlarımızın işğalı, acılar, faciələr, ölümlər – Vaşinqtonda bütün bunların sona çatdığının yüksək təminatlı anonsu verildi. Əminəm ki, prosesin tam yekunu olan sülh müqaviləsi də uğurla imzalanacaq.

Azərbaycan və Ermənistan arasında barış mühitinin yaranmasına görə dünyanın ən müxtəlif yerlərindən, hətta bizə qarşı dəfələrlə qeyri-obyektiv davranmış beynəlxalq təşkilatlardan, dövlətlərdən alqışlar eşidir, təbriklər alırıq. Bu alqışlara da, təbriklərə də səbəb Prezident İlham Əliyevdir, onun şəxsində dövlətimizdir. Sanballı analitiklər inamla bildirirlər ki, sülh sazişinə gətirən yol birbaşa İlham Əliyevin tarixi xidmətidir. Elə qardaş Türkiyənin lideri Rəcəb Tayyib Ərdoğanın ölkəmizin başçısı ilə son telefon danışığında da vurğuladığı da budur. Cənab Ərdoğan Prezident Əliyevi sülhün lideri adlandırdı. Lakin Azərbaycan lideri bu istiqamətdə də özünəməxsus təvazökarlıq nümayiş etdirir. Yada salaq ki, dövlətimizin başçısı Ağ Evdə son dərəcə kübar tərzdə barış mühitinin formalaşmasında Trampın rolunu xüsusi vurğulamışdı. Eyni zamanda, o da məlumdur ki, Azərbaycan Prezidenti Ermənistanın Baş naziri ilə birgə ABŞ-ın dövlət başçısını Nobel Sülh Mükafatına namizəd kimi irəli sürmək qərarına gəlib.

Prezident İlham Əliyevin ABŞ-a işgüzar səfərinin və səfər boyu yaşananların böyük tarix mahiyyətində Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məsələsi də önəmli yerə sahibdir. Məlum olduğu kimi, söhbət bu məqsədlə Strateji İşçi Qrupunun yaradılması haqqında hər iki ölkənin hökumətləri arasında imzalanmış Anlaşma Memorandumundan gedir. Heç şübhəsiz, sənəd Bakı-Vaşinqton münasibətlərinin tamamilə yeni bir mərhələyə keçdiyini təsdiqləyir. Ona da şübhə yoxdur ki, haqqında söz açdığımız Birgə Bəyannamənin Zəngəzur dəhlizi məntiqi, habelə mövcud xüsusdakı Tramp yolu, Tramp marşrutu və ya Beynəlxalq Sülh və Rifah üçün Tramp marşrutu deyimləri də yeni mərhələnin uğur trayektoriyasını müəyyənləşdirəcək. Burada ən başlıca məqamlardan biri isə xalqımıza, ölkəmizə qarşı tarixi ədalətsizliyin aradan qalxdığının nümayişkaranə şəkildə ifadə olunmasıdır. Prezident İlham Əliyevin Vaşinqtonda mediaya müsahibəsində səsləndirdiyi bir mülahizə bu baxımdan olduqca önəmlidir: “Əlbəttə, eyni zamanda, bu ədalətsiz düzəlişin ləğv edilməsi və bunu məhz öz ofisində mənim iştirakım ilə etmək çox bir rəmzi xarakter daşıyır. Onu başqa bir formatda da edə bilərdi, sonra imzalaya bilərdi. Amma o, mənim iştirakım ilə bunu etməyə qərar vermişdi”.

Həqiqətən, Prezident Donald Tramp “Azadlığı Müdafiə Aktı”na 907-ci düzəlişin ləğvini nümayişkaranə şəkildə həyata keçirdi. Bu, son dərəcə böyük jestdir. Beləliklə, müstəqilliyimizin ilk illərindən bəri xalqımızı narahat edən, dünyada Azərbaycana qarşı misli görünməmiş haqsızlığın simvolu kimi tanınan sənəd qüvvəsini itirdi. Vaşinqtonda, həmçinin, fəaliyyəti ədalətsizliyə meydan verməyə, torpaqlarımızın işğalını leqallaşdırmağa yönəlmiş bir təsisatın – ATƏT-in Minsk qrupunun varlığına rəsmən son qoyulacağına mütləq təminat verildi. Bəlli gerçəklikdir ki, Minsk Qrupu həmsədrlərinin uzun zaman ərzində regiona, ölkəmizə saysız səfərləri, bununla bağlı çıxışları dövlətimizin rəhbərliyində və xalqımızda ikrah, qəzəb doğurmuş, bu qrupun təmsilçiləri məsxərə predmetinə çevrilmişdilər. Təəssüf ki, otuz ilə yaxın müddətdə saxta sülh elçilərinin hoqqabazlığına dözmək məşəqqətini yaşadıq. Amma bu dövr də artıq qapanmaq üzrədir. Ölü təsisata çevrilmiş Minsk qrupunun Azərbaycan və Ermənistan arasında münaqişənin mövcudluğunu, onun guya davam etdiyi məntiqini vurğulaması məlumdur. Ona görə də ölkəmizin rəhbərliyi bu qrupun ləğvini çox vacib şərt kimi irəli sürür. Bakının İrəvan qarşısındakı ikinci şərti isə Ermənistan Konstitusiyasının işğalçılıq, ərazi iddiası mahiyyətindən qurtulmasıdır ki, yekun sülh müqaviləsinin imzalanmasınadək bu tələbimizin də yerinə yetiriləcəyi artıq rəsmən təsdiqini tapıb. Vaşinqton uğurumuzu şərtləndirən amillərdən biri də məhz bu təsdiqlənmədir.

Sonda ümumiləşdirmə apararaq deyim ki, müasir dövrdəki haqq davamızın bir çox təntənələrini hədsiz qürurla, böyük sevinclə yaşamışıq. 2020-ci il 8 Noyabr Zəfəri, 2023-cü ildə lokal xarakterli antiterror tədbirləri ilə ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası hər birimizi sevinc gözyaşlarına qərq edib. Hesab edirəm ki, 8 avqust 2025-ci il tarixi də öz möhtəşəmliyinə, bizə yaşatdığı qürur və xoşbəxtliyə görə onlardan heç nə ilə geri qalmır. Bu tarix son illərin uğur və nailiyyət silsiləsinin məntiqi davamı, müqəddəs haqq mübarizəmizin zəfərlə nəticələnməsinin dünya birliyi tərəfindən birmənalı şəkildə qəbul edildiyi misilsiz məqamdır. Birbaşa Prezident İlham Əliyevin adı, fəaliyyəti ilə bağlı olan daha bir möhtəşəm yaşantıdır. Buna görə, həqiqətən, xoşbəxt xalqıq. Xoşbəxt xalqı və onun liderini yeni parlaq zəfər münasibətilə təbrik edirəm!

***Rəşad MƏCİD,***
***Azərbaycan Mətbuat Şurasının sədri***

# Ağ Evdə Qafqazın ağ günlərinə qapı açıldı

**Beynəlxalq siyasi dairələr, strateji mərkəzlər, dünya mediası bir neçə gündür ki, ABŞ Prezidenti Donald Tampın iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında keçirilən görüşün nəticələrini, Ağ Evdə əldə edilən razılaşmaların Qafqaza yeni bir gələcək vəd etməsini geniş müzakirə edir. Bu hadisə, haqlı olaraq, iştirakçı dövlətlərin və maraqlı ölkələrin həyatında son dövrün böyük siyasi uğuru kimi dəyərləndirilir.**



Bu görüşlərin Azərbaycan üçün mühüm tarixi uğurları, gələcək üçün yaratdığı ümidlər xalqımıza böyük sevinc bəxş etdi, dünənlə bağlı ciddi narahatlıqlara son qoydu. Əvvəla, 5 ildən bəri düyünə düşmüş sülh danışıqları ABŞ liderinin nüfuzu, xoş məramı və iradəsi ilə gerçək mərhələyə daxil oldu. Qarabağ münaqişəsinin gedişində Azərbaycana qarşı ədalətsiz münasibətin 2 ciddi qalığı isə Vaşinqton görüşləri zamanı tarixin arxivinə verildi. Bu tarixi uğur ölkəmizə qarşı 33 ilik siyasi embarqo olan “907”-ci düzəlişin ləğvi və mahiyyəti olmayan Minsk qrupunun buraxılması barədə razılaşma oldu.

ABŞ-ın Azərbaycan və Ermənistanla ikitərəfli əməkdaşlığı yeni mərhələyə yönəldən sənədlərin imzalanması isə Qafqazda sülh prosesinin rifah və əməkdaşlıqla davam etdiriləcəyinə təminat yaradacaq. Bu görüşlərin ümumi uğurunu belə ifadə etmək olar: Ağ Evdə Qafqazın ağ günlərinə qapı açıldı.

Prezidentlər İlham Əliyev və Donald Trampın Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunun imzalanması mərasimindəki tarixi dialoqu ölkəmizdə hədsiz maraqla qarşılanıb və yüksək əhval-ruhiyyə doğurub.

Ağ Evdəki görüşdə Donald Tramp uzun müddət davam etmiş, hər iki xalqa hədsiz bəlalar gətirmiş Qarabağ münaqişəsindən təəssüfləndiyini bildirdi. O Azərbaycanın bu münaqişə və müharibədə göstərdiyi dözümə və ədalətli münasibətə görə xalqımızı “böyük xalq”, İlham Əliyevi “böyük lider” adlandırdı. Azərbaycan Prezidenti isə ABŞ liderinə dünyada müharibələrə son qoyduğuna görə dərin minnətdarlığını bildirdi.

Rəhbərlik etdiyim Beynəlxalq Avrasiya Mətbuat Fondu Vaşinqton görüşlərinin “möcüzə” adlandırılan, dünyanı heyran qoyan nəticələri ilə bağlı beynəlxalq aləmə yönəlik bəyanat yayıb. Sənəddə bildirmişik ki, Azərbaycan–Ermənistan münaqişəsinin ən gərgin dövründə yaradılmış bir təşkilat olaraq Beynəlxalq Avrasiya Mətbuat Fondu artıq 30 ildən çoxdur problemin sülh yolu ilə həlli üçün ardıcıl səylər göstərir. Bu illər ərzində minlərlə insan həyatını itirdi, saysız-hesabsız ailələr dağıldı, bölgənin sosial-iqtisadi inkişafı isə illərlə iflic vəziyyətində qaldı.

Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə keçirilən üçtərəfli tarixi görüş və imzalanan sənədlər, uzun illər davam edən gərginliyin aradan qaldırılması istiqamətində mühüm mərhələ oldu. Sülh müqaviləsinin paraflanması tərəflərin əməkdaşlığa və ən əsası sülh müqaviləsini imzalamağa hazır olduğunu nümayiş etdirdi. Xüsusilə ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə Ağ Evin simvolik açarını təqdim etməsi, iki ölkə arasındakı strateji tərəfdaşlığın və qarşılıqlı etimadın rəmzi kimi tarixə düşdü.

Fondumuz bu mühüm addımı və Vaşinqton görüşündə əldə olunan nəticələri çox yüksək dəyərləndirir. İnanırıq ki, bu prosesin davamı olaraq Zəngəzur dəhlizinin açılması və regionda yeni nəqliyyat marşrutlarının canlanması Cənubi Qafqazın beynəlxalq ticarət və əməkdaşlıq xəritəsində mövqeyini gücləndirəcək, iqtisadi inkişafı sürətləndirəcək.

Beynəlxalq Avrasiya Mətbuat Fondu Birləşmiş Millətlər Təşkilatının Əsas Məşvərətçi statuslu üzvü kimi 33 illik missiyasına sadiq qalaraq bundan sonra da sülhün, qarşılıqlı etimadın və davamlı inkişafın təmin olunmasına yönəlmiş bütün təşəbbüsləri dəstəkləməyə davam edəcək.

***Umud RƏHİMOĞLU,***
***Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri***

# Regionda davamlı sülhə zəmin yaranıb

## *İrəli getmək üçün İrəvan siyasi iradəsini millətçi təzyiqə qurban verməməlidir*

**2025-ci ilin avqust ayında ABŞ paytaxtı Vaşinqtonda keçirilən üçtərəfli görüşlər Cənubi Qafqazın uzun müddətdir davam edən mürəkkəb münaqişələrin başa çatdığına yeni ümidlər gətirdi. Azərbaycan, Ermənistan və ABŞ arasında aparılan danışıqların əsas məqsədi regionda sülh müqaviləsinin paraflanması və bu yolla illərdir davam edən qarşıdurmanın yekun həllinə nail olmaq idi. Vaşinqton görüşü təkcə diplomatik platforma olmaqla kifayətlənmədi, həm də real sülhə gedən yolun xəritəsini çəkmək üçün mühüm bir addım kimi qiymətləndirildi.**



Prezident İlham Əliyevin sülh prosesindəki liderliyi və Azərbaycanın mövqeyinin gücləndirilməsi üçtərəfli dialoqun keyfiyyətini və perspektivlərini önəmli dərəcədə dəyişdi. Sülh müqaviləsinin paraflanması bölgədə uzun müddət arzu edilən sülh və stabilliyə nail olmaq üçün konkret və real bir imkan kimi gündəmə gəldi.

Bəs bu görüşün nəticələri regionda davamlı sülhün təmin olunması üçün yetərlidirmi? Vaşinqton səfərinin yaratdığı diplomatik dinamika hansı siyasi, hüquqi və geosiyasi reallıqlara təsir edəcək? Azərbaycan–Ermənistan münaqişəsinin həllində sülh müqaviləsinin paraflanması prosesinin məğzi nədir? Bütün bu suallar Cənubi Qafqazın gələcəyi üçün olduqca aktualdır və həyati əhəmiyyət daşıyır.

Vaşinqton görüşü həm Azərbaycan, həm Ermənistan, həm də ABŞ üçün bir növ dönüş nöqtəsi rolunu oynadı. Uzun illərdən bəri dondurulmuş münaqişənin həlli üçün ən ciddi diplomatik təşəbbüs kimi qiymətləndirilən görüş konkret addımların atılması istiqamətində ümid yaratdı.

ABŞ-ın vasitəçilik rolu bu prosesdə olduqca vacib idi. Vaşinqton Cənubi Qafqazda sülhün bərqərar olması üçün balanslaşdırılmış və ədalətli vasitəçilik göstərməklə, regionda öz nüfuzunu artırmağa çalışır. ABŞ-ın bu mövqeyi həm regionun strateji əhəmiyyətindən, həm də dünya səviyyəsində geosiyasi rəqabətdən irəli gəlir. Azərbaycan üçün isə Vaşinqton görüşü Prezident İlham Əliyevin qələbə və liderliyini beynəlxalq səviyyədə təsdiqləyən əlamətdar an oldu. Azərbaycanın mövqeyi beynəlxalq hüquq və real hərbi-siyasi durumun harmoniyasına uyğun olaraq tanındı və dəstəkləndi. Bütün bunlar Prezident İlham Əliyevin sülh prosesindəki iradəsini daha da gücləndirdi.

Ermənistan isə Vaşinqtonda sülh müqaviləsinin imzalanması üçün zəruri siyasi iradəni nümayiş etdirməlidir. Sülhə nail olmaq həm ölkənin daxili siyasi vəziyyəti, həm də xarici siyasətində dönüş nöqtəsi ola bilər. Ermənistanın vaxt itirmədən konstruktiv addımlar atması beynəlxalq ictimaiyyət tərəfindən diqqətlə izlənir və regionun stabilliyi üçün vacibdir.

Sülh müqaviləsinin paraflanması prosesinin özü simvolik məna daşımaqla yanaşı, praktiki siyasi addımların başlanğıcını ifadə edir. Sənədin paraflanması ilə tərəflər qarşılıqlı etimadın bərpasına yönəlmiş addımları qəbul edir, sərhədlərin delimitasiyası və demarkasiyası məsələlərində konkret razılığa gəlirlər. İnsanların təhlükəsizliyinin təmin olunması, məcburi



köçkünlərin öz yurdlarına qayıdışı və iqtisadi əlaqələrin bərpası kimi vacib mövzular sülh müqaviləsinin əsas istiqamətlərindəndir. Sülh müqaviləsi yalnız rəsmi sənəd deyil, həm də gələcəkdə regionun siyasi, iqtisadi və sosial həyatında yeni bir dövrün başlanğıcı kimi qiymətləndirilməlidir.

Regionda davamlı sülhün təmin olunmasında Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünü tanıyan dəyişikliklərin aparılması böyük rol oynayır. Konstitusiyada dəyişiklik münaqişənin hüquqi və siyasi həllinin təməl şərti olaraq ortaya çıxır. Konstitusiya dəyişiklikləri Ermənistanın beynəlxalq hüquqa hörmətini və sülhə sadiqliyini nümayiş etdirir. Eyni zamanda, bu addım ABŞ və digər beynəlxalq tərəfdaşlarla münasibətlərin normallaşmasına da xidmət edir. Ermənistanın bu yöndə atacağı addımlar onun diplomatik imicini gücləndirəcək və regional inteqrasiya prosesində öz mövqeyini möhkəmləndirəcək. Ermənistanın məsələni gecikdirməsi və ya dəyişiklikləri həyata keçirməməsi sülh prosesini təhlükə altına qoyar və ölkənin beynəlxalq izolyasiyasını dərinləşdirər.

Vaşinqton görüşü və sülh müqaviləsinin paraflanması davamlı sülhün təmin olunması üçün mühüm zəmin yaratmaqla yanaşı, bunun reallaşması üçün bir sıra əlavə şərtlər də mövcuddur. Burada ilk növbədə, hər iki tərəfin siyasi iradəsi və qətiyyəti vacib rol oynayır. Danışıqlara səmimi və konstruktiv yanaşma liderlərin xalqlarının mənafeyini üstün tutaraq kompromislərə getməyə hazır olmadan sülh yalnız formal sənədlərdə qalacaq. Əks halda, siyasi iradə olmadan proses dayana və ya təxirə salına bilər. Bundan başqa, beynəlxalq ictimaiyyətin balanslı və obyektiv dəstəyi sülh prosesinin uğurla davam etməsini təmin edir. Beynəlxalq dəstək, həmçinin tərəflər arasında etimadın bərpasına və razılaşmaların yerinə yetirilməsinə nəzarət baxımından da həyati əhəmiyyət daşıyır.

Eyni zamanda, iqtisadi inkişaf və regional inteqrasiya sülhün dayanıqlığını təmin edən əsas amillərdəndir. Münaqişədən zərər görmüş ərazilərin bərpası, sərhədlərin açılması və bölgə üzrə enerji, nəqliyyat və digər infrastrukturların bərpası tərəflər arasında qarşılıqlı asılılıq yaradaraq sülhün möhkəmlənməsinə zəmin hazırlayır. Nəhayət, insan hüquqları və sosial ədalətin təmin olunması uzunmüddətli sülh üçün zəruridir. Məcburi köçkünlərin öz yurdlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıtması, etnik qruplar arasında dialoqun və qarşılıqlı anlaşmanın inkişafı, sosial inteqrasiyanın gücləndirilməsi bölgədə yenidən qarşıdurmaların yaranmasının qarşısını alır. İnsanların gündəlik həyatlarında real dəyişikliklər olmadan sülh sazişləri yalnız formal xarakter daşıyacaq.

Beləliklə, Vaşinqton görüşü və sülh müqaviləsinin paraflanması yalnız başlanğıc nöqtədir. Dayanıqlı sülh üçün siyasi iradə, beynəlxalq dəstək, iqtisadi əməkdaşlıq və insan hüquqlarına hörmət kimi kompleks və bir-biri ilə bağlı şərtlər birgə təmin edilməlidir. Yalnız bu halda Cənubi Qafqazda sülh və sabitlik uzun müddət davamlı olacaqdır.

Vaşinqton görüşü və orada əldə edilən razılaşmalar Cənubi Qafqazın taleyində dönüş nöqtəsi ola bilər. Prezident İlham Əliyevin siyasi və diplomatik liderliyi ilə Azərbaycan müharibədə əldə etdiyi qələbəni sülh prosesinə uğurla inteqrasiya etdirdi. Ermənistanın isə Vaşinqtonda üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi – xüsusilə konstitusiyasında müvafiq dəyişiklikləri qəbul etməsi – prosesin davamlılığı üçün zəruridir.

Sülh müqaviləsinin paraflanması Cənubi Qafqazın gələcəyini müəyyən edən strateji qərardır. Bu qərar Azərbaycanın güclü mövqeyi, Ermənistanın məsuliyyəti və beynəlxalq ictimaiyyətin balanslı dəstəyi ilə həyata keçirilməlidir. Nəticədə, Vaşinqton razılaşmaları regionda davamlı sülhün təmin olunması üçün möhkəm zəmin yaratdı. Lakin sülhün tam bərqərar olması üçün siyasi iradə, kompromisə hazır olmaq və konkret addımlar atmaq zəruridir.

Regionun gələcəyi – sabitlik, inkişaf və əməkdaşlıq – diplomatik səylərin uğurlu nəticəsindən asılıdır. Bugünkü sülh gələcək nəsillər üçün yaşanılacaq bir Cənubi Qafqaz yaradır, gənclərin həyatının qorunmasına, yeni münaqişələrin qarşısının alınmasına və regionun dünya xəritəsində təhlükəsiz və güclü aktor kimi yer almasına zəmin hazırlayır. Son olaraq qeyd etməliyik ki, əgər İrəvan davamlı sülh istəyirsə, siyasi iradəsini siyasi təzyiqə qurban verməməli, tarixi və strateji məsuliyyətini dərk etməlidir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Vaşinqton formatı yeni reallıq yaradır

## *Ermənistanda cəmiyyətlə revanşistlər arasındakı uçurum daha da dərinləşir*

**Azərbaycan, Ermənistan və ABŞ liderlərinin avqustun 8-də Vaşinqtonda keçirilən görüşü İrəvanda həm siyasi dairələrdə, həm də ictimaiyyətdə ciddi rezonans doğurub. Ermənistan daxilində danışıqlara münasibət kəskin şəkildə iki düşərgəyə bölünüb. Bu düşərgələrdən birini son dövrlərdə sülh və sabitlik tərəfdarı kimi çıxış edən hökumət və onun dəstəkçiləri, digərini isə danışıqları ərazi güzəştləri və suverenliyə təhlükə kimi qiymətləndirən radikal revanşistlər təmsil edir.**



Baş nazir Nikol Paşinyanın komandasına yaxın fiqurlar görüşü sülh prosesində irəliləyişin növbəti addımı kimi qiymətləndiriblər. Hakim "Mülki müqavilə" partiyasının deputatlarının verdikləri açıqlamalarda qeyd olunub ki, Vaşinqton görüşü Ermənistanın suverenliyi və regionda uzunmüddətli sabitliyin və qarşılıqlı etimadın formalaşması baxımından mühüm əhəmiyyət kəsb edir.

Hakim partiyanın deputatı, parlamentin səhiyyə və sosial məsələlər komissiyasının sədri Narek Zeynalyan Vaşinqton platformasını Ermənistanın xarici siyasət kursunda prinsipial dönüş nöqtəsi adlandırıb. Onun əsas arqumenti budur ki, yalnız sülh sazişi və sərhədlərin qarşılıqlı şəkildə hüquqi cəhətdən tanınması Ermənistanın müstəqilliyini və təhlükəsizliyini təmin edə bilər. Zeynalyan sülh gündəliyinə sadiqliklərini bir daha vurğulayaraq, bu formatda keçirilən danışıqların Ermənistan üçün təkcə təhlükəsizlik yox, həm də iqtisadi inteqrasiya və regiondakı təcrid vəziyyətindən çıxış vasitəsi olduğunu bildirib. Qeyd edib ki, Ermənistanın qərbyönlü siyasəti çərçivəsində Vaşinqtonun vasitəçilik missiyası Rusiyanın zəifləyən nüfuzu fonunda alternativ rol oynamağa başlayıb. Deputat belə görüşlərin davamlı və nəticəyönümlü olmasının vacibliyini vurğulayıb: "Bu görüş Ermənistanın beynəlxalq müstəvidə suveren dövlət olaraq tanınması və regional izolyasiyadan çıxması baxımından əvəzsizdir. Vaşinqton görüşü Ermənistanın Qərblə daha sıx əməkdaşlığa doğru addım atdığının sübutudur".

Hökumətə yaxın ekspertlər də ABŞ-ın prosesə cəlb olunmasını həm balanslaşdırıcı güc, həm də Rusiyadan asılılığın azaldılması yönündə strateji addım kimi dəyərləndiriblər. Güman etmək olar ki, belə mövqelər Ermənistanın təhlükəsizlik arxitekturasında dəyişiklik istədiyini və bunu reallaşdırmaq üçün diplomatik manevrlər etdiyini göstərir.

Lakin Ermənistan müxalifətinin Vaşinqton görüşünə və burada imzalanan sənədlərə münasibəti müsbət olmayıb. Radikal müxalifət, xüsusilə "Hayastan" blokunun nümayəndələri Vaşinqton görüşünə əvvəldən çox ehtiyatla yanaşırdılar. İndi isə onu Ermənistanın milli maraqlarına zidd hesab etdiklərini bildirirlər. Onların fikrincə, bu görüş real nəticə yox, ictimaiyyət qarşısında imitasiya xarakteri daşıyır və Ermənistan tərəfi yalnız Azərbaycanın diktəsi ilə razılaşmağa (?) məcbur edilib.

Təbii ki, bu cür düşüncədə olanların önündə sabiq xarici işlər naziri Vardan Oskanyan dayanır. O, "Facebook" sosial şəbəkəsindəki hesabında yazıb ki, sülh danışıqları Ermənistanın Qarabağ məsələsindən tamamilə imtinasını və Azərbaycanın şərtlərinə boyun əyməsini (?) legitimləşdirir. Oskanyan iddia edib ki, danışıqlar sülh deyil, Ermənistanın təcrid və zəiflik içində qəbul etdiyi birtərəfli öhdəliklərdən ibarətdir. O, ABŞ-ın vasitəçiliyi ilə keçirilən formatı şübhə ilə qarşıladığını bildirib. Burada Ermənistanın deyil, Qərbin geosiyasi maraqlarının ön planda olduğunu iddia edib. Oskanyan Vaşinqtonda imzalanan ikitərəfli və üçtərəfli sənədlərin Ermənistanı hüquqi və siyasi baxımdan zəiflətməyə xidmət etdiyini vurğulayıb: "Biz Ermənistanın milli maraqlarının tam şəkildə zəiflədiyini, Azərbaycanın təzyiqləri qarşısında diplomatik mübarizə apara bilməyən hökumətin iradəsiz davranışını müşahidə edirik. Fakt budur ki, Ermənistan öz suveren ərazilərinin bir hissəsinə nəzarəti müvəqqəti və ya həmişəlik güzəştə getməyə razıdır və bu, qəbuledilməzdir. Artıq bir neçə ildir ki, Zəngəzur dəhlizi adlanan ideya Bakı tərəfindən Ermənistanın suverenliyini şübhə altına almaq və müharibədən sonrakı nizamlanmaya yenidən baxılması üçün siyasi silah kimi (?) istifadə olunur. İndi isə Vaşinqton bu tələbi birdəfəlik rədd etmək əvəzinə daha da legitimləşdirdi. Ağ Ev Azərbaycanın tələbinə yaradıcı həll variantı kimi yanaşdı və bunu müzakirə mövzusuna çevirdi".

***

Erməni İnqilabi Federasiyası – "Daşnaksütyun" və ona yaxın qurumlar isə Vaşinqton görüşünü və onun nəticələrini birbaşa Ermənistanın ziyanına qurulan siyasi oyun kimi dəyərləndiriblər. Partiyanın Livandakı mərkəzi komitəsinin və ABŞ-dakı "Hay data" ofisinin bəyanatlarında Ermənistan rəhbərliyinin "Artsax"ı tamamilə unutduğu, tarixi torpaqların (?) hüquqi statusundan imtina etdiyi bildirib. "Daşnaksütyun" bəyan edib ki, Vaşinqton sammiti Ermənistanın təhlükəsizlik maraqlarını deyil, Paşinyanın şəxsi hakimiyyətini qorumağa yönəlib.

Bəzi revanşist ekspertlər isə görüşdən sonra sərhədlərin delimitasiyası ilə bağlı hansısa güzəştlərin baş verəcəyini proqnozlaşdırıblar. Onların fikrincə, İrəvan Tavuş bölgəsində bəzi kəndləri Azərbaycana verməyə hazırlaşır və bu, Paşinyanın növbəti siyasi güzəşti olacaq.

***

Bu istiqamətdə yayılan manipulyativ xarakterli açıqlamaların çoxluğu Ermənistan baş nazirinin mətbuat katibi Nazeli Bağdasaryanı "Facebook" səhifəsində aşağıdakı fikirləri yazmağa məcbur edib: "Ermənistanın "dəhliz" həlləri ilə əvvəlcədən razılaşdığı, indi razılaşdığı və ya gələcəkdə razılaşacağı ilə bağlı bütün iddialar və yazılanlar, sadəcə olaraq həqiqətə uyğun deyil. Baş nazir Paşinyan bu il iyulun 16-da keçirdiyi mətbuat konfransında Ermənistan Respublikasının yanaşmalarını çox aydın və ikili şərhə yol vermədən təqdim edib. Başqa hər hansı məntiqdən söhbət gedə bilməz".

Parlamentin sədr müavini Ruben Rubinyan isə "Armenpress"ə açıqlamasında bildirib ki, Ermənistanın Azərbaycanla bağlayacağı istənilən sazişə yolların suverenlik, ərazi bütövlüyü və yurisdiksiya, eləcə də qarşılıqlılıq əsasında açılması daxildir: "Yəni indiki halda Ermənistandan keçən bütün yollar və infrastruktur ərazi bütövlüyümüz çərçivəsində tam suverenliyimiz və yurisdiksiyamız altında olacaq və hər şey qanunvericiliyimizə uyğun fəaliyyət göstərəcək. Qarşılıqlılıq əsasında blokun açılması o deməkdir ki, Azərbaycan üçün yollar açıqdırsa, Ermənistan üçün də qarşılıqlı faydalı əsasda açıqdır. Bu, doğrudur. Kənardan və ya içəridən gələn, xaricdən diktə edilən çığırtılara fikir verməməlisiniz. Səmimi narahatlıqlar isə əlavə rəsmi məlumat aldıqdan sonra yəqin ki, aradan qalxacaq".

Siyasi şərhçilər də məsələyə fərqli yanaşırlar. Vaşinqtonda əldə olunan razılaşmaları dəstəkləyənlər Ermənistanın uzunmüddətli sülhə alternativinin olmadığını bildirirlər. Müstəqil politoloq Suren Surenyants qeyd edib ki, sülh danışıqları istənilən halda mübahisəlidir, amma mövcud geosiyasi reallıqda Paşinyanın atdığı addımlar Ermənistanın təcrid vəziyyətindən çıxması üçün alternativsizdir. Eyni zamanda bəzi ekspertlər danışıqlarda şəffaflığın azlığından şikayətlənirlər. Onların fikrincə, ictimaiyyətə heç bir konkret məlumat təqdim olunmadan sülh sazişi ifadəsinin təkrar-təkrar istifadə olunması cəmiyyətdə çaşqınlıq yaradır.

İrəvan və Bakının Vaşinqtonda imzaladıqları sülhtyönümlü sənədlər ətrafında yaranan müzakirələr Ermənistan siyasi spektrində fikir ayrılıqlarını bir daha üzə çıxardı. İqtidar sülh gündəliyini davam etdirməkdə israrlıdır və bu prosesə Qərbin dəstəyini önəmli sayır. Müxalifət və revanşist dairələr isə emosional çağırışlarla cəmiyyəti təşvişə salmağa çalışsalar da, geniş ictimaiyyət onların çağırışına əvvəlki qədər həssas yanaşmır. Xalqın böyük əksəriyyəti sabitlik və iqtisadi rifah istəyir. Bu səbəbdən də radikal qrupların istəklərinə çatmaq ehtimalı azdır və cəmiyyət onları getdikcə daha çox marginal qüvvə kimi görməyə başlayır.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycanın sülh prinsipiallığı – Ermənistan üçün ev tapşırığı

(əvvəli 1-ci səhifədə)



Prezident İlham Əliyev Ağ Evdə Prezident Donald Tramp və Baş nazir Nikol Paşinyanla birgə mətbuata bəyanatında bildirdi ki, Azərbaycan və Ermənistan Sovet İttifaqının süqutu nəticəsində müstəqillik əldə etdikdən sonra müharibə şəraitində olub: "Biz müharibələrə, işğal dövrünə və qan tökülməsinə uzun illər sərf etdik. Bu gün tarixi gündür, çünki biz sülhü bərqərar edirik. Prezident Tramp Qafqaza sülh gətirir və biz buna görə ona minnətdarıq. Əminəm ki, Ermənistan ilə Azərbaycan sülhün əldə olunması üçün özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlarımız da barışacaqlar. Biz qarşıdurma və qan tökülməsi səhifəsini çevirəcəyik, uşaqlarımız üçün işıqlı və təhlükəsiz gələcək təmin edəcəyik. Mən çox şadam ki, biz bu gün yeni, gözəl tarix yazırıq".

Prezident Tramp da bəyanatında 35 ildən artıq davam etmiş münaqişənin insanlara əziyyət və məhrumiyyət gətirdiyini vurğuladı. Sülhün vacibliyi ritorikasına köklənmiş ABŞ lideri, həmçinin, indiyədək bir çox ölkələrin, Avropa İttifaqının və Rusiyanın konfliktin həlli ilə bağlı gərgin çalışdığını, lakin əməli nəticəyə nail ola bilmədiyini diqqətə çatdırdı. Əlbəttə, o, özünün ənənəvi atmacasından da qalmadı: "Ayaq üstə yuxulayan Co Bayden də bu məsələ ilə məşğul olmağa çalışıb, ancaq nəticəsi necə olub bəllidir. O, yəqin ki, bu işə 12 dəqiqə vaxt sərf edib".

Qeyd edək ki, Trampın 12 dəqiqə məntiqinin səmərəsizlik preambulası, əslində, təkcə Birləşmiş Ştatların sabiq dövlət başçısı Baydenə ünvanlanmış mesaj deyil. Məlumdur ki, uzun illər ərzində Bakı ilə İrəvan arasındakı münaqişənin həllinə laqeyd yanaşılıb. Daha doğrusu, yanaşma işğalın leqallaşdırılmasına yönəlib. Ermənistanın da çalışdığı bu olub. 2020-ci ilin 44 günlük müharibəsindən sonra da rəsmi İrəvanın Qarabağ avantürasını davam etdirmək əzmi, müxtəlif manipulyasiyaları nəzərimizdən yayınmayıb. Görünür, elə bu səbəbdəndir ki, Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə Ermənistana inam xüsusunda bəzi məqamlara toxundu. Dövlətimizin başçısının konkret nədən söz açdığını bildirəcəyik. Hələlik isə Paşinyanın Vaşinqtondakı birgə mətbuat konfransında dilə gətirdiyi bir fikri diqqətə çatdıraq. Baş nazir dedi ki, ABŞ-da Ermənistan-Azərbaycan münasibətlərində mühüm nailiyyət əldə edilib. Ölkələr keçmiş tarixlərindən fərqli olacaq yeni hekayənin təməlini qoyub: "Sülh sazişinin paraflanması ölkələrimiz arasında onilliklərdir davam edən münaqişəyə son qoyulmasına yol açacaq, onlar üçün bir-birinin suverenliyinə və ərazi bütövlüyünə tam hörmətlə yanaşaraq, yeni dövrü başladacaq. Bu gün Prezident Trampın şahidliyi ilə onun da imzaladığı bəyannamə daha çox əminlik və inam yaradır ki, biz Cənubi Qafqazda sülh, rifah, təhlükəsizlik və iqtisadi əməkdaşlıq səhifəsini açırıq".

Bəli, Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunda bildirmişdi ki, "amma erməni həmkarımla uzun diskussiya zamanı müzakirə etdiyimiz mövzulardan biri də tərəflər arasında etimadın çox aşağı səviyyədə olması idi. Bu, tamamilə başadüşüləndir. Bizə gəlincə, mövqeyimiz heç vaxt dəyişməyib. 2003-cü ildə "Qarabağ bizim torpağımızdır!" dediyim kimi, bu 22 il ərzində də bunu demişəm və deyirəm. Amma ermənilərin mövqeyi dəyişib. Onun yenidən dəyişməyəcəyi ilə bağlı təminat varmı? Belə bir zəmanət var? Etimologiyanı, şüurun təkamülünü nəzərə alsaq, mənim belə bir təminatım yoxdur".

Görünür, elə məhz bu səbəbdəndir ki, dövlətimizin başçısı Vaşinqtonda mətbuata birgə bəyanatında vurğuladı: "İlk növbədə, qeyd etmək istərdim ki, bu gün biz artıq neçə vaxtdır danışıqlar prosesində olan sülh sazişini parafladıq. Onun burada, dünyanın bir nömrəli paytaxtında, dünyanın bir nömrəli ofisində və Birləşmiş Ştatların hörmətli Prezidenti qarşısında paraflanması faktı göstərir ki, tərəflərdən heç biri geri çəkilməyəcək. Bununla bağlı heç bir şübhə yoxdur. Əgər bizlərdən kimsə, Baş nazir Paşinyan və ya mənim özüm geriyə çəkilmək istəsəydik, buraya gəlməzdik. Beləliklə, Siz, eləcə də Azərbaycan ictimaiyyəti tam əmin ola bilər ki, bu gün baş verən hadisə Qafqaza sülh, uzunmüddətli sülh, əbədi sülh gətirəcək".

Göründüyü kimi, Prezident İlham Əliyevin fikirləri də sülh prosesini tam və möhkəm təminat altına almaq və dünyanın diqqətini ona cəlb etmək məqsədi daşıyır. Bütün razılıqlar əldə olunubsa, hər bir məsələ ətrafında ortaq məxrəcə gəlinibsə, deməli, qarşıda duran vəzifə öhdəlikləri yerinə yetirməkdir. İndiki halda, sözünü tutmalı olan tərəf Ermənistan rəhbərliyidir. Öhdəliklər isə Birgə Bəyannamədə çox açıq şəkildə əksini tapıb. Onlardan birincisi ATƏT-in Minsk qrupu və onunla əlaqəli strukturlarının bağlanmasıdır ki, sənəddə Azərbaycan və Ermənistan xarici işlər nazirləri tərəfindən ATƏT-ə birgə müraciətin imzalanmasa şahidlik əksini tapdı, habelə qurumun bütün iştirakçı dövlətləri bu qərarın qəbuluna çağırıldı. Ermənistanın ikinci öhdəliyinə gəlincə, bu, konstitusiya dəyişikliyidir. Nəzərə alaq ki, Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı Minsk qrupunun buraxılması ilə yanaşı, dəyişikliyin də sülh müqaviləsinin imzalanması yolundakı əsas maneə olduğunu demişdi.

Başlıca məqamlardan biri də odur ki, dövlətimizin başçısı məhz həmin görüşdə barış sazişinin paraflana biləcəyindən söz açmışdı. Yəni, faktiki olaraq, iyulun 19-da avqustun 8-də yaşananların Azərbaycanın iradəsi daxilində olduğunu təsdiqləmişdir: "Bəli, mətn paraflana bilər və Azərbaycan tərəfi artıq Əbu-Dabidə bu təkliflə çıxış edib. Lakin bildiyiniz kimi, paraflanma heç də imzalanma demək deyil. Yəni, biri var ki, tərəflər arasında şifahi razılıq əldə olunur, biri də var ki, tərəflər sənədin hər səhifəsinin sonunda öz imzalarını qoyaraq onu paraflayır".

Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunda Azərbaycan və Ermənistanın sülh müqaviləsinin imzalanmasına çox yaxın olduqlarını da vurğulamış, prosesin geridönməz xarakter aldığı fikrini bölüşmüş, həmçinin, bir daha qətiyyətli mövqe ortaya qoymuşdu. "Bunun hər hansı bir yenidən baxılması, yenidən baş verməsi mümkün deyil. Biz heç nəyi yenidən müzakirə etməyəcəyik. Ancaq Ermənistan yenidən müzakirəyə başlamağa çalışırsa, o deməkdir ki, onlar sülh istəmirlər. Deməli, o ərazi iddiası qalır. Ona görə də biz düzgün istiqamətdəyik. Onlar öz ev tapşırıqlarını yerinə yetirməlidirlər. Bu baş verdiyi halda biz sülh müqaviləsini imzalaya bilərik. Bu da region üçün çox böyük yenilik, çox böyük dəyişiklik olacaq və biz artıq bu haqda danışdıq", - deyən ölkəmizin lideri Vaşinqtonda media nümayəndələrinin suallarını cavablandırarkən də, Ermənistan üçün ev tapşırığını xatırlatmışdı: "Təbii ki, Ermənistanın, necə deyərlər, ev tapşırıqları da var. Bildiyiniz kimi, onların konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası məsələsi imkan vermədi ki, bu gün sülh sazişi imzalansın. Amma bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər".

Sonda ümumiləşdirmə apararaq, Prezident İlham Əliyevin Ermənistan üçün müəyyənləşdirdiyi ev tapşırığı məntiqi üzərində dayanaq. Əslində, dövlətimizin başçısının istər Vaşinqtonda, istərsə də Xankəndidə səsləndirdiyi fikirlər İrəvanın sözügedən tapşırığa yanaşmasının həssaslığı naminə çağırışdır. Diqqət yetirdinizsə, ölkəmizin lideri sülhdən geriyə çəkilməyin yolverilməzliyini vurğuladı. Bu vurğulanma, müəyyən mənada, ABŞ-a da mesajdır. Bir halda ki, ölkə vasitəçidir, deməli, hadisə və proseslərin bundan sonrakı axarına da nəzarəti möhkəm saxlamalı, əldə edilmişlərin sıradan çıxamaması üçün immunitet formalaşdırmalıdır. Həm də ona görə ki, Birləşmiş Ştatların Tramp yolu, Tramp marşrutu və ya Beynəlxalq sülh və rifah üçün Tramp marşrutu var. O marşrut ki, Azərbaycanın digər əraziləri ilə Naxçıvan arasında maneəsiz gediş-gəlişi təmin edəcəkdir və mövcud məqam ABŞ Prezidentinin şahidliyinin rəsmiləşdiyi Birgə Bəyannamədə əksini tapmaqdadır. Bu yerdə baş nazir Paşinyanın Vaşinqtonda Prezident İlham Əliyevdən dərhal sonra söz alaraq "Üzr istəyirəm, tam razıyam. Heç bir əlavəm də yoxdur" söyləməsini də xatırlayaq. Həqiqətən, əlavə yox, gerçək iş olmalıdır ki, qarşıdakı zaman kəsiyi Ermənistanın buna nə dərəcədə məsuliyyətli yanaşacağını göstərəcək. Necə deyərlər, yaşayarıq görərik.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Bakı – Vaşinqton təmaslarında həlledici amil

## Prezident İlham Əliyevə münasibətin timsalında

**Hazırda Prezident İlham Əliyevin ABŞ-a səfəri fonunda müzakirə edilən başlıca məsələlərdən biri Birləşmiş Ştatların Prezidenti Donald Trampın ölkəmizin liderinə münasibətidir. Bəri başdan deyək ki, münasibət yüksək səviyyədədir və fikrimizin təsdiqi baxımından bir çox məqamların üzərində dayanmaq mümkündür. Ancaq əvvəlcə başqa nüansa diqqət yetirək.**

Məlumdur ki, cənab Tramp ilk dəfə ABŞ prezidenti olduğu 2017–2021-ci illərdə bir çox dünya lideri ilə münasibətlərində qeyri-adi, bəzən diplomatik etiketdən uzaq kimi qiymətləndirilən davranışlarla yadda qalıb. Məsələn, o, Almaniyanın sabiq Kansleri Angela Merkelin əlini sıxmaqdan imtina etmişdi. Bu mənada Fransa Prezidenti Emmanuel Makronla bağlı durum bir qədər fərqlidir. Tramp fransalı həmkarının əlini o qədər uzun müddət, özü də möhkəm sıxılmış halda saxlamışdı ki, həmin səhnəyə "əl sıxmaq döyüşü" də deyilir. Amma bu, hələ son deyil. ABŞ lideri NATO sammiti zamanı Makronu əməlli başlı aşağılamışdı. Birinci ikincini təhqirə yaxın şəkildə tənqid etmiş, Fransanın ümumi maraqlar naminə daha çox pul xərcləməli olduğunu bildirmişdi. Təfərrüatlara varmadan onu da deyək ki, ABŞ Prezidentinin Kanadanın baş nazirinə xoşagəlməz münasibəti də olub, Almaniyanı Rusiyanın əsiri qismində qələmə verdiyi vaxtlar da.

Cənab Trampın qeyri-adi davranışlarına hansısa formada haqq qazandırmaq niyyətindən uzağıq. Amma onu deməliyik ki, Birləşmiş Ştatlar lideri, loru dildə desək, kimə nə etdiyini, kiminlə nə cür, hansı formada davrandığını yaxşı bilir. Heç şübhəsiz, hamını tanıyır, hər kəsdən xəbərdardır. Elə götürək, Makronu. Belə bir avantüristə, Fransa adına rüsvayçılıq olan şəxsə necə normal yanaşasan? Eləcə də Makronun dirijor çubuğu ilə hərəkət edən Avropanın bir çox rəhbərlərini saya salmaq vaxt itkisindən başqa bir şey deyil. Tramp üçün isə vaxt qızıldır. Bütün bunlara görədir ki, dünyada Trampın ayrı-ayrı ölkə başçılarına münasibəti ayrıca müzakirə mövzusudur.

Əlqərəz, Prezident Tramp Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında hər iki ölkənin hökuməti arasında Anlaşma Memorandumunun imzalanması zamanı Prezident İlham Əliyevə xitabən "Xalqınız böyük xalqdır", "Siz böyük lidersiniz" dedi. Birləşmiş Ştatlar liderinin ölkəmizin başçısına münasibətinin daha parlaq təzahürünə nəzər salaq: "Sizə daha bir hədiyyəm var. Bu, Ağ Evin rəmzi açarıdır. Mən bunu nadir hallarda təqdim edirəm".

Ümumən Ağ Evin rəmzi açarlarının təqdim edildiyi dövlət başçılarının sayı çox az olar. Hər halda, bununla bağlı məlumata təsadüf edilmir. Cənab Trampın iltifatına gəlincə, onun xoş sözləri Prezident İlham Əliyevin şəxsində, ümumən, Azərbaycan xalqına ünvanlanıb. Çünki Ağ Ev rəhbəri xalqımızın keçdiyi ağır məşəqqətlərdən agahdır. Məşəqqətlərdən və çətinliklərə sinə gərmək, düşdüyü ağır durumla, işğalla barışmamaq əzmindən də həmçinin. Bu, son dərəcə mühüm amildir. Nəzərə alaq ki, dünya, hər bir halda, güc dünyasıdır. Azərbaycan haqqı və ədaləti güc yolu ilə bərpa edib. Ölkəmizdə heç yerdə olmayan, səmimi əsaslara malik xalq-iqtidar vəhdəti var. Belə bir vəhdət yalnız yüksək dəyərə layiqdir. Prezident Tramp məhz həmin dəyəri ifadə etdi. Meydana ritorik sual çıxır: Məsələn,Fransada, yaxud Qərbin hansısa ölkəsində oxşar durum varmı?

Bəli, Azərbaycandakı xalq-iqtidar vəhdəti özlüyündə ənənədir. Bu ənənənin banisi Ulu öndər Heydər Əliyevdir. Prezident İlham Əliyev isə onu inkişaf etdirərək, ideoloji əsasları daha da möhkəmləndirib, dolğun məfkurəvi struktur formalaşdırıb.



Xalq-iqtidar vəhdəti özünün ən parlaq təcəssümünü 44 günlük Vətən müharibəsində göstərdi. Heç şübhəsiz, okeanın o tayında mərd övladlarımızın savaş qəhrəmanlığından yaxşı xəbərdardırlar.

Cənab Trampın Prezident İlham Əliyevə müstəsna münasibəti kontekstində vurğulanmalı daha bir məqama diqqət yetirməzdən əvvəl dövlətimizin başçısının Vaşinqtonda ölkəmizin media vasitələrinə müsahibəsində dilə gətirdiyi bir fikrə nəzər salaq: "Əlbəttə, eyni zamanda, bu ədalətsiz düzəlişin ləğv edilməsi və bunun məhz öz ofisində mənim iştirakım ilə etmək çox bir rəmzi xarakter daşıyır. Onu başqa bir formatda da edə bilərdi, sonra imzalaya bilərdi. Amma o, mənim iştirakım ilə bunu etməyə qərar vermişdi".

Məlum olduğu kimi, cənab İlham Əliyev Prezident Tramp tərəfindən "Azadlığı Müdafiə Aktı"na 907 saylı düzəlişi ləğvindən söz açır. Bu düzəlişin 1992-ci ildə torpaqlarımızın işğalının yaşandığı bir vaxtda qəbul edildiyi məlumdur. Həmin vaxt ABŞ-dakı erməni lobbisinin səyləri ilə ərsəyə gəlmiş sənəd Azərbaycanın, guya, Ermənistanı blokadaya aldığı və buna görə ölkəmizin, bir növ, cəzalandırıldığı məntiqini rəhbər tutmuşdu. Bu məntiqin isə ölkəmizə qarşı görünməmiş ədalətsizlik payı var.

Prezident İlham Əliyevin diqqətə çatdırdığımız iqtibasdakı fikirləri "907"nin nümayişkaranə ləğvinin böyük siyasi jest mahiyyətini açıqlayır. Jestin müəllifi olan Tramp, eyni zamanda, ölkəsindəki anti-Azərbaycançı qüvvələri susdurur. Bu hərəkət Prezident İlham Əliyevli Azərbaycanın keçdiyi yola böyük dəyərdir. Heç şübhəsiz, bu dəyər də ölkəmizin liderinin şəxsinə olan yüksək münasibətdən qaynaqlanır.

Bu dəyərin nəticəsidir ki, hazırda Azərbaycan-ABŞ münasibətləri tamamilə yeni bir mərhələyə - strateji tərəfdaşlığa doğru inamla irəliləyir. Vaşinqtonda tərəfdaşlığın möhkəm təməli qoyuldu və məsələ barədə beynəlxalq aləmə müstəsna mesaj verildi. Əlbəttə, ən böyük mesaj Cənubi Qafqazda sülhdür. Sülhün isə cənab İlham Əliyevin təbirincə desək, dünyanın birinci dövlətinin möhtəşəm Prezidentinin real təminatı var.

Sonda yekun qənaətə gələrək deyək ki, Prezident Trampın Azərbaycan Prezidenti İlham Əliyevə yüksək səviyyəli münasibəti yeni mərhələyə qədəm qoymuş Bakı-Vaşinqton təmasları üçün mühüm və həlledici faktordur. Heç şübhəsiz, bu faktor gələcəyə hesablanmış yüksək dəyərdir. Elə bir dəyər ki, özündə dinamizmi və çevik fəaliyyət prioritetini birləşdirməklə, qlobal dəyişikliklərin təsirindən müdafiə potensialını və immunitetini daşıyacağı inidən şübhə doğurmur.

***Əvəz RÜSTƏMOV***
***XQ***

# Təzyiqi təqdirə çevirmək modeli

(əvvəli 1-ci səhifədə)

Vaşinqtondakı tarixi görüşdə əldə olunan uğur ötən müddət ərzində erməni lobbisinin, diasporasının, xristian təəssübkeşliyini əlində bayrağa çevirən katolikosların girovuna çevrilmiş Bayden-Blinken cütlüyünün, Ermənistanı yeni müharibəyə sövq etməyə çalışan Emmanuel Makronun, barışıq əvəzinə bölgəyə hərbi kəşfiyyat yeridən Avropa İttifaqının, siyasi bəyanatlar "konveyerinə" çevrilən Avropa Parlamenti və Avropa Şurası kimi haypərəst qurumların Azərbaycanı sülh danışıqlarında güzəştə məcbur etməyə yönəlik məkrli planlarını iflasa uğratdı. Diqqətə layiq məqamlardan biri də odur ki, Azərbaycan Prezidentinin qətiyyətli və dönməz siyasəti nəticəsində hamı gördü ki, bölgə xalqları çoxdan arzuladıqları sülhə özləri vasitəçisiz, birbaşa dialoq yolu ilə nail olmağı bacarırlar. Tarix göstərdi ki, münaqişənin kökündə duran, onu qızışdıran dövlətlərin "vasitəçiliyi"nə ehtiyac yoxdur. Onlar sülhə mane olmasınlar, yetər.

Tarixdə şəxsiyyətin rolunu inkar edən sovet ideologiyasının çürüklüyü bir daha sübuta yetirildi. Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsində zəfərin memarı olmaqla yanaşı, həm də sülh gündəliyinin banisidir. Azərbaycan 2022-ci ilin əvvəlində sülh müqaviləsinin əsasını təşkil edən "5 əsas prinsipi" Ermənistana təqdim etmişdi. Bu prinsipləri xatırladaq: Bir-birinin suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərin toxunulmazlığının tanınması; Bir-birinə qarşı ərazi iddiası ilə çıxış etməmək; Bir-birinə qarşı güc tətbiq etməmək, güc tətbiqi ilə hədələməmək; Sərhədlərin demarkasiyası və delimitasiyası, diplomatik münasibətlərin qurulması; Kommunikasiyaların açılması.

Bu prinsiplərin ədalətə və beynəlxalq hüquqa söykəndiyini, nəhayət, dərk edən Ermənistan hakimiyyəti sonda məhz Bakının təklif etdiyi sülh layihəsi ilə razılaşmalı oldu. Ən müxtəlif istiqamətlərdən edilən siyasi və diplomatik təzyiqlərə, hayların qlobal mediada təşkil etdikləri qarayaxma kampaniyasına, sanksiya hədələrinə baxmayaraq, Prezident İlham Əliyev prinsipial mövqeyindən bir addım belə geri çəkilmədi. Əksinə, tarixi ədaləti, reallığı və həqiqəti silah edib Şər qüvvələrin üstünə yeridi, əsl liderə xas cürət və prinsipiallıq nümayiş etdirdi, siyasi strategiyasına sonadək sadiq qaldı və onu uğurla reallaşdırdı.

***

Artıq neçə gündür ki, Vaşinqton danışıqlarının nəticələri dünya mediasında, beyin mərkəzlərində, sosial şəbəkələrdə təhlil edilir, dəyərləndirilir. Aparıcı dövlətlərin liderlərinin tərəflərə ünvanladıqları təbrik məktublarında, ekspert rəylərində ABŞ paytaxtında əldə olunan razılaşmaların bölgəyə sülh və rifah gətirəcəyinə dair əminlik ifadə olunur. İkitərəfli və üçtərəfli danışıqların uğurlu yekunları ilə bağlı Azərbaycan və Ermənistan liderlərinin poçtuna daxil olan məktublarda, Prezident Donald Trampa təşəbbüsə görə edilən təşəkkür mesajlarında yalnız təqdirəlayiq ifadələr yer almaqdadır. Dövlət və hökumət başçıları, nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri Vaşinqtonda baş verənləri "tarixi hadisə" adlandırırlar. Bəziləri vaxtilə sülh prosesinə verdikləri töhfəni xatırladır, kimisi də gələcək üçün öz dəstəyini təklif edir. Misal üçün, ATƏT rəsmisi deyir ki, Azərbaycan və Ermənistan liderlərinin imzaladıqları 8 avqust Bəyannaməsinin reallaşmasında öz üzərinə düşəni etməyə hazırdır. Paradoksal vəziyyət yaranır. İki liderin imzaladığı həmin Bəyannaməyə görə, bu təşkilatın bundan sonra icra edə biləcəyi ən faydalı iş ancaq bədnam Minsk qrupunun ləğvidir. Münaqişənin həlli üçün beynəlxalq vasitəçilik mandatı verilmiş bu qurumun işi 30 ilə yaxın müddətdə Azərbaycanı işğalın nəticələri ilə barışdırmağa çalışmaqdan ibarət olub.

Maraqlı açıqlamalardan biri də Fransa senatının üzvü Natali Quleyə məxsusdur. Rəsmi Parisin erməni lobbisinə xidmət etməsi səbəbindən oyundankənar vəziyyətdə qaldığına təəssüflənən madam Qule ölkəsinin tezliklə Azərbaycanla münasibətlərini yaxşılaşdıracağına ümid etdiyini bildirib.

Bəli, dünənədək İrəvanla sülh danışıqlarında Bakını güzəştlərə məcbur etmək, təzyiq göstərmək üçün min oyundan çıxanlar bu gün reallığı qəbul etməyə məcbur oldular. İndi onlar Vaşinqton razılaşmalarını təqdir etdiklərini bildirir, hətta alqışlayırlar. Bəli, tarix Azərbaycan liderinin timsalında təzyiqi təqdirə çevirməyin mümkünlüyünə şahidlik elədi. Bu, qalib Prezident, regiona sülh gətirən İlham Əliyevin, Azərbaycan diplomatiyasının növbəti parlaq qələbəsidir.

Prezident İlham Əliyevin Vaşinqton səfəri, orada imzalanan birgə sənədlər həm də Azərbaycanofobiya xəstəliyinə tutulmuş Fransa Prezidenti Makronun, keçmiş qondarma qurumu "tanıyan" fransız deputatların, Avropa Parlamentinin, Qərb mediasının, "Amnesty International", "Human Rights Watch" kimi üzdəniraq təşkilatların, erməni lobbisinin, ANCA-nın, Azərbaycanı sanksiya, təcridlə hədələyənlərin, Borellərin, Frenk Pallonelərin, Adam Şifflərin iflasıdır. Həm də tam və qəti iflası.

***İmran BƏDİRXANLI***
***XQ***



## Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

– Azərbaycana qarşı Bayden administrasiyasının təşkil etdiyi, Blinkenin icra etdiyi ssenarilərin məqsədi ölkəmizin "qəsbkar", "aqressiv", "sülhdən yayınan" imicini yaratmaq idi. Amma rəsmi Bakı hələ o zaman bu və ermənipərəst digər qüvvələrin siyasi təxribatlarını neytrallaşdırmağı bacardı. Baxmayaraq ki, belə təzyiqlər Avropa Parlamenti, ABŞ Senatı kimi böyük nüfuza yüksək mənsəbə malik siyasi institutların qəbul etdikləri bəyanatlar, qətnamələr formasında edilirdi. Aydın məsələ idi ki, bundan məqsəd Azərbaycanın danışıqlarda mövqeyini zəiflətmək, onların tələbləri ilə razılaşmaq idi.

İndi isə Azərbaycanın qarşısında məqsədə çatmaq üçün fərqli bir missiya vardı: Amerika Birləşmiş Ştatları ilə münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə qaldırmaq. O zaman Bakının İrəvana qarşı haqlı tələblərini eşidəndə təkcə Rusiyada, Avropada deyil, həmin ABŞ-da üzlərini turşuduanlar bu gün Azərbaycanın sülh gündəliyini dəstəkləyirlər. Donald Tramp administrasiyası Bakının irəli sürdüyü və ardıcıllıqla riayət etdiyi sülh formatını birmənalı şəkildə dəstəklədi. Avqustun 8-də Vaşiqntonda imzalanmış sənədlərdə Azərbaycanın bütün tələbləri öz əksini tapdı. Həmin prinsiplər təkcə Paşinyanın deyil, eləcə də ABŞ prezidentinin imzası ilə də təsdiqləndi.

Azərbaycan ABŞ-la münasibətlərin inkişaf etdirilməsində maraqlıdır. Regionda balansın gözlənilməsi bölgə ölkələrinin müstəqilliklərinin möhkəmləndirilməsi üçün olduqca vacib amildir. Yəni, Rusiya və İranın bölgədə dominantlıq istəklərinə qarşı ABŞ nüfuzu və imkanları həm Azərbaycan, həm Ermənistan, həm də Ermənistan üçün güclü dəstəkdir. Bu dəyişikliklər Azərbaycan Prezidentinin apardığı düzgün və ardıcıl siyasətin nəticəsində baş verdi. Hesab edirəm ki, Vaşinqton görüşünün müsbət nəticələri həm də İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasətin bəhrəsi sayılmalıdır.

## Ekspert rəyi



**Tofiq ABBASOV,**
**siyasi icmalçı**

– Rəsmi Bakının yanaşması ondan ibarətdir ki, dövlətlərarası münasibətlərə bərabərhüquqluluq prinsipi hakim kəsilməlidir. Əgər bu prinsip pozulursa, həm balans pozulur, həm də digər tərəfdən dialoq monoloqa çevrilir. Bu o deməkdir ki, bir tərəf qarşı tərəfi eşitmək istəmir, hətta ona öz niyyətini sırımağa çalışır. Həm də onu özündən aşağı səviyyədə görür. Amma Bakı həm qonşuları, həm Avropanın siyasi institutları, həm də ABŞ-la münasibətləri qarşılıqlı anlaşma və etimad mühiti formalaşdıraraq, birgə səylərlə lazımi nəticələri əldə etdi. Amma əvvəllər nə görürdük? Bəzi güc mərkəzləri Azərbaycanın bu sağlam yanaşmasına, ədalətli və obyektiv şərtlərinə göz yumub, bizə təzyiq göstərməyə, hətta aşağılamağa çalşırdılar. Təbii ki, bu cür zərərli yanaşma heç vaxt özünü doğrulda bilməzdi və sonda belə də oldu. Avropa İttifaqı, Fransa, yaxud Bayden administrasiyası açıq-aşkar təhrikçi mövqe tutmaqla özlərini biabır etdilər. Azərbaycan hakimiyyəti bütün bunlara soyuqqanlı yanaşmaqla öz maraqlarını qoruyub saxlaya bildi. Və sübut etdi ki, biz heç bir təzyiqin, diktatın qarşısında təslim olmayacağıq. Əksinə, onlarla mübarizə apardıq.

Vaşinqton görüşü göstərdi ki, rəsmi Bakı son dərəcə rasional və praqmatik davranışla təkcə öz maraqları uğrunda deyil, eyni zamanda, dünya birliyi qarşısında böyük bir öhdəliyi boynuna götürərək nəticələrin əldə olunmasında aparıcı rol oynadı. Hamı gördü ki, Azərbaycanın bölgədəki vəziyyətlə bağlı mövqeyi digərlərindən həmişə öndə və üstün olub. ABŞ görüşləri təsdiqlədi ki, bütün bu proses Azərbaycan Prezidentinin ssenarisi üzərində qurulub və o, çox böyük uğur qazandı. Azərbaycan təhlükəsizliyin istehsalçısı kimi bütün dünya qarşısında alnıaçıq və üzüağdır.

Bəli, Ermənistanla müqayisədə Azərbaycan daim fərqli mövqedə olub. Rəsmi İrəvan öz xalqına problemlər yaşatmaqla məşğul olanda, Bakı yeni münağişələrin qarşısını almağa çalışırdı. Əgər İrəvan İkinci Qarabağ müharibəsi bitən kimi sağlam mövqe tutsaydı, bu gün bölgədə fərqli durum olardı. Sülh prosesini sabit relslər üzərinə qoyan Azərbaycandır. Ermənistan hakimiyyəti bunu gec də olsa başa düşdü.

# Sülhməramlı hazırlıq, yoxsa geosiyasi mesaj?

## *Paşinyan hökuməti Qərbə inteqrasiya kursunu hərbi müstəviyə yönəldir*

**Avqustun 12-dən 20-dək Ermənistanda beynəlxalq sülhməramlı missiyalarda iştiraka hazırlıq çərçivəsində ABŞ-la birgə "Qartal tərəfdaşı 2025" ("Eagle partner 2025") hərbi təlimi keçiriləcək. Ermənistan mediasının verdiyi məlumata görə, təlimlərdə iştirak edəcək amerikalı hərbçiləri gətirən ABŞ Hərbi Hava Qüvvələrinə məxsus iki hərbi-nəqliyyat təyyarəsi İrəvandakı "Zvartnots" hava limanına edib.**




Təlimlərdə Ermənistanın sülhməramlı briqadası, həmçinin ABŞ qoşunlarının Avropa və Afrikadakı bölmələri və Kanzas Milli Qvardiyası iştirak edəcək. Birləşmiş Ştatların İrəvandakı səfirliyinin yaydığı məlumata görə, təlimlər tibbi evakuasiya prosedurlarına diqqət yetirməklə sülhməramlı tapşırıqların hazırlanmasını və həyata keçirilməsini nəzərdə tutur. Manevrlərin keçirilməsində məqsəd sülhməramlı əməliyyatlar çərçivəsində beynəlxalq sülhməramlı missiyalarda iştirak edən bölmələrin qarşılıqlı fəaliyyət səviyyəsini yüksəltmək, idarəetmə və taktiki rabitə sahəsində qabaqcıl təcrübə mübadiləsi aparmaq, o cümlədən Ermənistan silahlı qüvvələrinin sülhməramlı bölməsinin döyüş hazırlığını artırmaqdır.

Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumatda isə bildirilib ki, ABŞ-la birgə təlimlər ölkənin müxtəlif bölgələrində keçiriləcək. Təlimlərin rəsmi məqsədi Ermənistan silahlı qüvvələri hərbi qulluqçularını beynəlxalq sülhməramlı missiyalarda iştirak üçün hazırlamaq, onların taktiki, texniki və logistika bacarıqlarını artırmaqdır. Bu tip məşqlər NATO standartlarına uyğun fəaliyyət vərdişlərinin mənimsənilməsi üçün də nəzərdə tutulur.

Qeyd edək ki, Ermənistan–ABŞ hərbi əməkdaşlığının yeni mərhələsi kimi qiymətləndirilən təlimlər ilk dəfə 2023-cü ilin sentyabrında keçirilib. O zaman Ermənistan hökuməti bildirmişdi ki, məqsəd BMT mandatı çərçivəsində həyata keçirilən sülhməramlı əməliyyatlara hazırlığı təkmilləşdirməkdir. ABŞ isə bunu Cənubi Qafqaz ölkəsi ilə hərbi əməkdaşlığı inkişaf etdirmək və Ermənistanın beynəlxalq təhlükəsizlik təşəbbüslərinə inteqrasiyasını gücləndirmək kimi təqdim etmişdi. Təlimlərdə əsasən kiçik bölmələr səviyyəsində taktiki tapşırıqlar, müdafiə və hücum əməliyyatlarının planlaşdırılması, fövqəladə hallarda təxliyyə və tibbi yardım prosedurları, həmçinin müasir rabitə sistemlərindən istifadə qaydaları öyrədilir. Ermənistan tərəfi bildirir ki, bu təlimlər üçüncü ölkələrə qarşı yönəlməyib və sırf sülhməramlı xarakter daşıyır. Bununla belə, regionun mövcud geosiyasi həssaslığı fonunda tədbir diqqəti cəlb edir.

"Qartal tərəfdaşı" təlimlərinin keçirilməsi bir neçə mühüm geosiyasi və daxili siyasi mesaj daşıyır. Birincisi, bu, İrəvanın son illərdə müşahidə olunan xarici siyasət vektorunun Qərbə doğru yönəlməsinin konkret təzahürüdür. İkinci Qarabağ müharibəsindən sonra, xüsusilə 2022–2023-cü illərdə Rusiya ilə münasibətlərdə gərginlik artdıqca Ermənistan yeni təhlükəsizlik tərəfdaşları axtarmağa başladı. ABŞ və Avropa İttifaqı ilə müdafiə sahəsində əməkdaşlıq bu siyasətin mühüm hissəsidir. Adı çəkilən təlimlər bu prosesin hərbi-simvolik göstəricisidir.

İkincisi, bu tip təlimlər Ermənistan ordusunun NATO standartlarına uyğunlaşmasını sürətləndirə bilər. Bu, texniki hazırlıqdan tutmuş, komanda idarəetmə strukturlarına qədər geniş spektrdə yeniliklər deməkdir. Qısamüddətli perspektivdə bu, sülhməramlı missiyalar üçün faydalı olsa da, perspektivdə Ermənistanın təhlükəsizlik sisteminin Rusiya mərkəzli Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı formatından uzaqlaşmasını sürətləndirə bilər. Rusiya bu təlimləri bəyənmədiyini açıq şəkildə bildirib. Moskva üçün Ermənistanın ABŞ-la hərbi əməkdaşlığının güclənməsi, xüsusən də Qərb standartlarına keçidi öz mövqelərinin Cənubi Qafqazda zəifləməsi deməkdir. Kreml tərəfindən idarə olunan media hələ 2023-cü ildə keçirilən ilk "Eagle partner" manevrlərini "Qərb tərəfindən Ermənistanın ələ alınması" kimi qələmə vermişdi. Ehtimal etmək olar ki, 2025-ci ildə təlimlərin daha geniş miqyasda keçirilməsi bu narazılığı artıracaq.

Sözsüz ki, təlimlər ölkəmizdə də diqqətlə izlənəcək. Azərbaycan Ermənistanın beynəlxalq sülhməramlı əməliyyatlarda iştirakını birbaşa təhlükə kimi görməsə də, Qərb hərbi strukturlarına yaxınlaşmanın siyasi nəticələrini nəzərə alır. Çünki Ermənistanın Qərblə əlaqələrinin hərbi müstəvidə inkişafı sülh sazişinin imzalanmasına doğru gedən yolda balans faktorunu dəyişə bilər.

Bundan əlavə, məsələnin daxili aspekti də var. Ermənistan hökuməti üçün bu təlimlər həm də daxili auditoriyaya ünvanlanmış mesajdır. Baş nazir Nikol Paşinyan ordunun modernləşməsini və ölkənin beynəlxalq təhlükəsizlik sistemində daha fəal rol oynamasını islahat kursunun bir hissəsi kimi təqdim edir. Revanşistlər isə bunu "Ermənistanın ənənəvi müttəfiqlərindən uzaqlaşması" kimi tənqid edir. Bütövlükdə, "Qartal tərəfdaşı 2025" təlimləri, sadəcə, hərbi manevr deyil, Ermənistanın geosiyasi seçimlərinin göstəricisidir. Təlimlərin formatı və nəticələri həm regiondakı güc balansına, həm də Ermənistanın gələcək təhlükəsizlik arxitekturasına təsir edəcək. Beynəlxalq təcrübə göstərir ki, sülhməramlı hazırlıq adı altında keçirilən təlimlər yalnız taktiki bacarıqların artırılması ilə məhdudlaşmır, həm də iştirakçı ölkənin siyasi imicini formalaşdırır. Bu mənada hazırkı təlimlər Ermənistan üçün etibarlı tərəfdaş obrazını yaratmaq imkanıdır.

Məsələ ilə bağlı fikirlərini öyrəndiyimiz **Azərbaycan Ordusunun sabiq korpus komandiri, ehtiyatda olan polkovnik Şair Ramaldanov** bildirdi ki, belə təlimlər NA-



TO-nun Sülh Naminə Tərəfdaşlıq proqramı çərçivəsində digər ölkələrlə də mütəmadi olaraq keçirilir. Onun sözlərinə görə, bunlar planlı təlimlərdir: "Bundan öncə də Ermənistanda bənzər təlimlər keçirilib. Təlimlərdə sülhməramlı missiyaya qatılan bölmələr iştirak edəcəklər. Bu təlimlərdə əsas istiqamət və belə demək mümkünsə, mövzu daha çox tibbi yardım göstərməkdən, yaxud təxliyyə prosesini həyata keçirməkdən, bu proseslə bağlı sülhməramlı qüvvələrdə istifadə olunan son avadanlıqlardan və digər materiallardan hansı formada yararlanmaq lazım olduğunu öyrətməkdən ibarətdir. Eyni zamanda, zərər çəkmişlər və ya təxliyyə üçün axtarış tədbirlərinin keçirilməsi ilə bağlı ola bilər. Təlim zamanı axtarış tədbirləri çərçivəsində təxliyyə yanaşmaları və bunun üçün istifadə olunan avadanlıq, texnika və digər texniki vasitələrlə bağlı məsələlərə baxıla bilər. Təlimlərdə qarşıya konkret vəzifələr qoyulur və həmin vəzifələrin yerinə yetirilməsi istiqamətində işlər aparılır".

Hərbi ekspert bildirdi ki, heç nə yerində sabit dayanmır, hər şey inkişaf edir. O cümlədən sülhməramlı missiyada iştirak edən qüvvələrin öxünəməxsus yanaşma prinsipləri, özəllikləri var: "Biz bilirik ki, sülhməramlı missiyada məhz tibbi təminat, yardım, təxliyyə kimi məsələlərə daha çox rast gəlinir. Belə olan təqdirdə təlimlərdə əsas bu məsələnin qoyulması məntiqlidir. Mən deyərdim ki, burada hansısa yeni preparatlardan, avadanlıqlardan istifadə edilməsi də ola bilər".

Ş.Ramaldanovun sözlərinə görə, sülhməramlı missiyada iştirak edən istənilən hərbçi bu missiyaya qatılmaq üçün müəyyən bilik və bacarıqlara malik olmalıdır: "Düşünürəm ki, sülhməramlı missiyada iştirak edən erməni bölmələri əvvəlcədən bu mövzularla bağlı müəyyən proqram keçiblər. Hazırda təlim formasında həmin o məşğələlərin yekunu kimi "Qartal tərəfdaşı–2025" manevrləri keçiriləcək. Əlbəttə, sonda müəyyən sertifikatlaşma olacağı da gözləniləndir. ABŞ Hərbi Hava Qüvvələrinə məxsus hərbi-nəqliyyat təyyarələri bundan öncə də Ermənistana gəlmişdilər. Sonra isə təyyarələrdə və hərbçilərdə olan avadanlıqlarla bağlı bəzi məlumatların sızması cənub qonşumuzun müəyyən narahatlıq keçirməsinə səbəb olmuşdu. Ötən dəfə təyyarələrdə bəzi kəşfiyyat avadanlığının gətirilməsinə dair məlumat yayılmışdı. Yayılan məlumatlarda o da qeyd edilmişdi ki, həmin kəşfiyyat avadanlığı Ermənistanda qalıb. İndi də bununla bağlı müəyyən məlumatın sızmasını istisna etmirəm. Hər iki halda təlimlərin qarşısında qoyulan məqsədlər sülhməramlı missiya ilə bağlı olan humanist məqsədlərdir. Digər ölkələrdə, o cümlədən Azərbaycanda da sülhməramlı bölmələrimizin iştirakı ilə bu məqsədləri özündə ehtiva edən təlimlər keçirilir. Düşünürəm ki, Ermənistanda keçiriləcək təlimlər də həmin manevrlərdən biridir".

***Səxavət HƏMİD***
***XQ***

# Tarixi dəyişən sülh konsepsiyası Azərbaycanın dövlət siyasəti kimi



I MƏQALƏ

## Beynəlxalq-hüquqi praktika

"Sülhsevərlik", "dostluq", "barış" və sair kimi anlayışların adi həyatda işlədilən mənalarını hər kəs bilir. Bu kimi terminlərin beynəlxalq hüquq müstəvisinə proyeksiyası isə artıq siyasi-nəzəri və fəlsəfi refleksiyadır. Burada "refleksiya" tam mənası ilə nəzəri sistemlər qurmağı ehtiva etmir - anlayışların mənalarının elə sərhədlərinin empatiyasını nəzərdə tutur ki, düşüncə və fəaliyyəti həmin "sahədə" ahəngdar edə bilsin. Bu baxımdan latınca "reflectere" ("inikas") olan refleksiyanın "sülhsevərlik", "dostluq", "barış" kimi anlayışların beynəlxalq hüquq kontekstində anlamı dövlətin liderinin problemi empatiyası ilə sıx bağlıdır. Faktdır ki, ümumi adı "sülhsevərlik" və "sülh konsepsiyası" olsa da, hər bir dövlətin özünəxas konseptual və praktiki yanaşması mövcuddur. Yəni adı eyni olsa da, dövlətlərin sülhsevərlikləri və sülh konsepsiyaları məzmunda, strateji hədəf məsələsində fərqlənirlər. Ancaq dövlət səviyyəsində bu kimi anlayışlara konkret hüquqi məzmun verən bir neçə kriteriya vardır. Onlar BMT-nin Nizamnaməsində əks olunmuşlar.

## BMT

Bu beynəlxalq təşkilatın Nizamnaməsinə uyğun olaraq beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamədə dövlətlərarası münasibətlərə aid olan "dost münasibətlər" anlayışı tərif edilmişdir. Bu, artıq beynəlxalq hüquqi praktikaya aid olan məsələdir. Bəyannamənin preambulasında dövlətlərarası aspektdə "dost münasibətlər"in semantikasına bir sıra parametrlər daxil edilmişdir. Onları qruplaşdırmaq olar:

– BMT-nin əsas məqsədləri olaraq beynəlxalq sülhün və təhlükəsizliyin təmini, dövlətlərarası əməkdaşlığın dostluq kimi təşkili;

– Xalqların bir-birinə tolerantlıq göstərməsi;

– Xalqların mehriban qonşular kimi sülh şəraitində yaşaması;

– Dövlətlərin bir-biri ilə sülh, təhlükəsizlik, beynəlxalq iqtisadi sabitlik, tərəqqi, xalqların rifahı üçün çalışması, diskriminasiyasız münasibətlər qurması.

Bu kriteriyalardan sülhsevərlik və əməkdaşlığın əsas prinisplərini alırlar. BMT üçün onlar aşağıdakılardır:

– Beynəlxalq hüquq və təhlükəsizlik;

– İnsan haqları, diskriminasiyanın ləğv edilməsi, dini dözümsüzlüyün aradan qaldırılması;

– Dövlətlərarası münasibətlərin bərabər suverenlik və daxili işlərə qarışmama qaydalarına uyğun qurulması (iqtisadi, sosial, mədəni, texniki və ticari sahələrdə).

Bunlar beynəlxalq hüquqda sülh, dostluq, barış, mehriban qonşuluq və s. kimi anlayışların konkret məzmun aldığını göstərirlər. Belə alınır ki, hər hansı dövlətin sülh konsepsiyası və ya sülhsevərlik identifikasiyası yüksək siyasi, hüquqi, mənəvi, mədəni kontekstə malikdir. Buna görə də istənilən sülh konsepsiyasını və ya sülhsevərlik identikliyini dövlətin əldə etdiyi nailiyyətlərə görə qiymətləndirmək zəruridir. Bu bağlılıqda prinsipial əhəmiyyəti olan bir neçə termini də izah etmək lazımdır.

## Hücum etməmək və ya "sülh şəraitində yanaşı yaşamaq"

Dövlətin sülhsevər siyasətinin mərkəzində başqa dövlətə hücum etməmək şərti dayanır. Bu, adi hal deyildir. Məsələn, erməni siyasi şüuru əsrlərlə elə istiqamətlənmişdi ki, qonşu dövlət olan Azərbaycana hücum etməyi özünün təbii qaydası hesab edirdi. Bu, qondarılmış Ermənistana rəhbərlik edən hər bir şəxsin siyasətində özünün konkret ifadəsini tapırdı (deyəsən, Paşinyan yavaş-yavaş dəyişməyə meyllidir).

Deməli, ciddi siyasi, geosiyasi və dövləti səviyyədə "hücum etməmək" və ya "sülh şəraitində yanaşı yaşamaq" heç də şəxsin emosional durumunu ifadə etmir – o, əsaslı dövlət yanaşmasının fəaliyyətində təsdiq olunmalıdır. Bu da o deməkdir ki, dövlət özü bu terminlərin siyasi, hüquqi və geosiyasi anlamlarını müəyyən etməlidir.

Onda müstəqil dövlət üçün hücum etməməklə sülh şəraitində yanaşı yaşamağın mənaca uyğunluqları dövlətin məsələni siyasi və hüquqi anlama xüsusiyyəti ilə birbaşa bağlıdır və bu kontekstdə o, hər şeydən öncə siyasi-diplomatik fəaliyyətin xarakterinə aid olandır. Sözdə demək, sənəddə təsbit etmək hələ hücum etməmək və ya sülh şəraitində yaşamağa hazır olmaq deyildir. Dövlət rəhbərliyinin problemi konseptual anlaması ilə ona əməl etməsi ziddiyyət təşkil etməməlidir. Və bu davamlı olmalı, dövlət siyasətinin ənənəsinə çevrilməlidir. Deməli, sülhsevərlik güc tətbiq etməkdən imtinanı özündə konseptual olaraq nəzəri və praktiki cəhətlərin sintezi kimi ehtiva edir.

## Münaqişələrin həlli, əməkdaşlıq və qarşılıqlı yardım

Bunlar əsl sülhsevərlik üçün prinsipial fəaliyyət növləridir. Onlar bir-biri ilə sıx bağlıdırlar. Münaqişələri danışıqlar yolu ilə həll etməkdə səmimi olmaq dövlətin sülh konsepsiyasının ana xəttini təşkil etməlidir. Qarşı tərəf bu məsələdə səmimi olmasa, vəziyyət dəyişir. Onu məcburən sülhə gətirmək haqqı meydana çıxır. Deməli, reallıqda münaqişənin dinc yolla həll edilməsi niyyəti birtərəfli deyil, həmişə ikitərəflidir. Tərəflərdən biri bu qaydaya əməl etmirsə, bu prinsip müvəqqəti olaraq əhəmiyyətini və real həlledici gücünü itirir.

Bu özəlliyə qarşılıqlı yardımlaşma ciddi surətdə aiddir. Dövlət, ümumiyyətlə, paylaşmağı, yardımlaşmanı sevməlidir. Bu, birbaşa humanitarlığın göstəricisidir. Yardımlaşmada səmimi olmayan dövlət real anlamda sülhsevər və mehriban qonşuluğa uyğun davranan deyildir. Buradan da əməkdaşlığın gerçək və ya illüziya yaratmaq, yalandan görüntü formalaşdırmaq kimi aldadıcı obrazı yarana bilər.

Deməli, beynəlxalq hüququn prinsipləri əsasında qarşılıqlı hörmət və əməkdaşlıq dövlətin sülhsevərliyinin real göstəriciləridir.

Nəhayət, bir nəzəri qeyd də vacibdir.

## Hərbi bloklara qoşulmamaq

XXI əsrdə dövlətin identikliyində xüsusi əhəmiyyəti olan faktorlardan biri onun hərbi bloklara münasibəti ilə bağlıdır. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra ən ağır vəziyyətdə belə heç bir hərbi bloka qoşulmadı. Azərbaycan öz ərazisində olan bütün xarici hərbi bazaları çıxartdı. Bu proses 1989-cu ilin dekabrında "sərhəd hərəkatı"ndan başladı və bu günə kimi ona dəqiq əməl olunur. Azərbaycan Ermənistanın hərbi qruplaşmalarını, Rusiyanın hərbi bazalarını və sonra sülhməramlılarını məhz həmin prinsipə dəqiq əməl etməklə ölkədən çıxardı.

Beləliklə, Azərbaycan müasir müstəqillik dönəmində həqiqi mənada sülhsevər dövlət identikliyinə sahibdir. Onun fəaliyyəti ardıcıl olaraq xarici hərbi bazaların ölkədən kənarlaşdırılması istiqamətində davamlı olaraq qurulmuşdur. Bu proses indi də davam edir. Bəzən, qardaş Türkiyənin hərbi bazasının Azərbaycanda yerləşdirilməsinə çağırışlar eşidilir. Ancaq bu, mümkün deyildir, çünki Konstitusiya və Azərbaycanın dövlət identikliyi buna yol vermir.

Bunun fonunda Ermənistan tam anlamda sülh konsepsiyasına malik olmayan dövlətdir. O, bir hərbi blokun – KTMT-nin üzvüdür. İndi ondan yaxa qurtara bilmir. Bir sıra hallarda qurtuluş üçün başqa bir hərbi bloka, NATO-ya referens etməyə çalışır. Buna görə də Ermənistan KTMT ilə NATO arasında sıxılır.

Bunlar o deməkdir ki, Ermənistan hələ tam anlamda sülhsevər siyasətini formalaşdırmalıdır. Vaşinqtonda paraflanan sülh sazişi həm də bu baxımdan İrəvan üçün əhəmiyyətlidir. Çünki Azərbaycandan sülh məsələsində öyrənməli çox şeylər vardır.

Beləliklə, biz Vaşinqtonda əldə edilən razılaşmaların konseptual anlamı üçün əhəmiyyəti olan bir ümumiləşdirmə apara bilərik. Onun təməlində, ümumiyyətlə, müstəqil Azərbaycan Respublikasının 1993-cü ildən təməli qoyulmuş Sülh Konsepsiyasının əsas müddəaları dayanır.

## Vaşinqton zirvəsinə aparan sülh konsepsiyası

İndi Azərbaycan və dünya KİV-də Azərbaycanın Vaşinqtonda əldə etdiyi tarixi nailiyyətləri əsasən son illərin siyasi gündəmləri ilə izah edirlər. Bu, tamamilə təbiidir. Çünki bu prosesin XXI əsrdə memarı həqiqi anlamda Prezident İlham Əliyevdir. ABŞ Prezidenti Donlad Tramp da dünya miqyasında sülh üçün vacib addımlar atır. Ayrıca, onun ailə dəyərlərinə verdiyi qiymət Azərbaycanda ailə barədə fikirlərlə uyğunluq təşkil edir.

ABŞ-nin Respublika partiyası sağ mərkəzçi və konservativ yönlü təşkilat kimi fəaliyyətində mənəvi-əxlaqi dəyərləri və ailə dəyərlərini qorumağı ciddi nəzərə alır. D.Tarmp da bu dəyərlərə böyük önəm verir. Azərbaycanın cəmiyyət ənənələri aspektində sosial özünütəşkilə baxışlardakı bu yaxınlıq, əlbəttə ciddi faktordur. Onun siyasətdə də təsiri mühüm məsələdir.

Vaşinqtonda Azərbaycan Prezidentinin D.Trampa müraciətən "Siz möcüzəyə imza atdınız" deməsi, Cənubi Qafqaz kontekstində dərin tarixi, siyasi və geosiyasi anlamı olan tezisdir. Bu, çox uğurlu və milli maraqları həmişə üstün tutan qətiyyətli və yüksək zəkalı bir dövlət başçısının, liderin və diplomatın mühüm tezisidir. Onu tam dərk etmək üçün öncə Azərbaycan Respublikasının 1993-cü ildən başlayaraq davamlı surətdə həyata keçirilən sülh konsepsiyasının başlıca müddəalarına bu günün reallıqları işığında bir daha baxmalıyıq.

## Güclü müstəqil dövlətin sülhsevərliyi

Heydər Əliyev ümumi halda müstəqil Azərbaycan Respublikasının dövlət identikliyini və milli ideyasını müəyyən edəndə təsadüfən baza prinsipləri sırasında ərazi bütövlüyünü xüsusi vurğulamırdı. Çünki ərazi bütövlüyü pozulmuş heç bir dövlət nə müstəqil, nə də suveren ola bilməz. Gerçəkçi sülh konsepsiyasına isə yalnız və yalnız əsl müstəqil və suveren dövlət malik ola bilər. Qalan bütün hallarda o, gözəl söz yığınından başqa bir şey deyildir.

Dövlətin ərazi bütövlüyünü bərpa etməsi isə onun güclü dövlət kimi formalaşması ilə birbaşa bağlıdır. Güclü dövlət Heydər Əliyevin konsepsiyasında güclü iqtisadiyyata, cəmiyyətə və müdafiə imkanlarına malik olan dövlət kimi xarakterizə olunur.

Deməli, 1993-cü ildən başlayaraq Azərbaycan dövləti sülhsevərliyin həyata keçirilməsinin təməlində güclü, müstəqil, hüquqi, ərazisi bütöv və tam suveren dövlətin formalaşdırılmasını görürdü. Tarix Ulu öndərin tam haqlı olduğunu sübut etdi.

Bu sülhsevərlik konsepsiyasını Prezident İlham Əliyev davamlı olaraq reallaşdırdı və 2020-ci ilin payızında, sonra isə 2023-cü ilin yenə payızında Azərbaycanın müstəqil dövlət kimi güclü, sülhsevər və regional miqyasda "oyunqurucu" ölkə olduğunu dünyaya nümayiş etdirdi. Böyük mənada hər şey, o cümlədən indi haqlı olaraq fəxarətlə bəhs etdiyimiz Vaşinqton razılaşmaları buradan başladı! Bu tezisdə yuxarıda sülh və barış haqqında vurğuladığımız siyasi-nəzəri məqamların, onların praktiki həyata keçməsi prosesi ilə daxili bağlantısı ifadə edilmişdir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Ərdoğan: Vaşinqton razılaşması Cənubi Qafqazda sülhə doğru tarixi addımdır

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan avqustun 11-də Ankarada hökumətin iclasının yekunlarına dair brifinqdə bildirib: "Avqustun 8-də Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə Vaşinqtonda keçirilən görüşdə əldə olunmuş razılaşma Cənubi Qafqazda uzunmüddətli sülhə doğru yolda tarixi addım oldu".**



Qardaş ölkənin lideri xatırladıb ki, Azərbaycan torpaqlarının uzunmüddətli erməni işğalından azad edilməsi ilə regionun inkişafında yeni mərhələ başlayıb. Ərdoğan Azərbaycanla bağlı məhdudiyyətlərin aradan qaldırılmasını da alqışlayıb: "Türkiyə tərəfinin məmnunluğunu qardaşım, Azərbaycan Prezidenti İlham Əliyevə çatdırdım. Türkiyənin hər zaman Azərbaycanın yanında olacağını vurğuladım. Regionda sülh mühitinin formalaşması ilə avtomobil və dəmir yolu əlaqələri bərpa olunacaq, sərhəd-keçid məntəqələri açılacaq, azad ticarətə maneələr aradan qaldırılacaq ki, bu da bütün region dövlətlərinin maraqlarına cavab verir. Ankara bölgədə sülh və sabitlik naminə mübarizəni davam etdirəcək".

***XQ***

# Cənubi Qafqaza yeni əmin-amanlıq gəlir



**Böyük bir hadisə münasibətilə – ölkəmizin mürəkkəb, iki yüz illik tarixi yolunu parlaq bir qələbə ilə başa vurması münasibətilə bütün Azərbaycan xalqını səmimi qəlbdən təbrik edirəm.**

Dərin məhəbbət və ehtiramla – xalqımıza bu sevinci və qüruru bəxş edən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə təşəkkürümü bildirirəm!

Yaşasın Azərbaycan! Siz var olduqca, dünya da var olsun!

2025-ci il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidentinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında tarixi sülh sazişi imzalandı. Bu sənəd, onilliklərdir davam edən Dağlıq Qarabağ ətrafındakı gərginliyə son qoymaqla yanaşı, Cənubi Qafqazın geosiyasi mənzərəsini də köklü şəkildə dəyişdirən diplomatik bir zəfərdir.

Sazişin ən mühüm nəticələrindən biri beynəlxalq nəqliyyat dəhlizi TRIPP – Trump Route for International Peace and Prosperity layihəsinin yaradılması oldu. Cənubi Ermənistan ərazisindən keçərək Azərbaycanı Naxçıvanla birləşdirəcək bu marşrut ticarət, enerji və kommunikasiya baxımından strateji əhəmiyyət daşıyır. Onun inkişafı üzrə 99 illik eksklüziv hüquqların ABŞ-a verilməsi isə bu ölkənin bölgədə möhkəm mövcudluğunu təmin edir.

Bu addımı Qafqazın geosiyasi xalçasında yeni bir "ipək sapı" çəkməyə bənzətmək olar. TRIPP dəhlizi yalnız logistik arteriya deyil, həm də bölgənin keçmiş inciklikləra və köhnə imperiya təsirlərinə baxmadan dünyaya açıq ola biləcəyinin rəmzidir.

Bu sazişin bir neçə mühüm ölçüsü var:

Diplomatik ölçü – göstərir ki, sülh silah gücü ilə deyil, arqumentlərin gücü və maraqların kəsişmə nöqtələrini tapmaq bacarığı ilə əldə olunur.

Geosiyasi ölçü – Rusiyanın Cənubi Qafqazdakı təsirinin azalması yeni ittifaqlara və tərəfdaşlıqlara qapı açır, bölgədə çoxqütblü təhlükəsizlik sisteminin formalaşmasına şərait yaradır.

İqtisadi ölçü – dəhliz mallar, enerji resursları və texnologiyalar üçün magistral olacaq, keçmiş cəbhə xəttini ticarət yoluna çevirəcək.

Ukrayna üçün bu diplomatik irəliləyiş ikiqat əhəmiyyət daşıyır. Birincisi, Moskvanın həlledici rolu olmadan uzunmüddətli postsovet münaqişələrinin uğurla həllinə nümunə yaradır. İkincisi, Rusiya və ya Belarus ərazisindən keçən ənənəvi, çox zaman riskli marşrutlara alternativ ola biləcək yeni nəqliyyat və enerji yollarının perspektivlərini açır.

Qafqazda sülh – regional sabitlikdir və dünya diplomatiyasının güc balansını dəyişərək gələcəyə yol açmağa qadir olduğunun siqnalıdır. Elə bir gələcək ki, burada "dondurulmuş" münaqişələrin yerini isti ticarət küləkləri tutur, səngərlərin yerini isə körpülər və dəmir yolları alır.

***Arif QULİYEV,***
***hüquq elmləri doktoru,***
***professor, diplomat, Ukraynanın***
***Əməkdar təhsil işçisi***

# Türk Mədəniyyəti və İrsi Fondunun Bəyanatı

**Amerika Birləşmiş Ştatlarında Azərbaycan ilə Ermənistan arasında Birgə Bəyannamənin imzalanmasına Türk Mədəniyyəti və İrsi Fondu da münasibət bildirmişdir. Fondun yaydığı bəyanatda deyilir:**

"Türk Mədəniyyəti və İrsi Fondu Vaşinqtonda Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında Birgə Bəyannamənin imzalanmasını alqışlayır. Bu tarixi sənəd regionun sabit və çiçəklənən gələcəyi naminə davamlı sülhə, qarşılıqlı etimada və uzunmüddətli əməkdaşlığa doğru mühüm bir addımdır.

Fond adından, təşkilatın qurucu dövlətlərindən olan Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə səmimi təbriklərimizi çatdırırıq. Bu mühüm diplomatik nailiyyət onun uzaqgörən strateji baxışı, sülh münasibətlərinə olan sarsılmaz bağlılığı və müdrik dövlət idarəçiliyi sayəsində mümkün olmuşdur.

Türk Mədəniyyəti və İrsi Fondu inanır ki, bu addım region xalqları arasında qarşılıqlı anlaşmanın, əməkdaşlığın və harmoniyanın gücləndirilməsi üçün möhkəm bir təməl olacaqdır".

***XQ***

# Azərbaycan – ABŞ əməkdaşlığında yeni mərhələ başlandı

## *Enerji, rəqəmsal transformasiya və qlobal bazarlara inteqrasiyanın yeni hədəfləri*

**Azərbaycan Prezidenti İlham Əliyevin avqustun 8-də Vaşinqtonda media nümayəndələrinə verdiyi müsahibə ölkəmizin enerji strategiyasının, rəqəmsal inkişaf planlarının və ABŞ-la tərəfdaşlığın gələcək perspektivlərinin aydın mənzərəsini ortaya qoydu. Dövlətimizin başçısının bütün bunlarla bağlı səsləndirdiyi fikirlər təkcə iki ölkə arasında münasibətlərin indiki səviyyəsini deyil, həm də qarşıdakı illərdə iqtisadi və texnoloji sahədə açılacaq yeni imkanların mənzərəsini yaratdı.**



Azərbaycan lideri Prezident Donald Trampla imzalanan memorandumun əsas istiqamətlərindən birinin enerji əməkdaşlığı olduğunu xüsusi vurğuladı. Ölkə rəhbərinin sözlərinə görə, burada söhbət yalnız ənənəvi enerji resurslarından – neft və qazdan getmir, həm də bərpa olunan enerji mənbələrinin inkişafının mühüm yer tutması vurğulanır. Bu, Azərbaycanın enerji siyasətində yeni yanaşma – klassik karbohidrogen ixracı ilə yanaşı, "yaşıl" enerjinin də gündəliyə daxil edildiyini göstərir.

Bu strategiya Azərbaycanın beynəlxalq enerji bazarındakı mövqelərini möhkəmləndirməklə bərabər, respublikamızı gələcəkdə enerji keçid proseslərinin fəal iştirakçısına çevirir. Bərpa olunan enerji sahəsində ABŞ-ın qabaqcıl texnologiyaları və investisiya potensialı ilə əməkdaşlıq imkanları ölkəmiz üçün mühüm önəm daşıyır.

Müsahibədə dövlət başçısının diqqət çəkdiyi əsas məqamlardan biri də Azərbaycanın hazırkı qaz ixracı coğrafiyası ilə bağlı idi. Prezident İlham Əliyev bu məsələ ilə bağlı qeyd etdi ki, hazırda ölkəmiz NATO-nun 10 üzvünü və ABŞ-ın 10 müttəfiqini təbii qazla təmin edir. Ümumilikdə, boru kəməri ilə qaz ixracı 14 ölkəni əhatə edir ki, bu da respublikamızı dünya üzrə qaz nəqlində aparıcı mövqelərdən birinə çıxarır.

Əlbəttə, bu statistik göstəricilər Azərbaycanın enerji diplomatiyasının uğurlarının parlaq ifadəsidir. Xüsusilə, Avropa İttifaqı ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın oynadığı rol artıq strateji əhəmiyyət daşıyır. İndiki geosiyasi şəraitdə etibarlı enerji tərəfdaşı statusu isə ölkəmizə həm siyasi, həm də iqtisadi dividendlər qazandırır.

Prezident İlham Əliyevin açıqlamasında diqqətçəkən başqa bir məqam isə Suriyaya təbii qaz ixracı ilə bağlı idi. Bu, Azərbaycanın enerji ixrac coğrafiyasına Yaxın Şərqi də əlavə etməsi deməkdir. Bu addım yalnız kommersiya baxımından deyil, həm də geosiyasi baxımdan əhəmiyyətlidir.

Yaxın Şərq bazarına daxil olmaq Azərbaycanın regional enerji xəritəsində mövqelərini daha da gücləndirəcək. Bu proses həm də ölkəmizin nəqliyyat-logistika imkanlarının genişləndirilməsi, yeni kəmər və infrastruktur layihələrinin reallaşdırılması ilə paralel gedəcək.

Yeri gəlmişkən, qardaş Türkiyənin Kilis vilayəti vasitəsilə Suriyaya ötürülən Azərbaycan qazı mərkəzi Homs vilayətindəki "Cender Qaz" qazpaylama stansiyasına çatıb, oradan paytaxt Dəməşq yaxınlığındakı "Nasiriyə" və "Təşrin" istilik elektrik stansiyalarına yönləndiriləcək.

Suriyanın energetika nazirinin müavini Qayas Diyabın sözlərinə görə, qaz kəmərinin ötürücülük qabiliyyəti sutkada 3,4 milyon kubmetrdir. Hazırda kəmərlə 1,4 milyon kubmetr Azərbaycan qazı nəql olunur ki, bu da 250 meqavat elektrik enerjisi istehsal etməyə imkan verəcək. Nazir müavini Azərbaycan qazının Türkiyə üzərindən nəqlini "Suriyanın sabitliyinə mühüm töhfə" adlandırıb. Xatırladaq ki, Azərbaycan qazının Türkiyə üzərindən Suriyaya ixracı avqustun 2-dən başlayıb.

Bu məqamda onu da qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev avqustun 8-də Vaşinqtonda media nümayəndələrinə müsahibəsində vurğuladı ki, sadalananlar enerji sahəsində gələcək planların yalnız bir hissəsidir. Bu, o deməkdir ki, qarşıda daha iri miqyaslı layihələr və əməkdaşlıq formatları dayanır. Bura həm mövcud ixrac marşrutlarının genişləndirilməsi, həm də yeni enerji növlərinin istehsalı və ixracına yönələn təşəbbüslər daxildir.

Azərbaycanın "yaşıl" enerji zonaları konsepsiyası, xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında da günəş və külək elektrik stansiyalarının qurulması layihələri gələcək ixrac potensialının artırılmasında mühüm rol oynayacaq. Bu prosesdə ABŞ şirkətlərinin texnoloji dəstəyi və investisiya iştirakı xüsusilə mühüm əhəmiyyət daşıyır.

ABŞ-ın ölkəmizin enerji diplomatiyasının gerçəkləşməsindəki fəaliyyətdən söz düşmüşkən, onu bildirək ki, Azərbaycanın enerji prioritetləri müstəqilliyimizin ilk illərindən bəri respublikamızın xarici siyasətinin və iqtisadi strategiyasının mühüm əsaslarından biri olub. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə başlanılan neft-qaz əməkdaşlığı, ölkəmizi beynəlxalq enerji bazarına güclü şəkildə inteqrasiya etdi. O vaxtdan indiyədək Bakı – Tbilisi – Ceyhan neft kəməri, Cənubi Qafqaz qaz kəməri, TANAP və TAP layihələri kimi strateji infrastruktur xətləri Azərbaycanın enerji nəqliyyat xəritəsini qlobal səviyyəyə çıxardı.

Ötən illər ərzində enerji diplomatiyası təkcə iqtisadi mənfəət mənbəyi olmadı, həm də respublikamızın beynəlxalq aləmdə siyasi çəkisini artırdı. Azərbaycan həm Qərb, həm də regional tərəfdaşlarla balanslı əməkdaşlıq siyasəti həyata keçirərək enerji resurslarını sülh və inkişaf vasitəsinə çevirdi.

Bu gün Prezident İlham Əliyevin ABŞ-la enerji əməkdaşlığı haqqında bəyanatları, əslində, bu tarixi xəttin yeni mərhələyə keçidini göstərir. Ənənəvi bazarlarla yanaşı, bərpa olunan enerji və yeni regionlara çıxış siyasəti, Azərbaycanın enerji diplomatiyasının məzmununu daha da zənginləşdirir.

İki ölkə arasında rəqəmsal əməkdaşlığın iqtisadi təsirlərinə də toxunmaq istərdik. Belə ki, Azərbaycan – ABŞ rəqəmsal əməkdaşlıq planları təkcə texnoloji tərəqqi deyil, həm də iqtisadi inkişaf baxımından ciddi potensiala malikdir. Süni zəka və rəqəmsal transformasiya sahəsində ABŞ şirkətləri ilə birgə layihələrin həyata keçirilməsi bir neçə mühüm nəticə verə bilər:

–Süni zəka əsaslı idarəetmə sistemləri və avtomatlaşdırma həlləri sənaye, kənd təsərrüfatı və xidmət sektorlarında səmərəliliyi artıracaq;

– rəqəmsal texnologiyalar sahəsində ixtisaslaşmış kadrlar üçün minlərlə yeni iş imkanı yaranacaq;

– yerli informasiya texnologiyaları və startap şirkətlərinin ABŞ bazarına çıxışı asanlaşacaq, Azərbaycan regional texnoloji mərkəz statusu qazana biləcək;

– ABŞ texnologiyalarının tətbiqi ilə dövlət və özəl sektorda məlumat təhlükəsizliyi səviyyəsi yüksələcək;

– Fintech sahəsində əməkdaşlıq, nağdsız ödənişlərin və elektron kommersiyanın daha sürətli inkişafına şərait yaradacaq.

Bu təsirlər iqtisadiyyatın şaxələndirilməsi strategiyasına birbaşa dəstək verəcək, Azərbaycanın neft-qaz asılılığını tədricən azaldaraq, rəqəmsal iqtisadiyyatın ümumi daxili məhsuldakı (ÜDM) payını artıracaq.

Sonda Azərbaycanın ABŞ-la əməkdaşlığında mühüm rol oynayacaq strateji perspektivlər barədə də bir məqamı qeyd etmək istərdik. Belə ki, Prezident İlham Əliyevin müsahibəsində səsləndirdiyi fikirlər göstərir ki, hazırda iki ölkə arasında əməkdaşlıq artıq təkcə enerji sektorunda deyil, yüksək texnologiyalar və innovasiyalar sahəsində də strateji məzmun qazanır. ABŞ şirkətləri üçün Azərbaycan enerji ixracatçısı olmaqla bərabər, eyni zamanda, regionun rəqəmsal mərkəzinə çevrilə biləcək bir tərəfdaşdır. Bu əməkdaşlıq həm də Azərbaycanın xarici investisiya üçün açıq, sabit və etibarlı ölkə imicini möhkəmləndirir. Enerji, texnologiya və innovasiya sahələrində yeni layihələrin reallaşdırılması ölkənin iqtisadi şaxələndirmə siyasətinə böyük töhfə vermək şərtləndirir.

Prezident İlham Əliyevin Vaşinqtonda səsləndirdiyi fikirlər Azərbaycanın gələcək inkişaf strategiyasının əsas sütunlarını – enerji ixracında qlobal mövqelərin möhkəmləndirilməsi, yeni bazarlara çıxış, bərpa olunan enerji mənbələrinin inkişafı və rəqəmsal transformasiya ABŞ-la əməkdaşlığın gücləndirilməsini özünü aydın şəkildə göstərir. Enerji diplomatiyasının tarixi nailiyyətlərinə söykənən bu strategiya Azərbaycanın həm iqtisadi, həm də texnoloji sahədə qlobal inteqrasiyasını daha da dərinləşdirmək, ölkəmizi regionun ən mühüm enerji və innovasiya mərkəzlərindən birinə çevirmək əminliyi yaradır.

***V.BİNYATOĞLU***
***XQ***

# Vaşinqton sammiti regional ümidləri doğrultdu

## *Azərbaycan beynəlxalq arenada geniş təsir imkanları qazanıb*

**Azərbaycan Prezidentinin ABŞ-a rəsmi səfəri iki ölkə arasında mövcud olan strateji tərəfdaşlığın daha da dərinləşməsinə mühüm təkan verdi. Bu səfər, həmçinin, Azərbaycan üçün beynəlxalq arenada daha geniş təsir imkanları yaratdı və regional təhlükəsizlik məsələlərində ciddi irəliləyişlərə səbəb oldu. Səfər çərçivəsində Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması ilə bağlı Anlaşma Memorandumu imzalanıb. Bundan əlavə, ABŞ Prezidenti 907-ci düzəlişin tətbiqini dayandıraraq, Azərbaycan–ABŞ münasibətlərində yeni bir mərhələnin başlanğıcını qoymuş oldu.**

Səfər çərçivəsində Azərbaycan–Ermənistan münasibətlərində normallaşma prosesi ilə bağlı müsbət dəyişiklər yaşandı. Birgə Memarondum imzalanaraq, sülh sazişinin mətni paraflandı. Bu, regionda uzunmüddətli sülhün və stabilliyin təmin edilməsi istiqamətində vacib bir addım oldu. Həmçinin, regional nəqliyyat əlaqələri, xüsusilə Azərbaycan və Naxçıvan arasında maneəsiz bağlantı məsələləri müzakirə edilərək, bu sahədəki mövcud çətinliklərin aradan qaldırılması üçün konkret addımlar atıldı.

ATƏT-in Minsk Prosesi çərçivəsində birgə müraciət qəbul edilərək, Ermənistan ərazisində yeni kommunikasiya layihələrinin təşkili təklif olundu. Vaşinqton görüşü və orada əldə olunan uğurlar hamının diqqət mərkəzində idi.

Milli Məclisin deputatı **Arzu Nağıyev** XQ-yə bildirdi ki, Azərbaycan Prezidenti



İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri Prezident Donald Trampın dəvəti əsasında baş tutub: "Bu səfər həm ikitərəfli münasibətlərin inkişafı, həm də regional sabitliyin təmin olunması baxımından tarixi əhəmiyyətə malikdir. Səfərin əsas məqsədlərindən biri Ermənistan və Azərbaycan arasında ABŞ-ın iştirakı ilə sülh müqaviləsinin hazırlanması və bu istiqamətdə bir sıra sənədlərin razılaşdırılması oldu. Azərbaycan və ABŞ arasında münasibətlərin möhkəmlənməsi bu prosesə müsbət təsir göstərdi. Xatırlatmaq yerinə düşər ki, təxminən üç ay bundan əvvəl Şuşada keçirilmiş Qlobal Media Forumda Prezident İlham Əliyev Donald Tramp haqqında müsbət fikirlər səsləndirmiş, onun prezidentliyi dövründə ABŞ-ın heç bir müharibəyə başlamadığını, əksinə, sülh təşəbbüslərinə üstünlük verdiyini qeyd etmişdi. Bu çıxış dövlət başçısının uzaqgörən siyasətinin və gələcək münasibətlərə verdiyi önəmin göstəricisi idi.

Səfər çərçivəsində prezidentlər İlham Əliyev və Donald Tramp Azərbaycan və ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumunu imzalamaları iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da dərinləşdirilməsinə xidmət edir və yeni mərhələnin əsasını qoyur. ABŞ və Azərbaycan arasında əməkdaşlıq enerji təhlükəsizliyi, ticarət, tranzit və regional bağlantılar, müdafiə və təhlükəsizlik, eləcə də süni intellekt və yeni texnologiyalar sahələrini əhatə edir. Diqqət çəkən mühüm məqamlardan biri də ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi və Azərbaycana dövlət yardımını qadağan edən 907 saylı əlavənin icrasının dayandırılması ilə bağlı sənədin imzalanması oldu. Bu düzəliş uzun illər ərzində ölkəmizə qarşı ədalətsiz mövqe sərgiləmiş, Azərbaycan–Amerika münasibətlərində müəyyən gərginliklərə səbəb olmuşdur. Bu məhdudiyyətlərin aradan qaldırılması ABŞ-ın Azərbaycanla əməkdaşlığa verdiyi önəmin göstəricisidir.

Vaşinqton görüşündə Prezident İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən birgə Bəyannamənin imzalanması mühüm hadisədir. Görüşlərdə Azərbaycanın vacib tələblərindən biri olan ATƏT-in Minsk Qrupunun ləğv edilməsi məsələsi gündəmə gətirilib, bu istiqamətdə ATƏT-ə birgə müraciət ünvanlanıb. Vaxtilə müharibə nəticəsində Naxçıvanla kəsilmiş əlaqənin bərpası, xüsusilə türk dövlətləri arasında əlaqələrin gücləndirilməsi baxımından Zəngəzur dəhlizi mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə də Vaşinqtonda razılığa gəlinməsi uğurlu addım hesab oluna bilər".

İnformasiya və Sosial Təşəbbüslərə Dəstək" İctimai Birliyinin sədri **Cəsarət Hüseynzadə** bildirdi ki, Vaşinqton görüşü



və bu görüşdə imzalanmış sənədlər Azərbaycan Prezidenti İlham Əliyevin diplomatik cəbhədə qazandığı qələbənin göstəricisidir: "Vaşinqton gündəliyi o qədər zəngin və vacib məqamları əhatə edirdi ki, bu, Azərbaycanın regiondakı qələbəsinin okeanın o tayında da təsdiqi oldu. İmzalanmış birgə Bəyannamə Azərbaycanın irəli sürdüyü sülh gündəliyinin təsdiqi idi. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz quru bağlantının təmin edilməsi ilə bağlı tələbi ən yüksək səviyyədə təminat altına alındı. Beləliklə, Vaşinqton görüşü həm Naxçıvanla quru yolun açılması, həm də sülh sazişinin imzalanması üçün Ermənistan konstitusiyasında dəyişiklik edilməsi məsələsində Ağ Evdən təminat əldə olunması ilə nəticələndi. Xüsusən də Prezident İlham Əliyev ilə Prezident Donald Tramp arasında görüşün dost və səmimi atmosferdə baş tutması beynəlxalq medianın diqqətini çəkdi. Görüşdən bir neçə saat əvvəl Trampın sosial şəbəkə hesabında İlham Əliyevin Şuşa Qlobal Media Forumundakı çıxışını ikinci dəfə paylaşması Azərbaycan rəhbərinə göstərilən münasibətin aydın təzahürü oldu.

Görüş zamanı Ağ Evin rəmzi açarının Prezident İlham Əliyevə təqdim edilməsi isə xüsusi simvolik məna daşıyır. Açarın təqdim olunması etimad göstərilməsi mənasında işlədilən qədim diplomatik jestdir. Bu addım, ABŞ–Azərbaycan münasibətlərinin yeni mərhələyə qədəm qoyduğunu və qarşılıqlı inamın gücləndiyini ifadə edir".

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçi **Mətin Məmmədlinin** sözlərinə görə, Ağ Evdə liderlə-



rin imzaladıqları Bəyannamədən aydın olur ki, Azərbaycan və Ermənistan xarici işlər nazirləri ATƏT-in Minsk qrupunun rəsmi olaraq buraxılması ilə bağlı müraciət edibrlər: "ATƏT-in Minsk qrupunun buraxılması məsələsi son illər iki ölkə arasında aparılan danışıqlar prosesində Azərbaycan tərəfindən haqlı olaraq qaldırılan məsələ idi. Biz Ermənistandan tələb edirdik ki, Azərbaycanla birlikdə Minsk Qrupunun buraxılması ilə bağlı birgə müraciət edək. Ancaq Ermənistan bu məsələdə qeyri-konstruktiv mövqe nümayiş etdirirdi. Nəhayət, Vaşinqtonda imzalanan birgə bəyanamədən aydın oldu ki, Ermənistan Azərbaycanın bu tələbini qəbul edib. Ümid edirəm ki, ATƏT ölkələri onların müraciətini yekdilliklə qəbul edəcəklər.

Ümumiyyətlə, ATƏT-in Minsk qrupunun buraxılması ilə bağlı bizim mövqeyimiz siyasi məntiqə əsaslanır. Əgər münaqişə həll olunubsa, nəyə görə onunla məşğul olmalı olan beynəlxalq institut hələ də qalmalıdır? Yəni münaqişə həllini tapıbsa, bu struktura da ehtiyac yoxdur. ATƏT-in Minsk qrupu bölgədə vəziyyəti gərginləşdirməyə, yenidən münaqişə yaratmaq istəyən güc mərkəzlərinin maraqlarına xidmət edirdi. Onsuz da nəzərə almaq lazımdır ki, İkinci Qarabağ müharibəsindən sonra, faktiki olaraq bu qurum fəaliyyət göstərmir və hər hansı bir danışıqlar prosesində rolu olmayıb. İndiki geosiyasi reallıqda ATƏT-in Minsk qrupunun fəaliyyətinə heç bir ehtiyac yoxdur. Təqdirəlayiq haldır ki, Ermənistan sonda Azərbaycan tərəfinin qaldırdığı bu məsələni qəbul etdi. Bilirsiniz ki, Azərbaycan danışıqlar prosesində son illər Ermənistan qarşısında iki haqlı tələb irəli sürürdü: Minsk qrupunun buraxılması və Ermənistan konstitusiyasının dəyişdirilməsi. Artıq bu iki tələbdən biri həyata keçmiş sayılır. Bundan əlavə, Ermənistanın konstitusiyasına dair Azərbaycan tərəfindən irəli sürülən tələblər də ciddi siyasi məqamdır. Bu da uzun müddət davam edən danışıqlar prosesində iki tərəf arasında ciddi razılaşmaların əldə olunmasına səbəb ola bilər.

İstər ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılması, istərsə də Ermənistanın konstitusiyasına dair dəyişikliklər, sülhün bərqərar olması üçün mühüm amillərdir. Bu cür məsələlər həqiqətən də iki ölkə arasında sülhün təmin olunmasında mühüm rol oynaya bilər".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

*“Xalq qəzeti” üçün*

# Təbiətə xəyanət – insanlığa qarşı cinayət

**Son illərdə meşə yanğınları həm Türkiyədə, həm də dünyada xeyli artıb. İnsanlıq sanki odla sınağa çəkilir. Meşələrimiz alova təslim olarkən yalnız təbiət yanmır, ciyərlərimiz də qovrulur, nəfəsimiz daralır, onlarla canlı məhv olur.**





Baş verən təbii fəlakətlər və yanğınlarla bağlı hadisələr göstərir ki, terrorla mübarizədə olduğu kimi, bu sahədə də yeni mübarizə üsuluna keçməliyik. Təəssüf ki, ənənəvi mübarizə metodları kifayət qədər təsirli deyil.

Yanğınların əsas səbəbləri arasında iqlim dəyişikliyi, quraqlıq, küləyin təsiri, mənfəət məqsədilə qəsdən törədilən yanğınlar, piknik və manqal kimi səhlənkar davranışlar dayanır.

Digər mühüm məqam isə məqsədinə silahla çata bilməyən düşmənlərin birbaşa ölkələrin iqtisadiyyatını və daxili təhlükəsizliyini hədəf alan yanğınlardır. Qəsdən törədilən yanğınlara səbəb olan şəxslər mütləq terror cinayəti ilə mühakimə olunmalı və cəzalandırılmalıdır.

Son illərdə xüsusilə Aralıq dənizi və Egey bölgələrində baş verən böyük yanğınları yalnız təbii səbəblərlə izah etmək olmaz. Təəssüf ki, mövcud məlumatlara görə, bəzi yanğınların qəsdən insan əli ilə törədildiyi məlumdur.

Sizi rəqəmlərlə yormaq istəmirəm, amma bu günə qədər baş verən böyük yanğınların təxminən 80 faizinin insan əli ilə olduğunu demək istərdim. Üstəlik, bu hadisələrin böyük qismi qəsdən və ya terror məqsədi ilə törədilib.

Mübarizədə təsirsiz və zəif qaldığımız hallar bizi narahat etdiyi kimi, yanğına səbəb olanlara verilən cəzaların yüngüllüyü də təəssüf hissini qat-qat artırır.

Bir meşə yanğınında itirilən yalnız ağaclar deyil. İçərisindəki hər bir canlı – quşlar, həşəratlar, sincablar, tısbağalar və onlarla digər növ – hamısı məhv olur. Bununla yanaşı, ekosistem pozulur, su ehtiyatları tükənir, torpağın məhsuldarlığı azalır, iqlim tarazlığı dəyişir.

Bir ağacın böyüməsi tam 30 il, yanması isə bir neçə dəqiqə çəkir. Yanğınlara qarşı susmaq təbiətə xəyanətdir. Yanğınla mübarizə sahəsində bu gün atacağımız hər addım, sabahımızın tüstü iləmi, yoxsa təmiz nəfəs iləmi olacağını müəyyən edəcək.

Son illərdə Türkiyə yanğınla mübarizədə mühüm addımlar atıb. Təyyarə və helikopterlərin sayı artırılıb, TOMA-lar istifadəyə verilib, könüllü yanğınsöndürmə dəstələri yaradılıb. Lakin Əskişehirdə baş verən son yanğında itirdiyimiz şəhidlərimizin acısı hələ də ürəyimizdədir. Koordinasiya çatışmazlığı, texnoloji imkanların yetərsizliyi, erkən müdaxilədə gecikmələr və bəzi bölgələrdə infrastruktur problemləri isə ən zəif cəhətlərimiz olaraq qalır.

Yanğınlar yalnız baş verdiyi ölkəni deyil, dövlətlərin gələcəyini də təhdid edən qlobal təhlükəsizlik problemidir. Bu, bütün dünyanın problemidir və mübarizə yerli, milli və beynəlxalq səviyyədə planlaşdırılmalıdır.

Yanğınla mübarizədə ən təsirli vasitə “söndürmək” deyil, qarşısını almaq və cəmiyyəti maarifləndirməkdir. Yanğın riski yüksək olan bölgələrdə erkən xəbərdarlıq sistemləri qurulmalıdır. Ölkələr günahsız insanları hədəf alan nüvə bombaları əvəzinə, hər canlının gələcəyini təhdid edən yanğınlarla mübarizə üçün yeni texnologiyalar və müdaxilə vasitələri yaratmağa fokuslanmalıdır.

Terrorla mübarizədə olduğu kimi, yanğınlar və təbii fəlakətlərlə mübarizədə də Türkiyə ilə Azərbaycan arasında çox ciddi həmrəylik var.

Ölkələrimizi və insanlığı hədəf alan terror fəaliyyəti artıq simasını və üsulunu dəyişib. Hücumlar və təhdidlər atəşli silahlarla deyil, yanğınlarla həyata keçirilir.

Təbiət terrorçularına verilən cəzalar isə törətdikləri cinayətlə müqayisədə çox yüngüldür. Türkiyə və Azərbaycanın təbii fəlakətlər, xüsusilə də yanğınla mübarizə sahəsində həmrəy olduğunu bilirik. Son yanğınlar və mübarizə üsulları göstərdi ki, bəzi sahələrdə çatışmazlıqlarımız mövcuddur.

Bu həftəki yazımı Ulu öndər Mustafa Kamal Atatürkün “Meşəsiz bir yurd, vətən deyil” kəlamı ilə tamamlayıram.



*Mö lud YENİ,*
*Türkiyə Jurnalistlər Konfederasiyasının xarici əlaqələr üzrə baş əlaqələndiricisi*

**PS.** Dünən gecə qəzetimiz çapa hazırlanarkən məlum oldu ki, Türkiyənin İzmir, Aydın, Bolu, Manisa, Karabük və Uşak vilayətlərində alovla mübarizə tədbirləri gücləndirilib.

Qardaş ölkənin bütün qurumlarının aidiyyəti orqanları hadisə bölgələrinə səfərbər olunub. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin (FHN) Aviasiya dəstəsinin “BE-200ÇS” tipli amfibiya təyyarəsi də ən şiddətli yanğınların baş verdiyi bölgələrdən olan İzmirdə söndürmə işlərinə dəstək məqsədilə Türkiyəyə gəlib.

Türkiyənin kənd və meşə təsərrüfatı naziri İbrahim Yumaklı son açıqlamasında Aydın vilayəti istisna olmaqla, digər bölgələrdə yanğının şiddətinin nisbətən azaldığını deyib. Ümid edirik ki, tezliklə hər yerdə alovun qarşısını almaq mümkün olacaq. Türkiyə, biz səninləyik!

**Xuntaçıların məhkəməsi**

# Ermənistan hərbçilərinin törətdikləri vəhşiliklər, qətllər təsdiqini tapır

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası avqustun 11-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında Şəhid Rəsul Süleymanlının anası Günel Süleymanova və şəhid Həsən Əkbərovun anası Sənubər Əkbərova oğullarının 2020-ci ildə Vətən müharibəsində həlak olduğunu bildiriblər. Aybəniz Orucova 1992-ci ildə Xocalı soyqırımından iki gün sonra əkiz oğlanları da daxil olmaqla bütün ailə üzvləri ilə birlikdə girov götürüldüyünü, işgəncələrə məruz qaldığını, qardaşı da daxil olmaqla doğmalarının qətlə yetirildiyini deyib.

Aqil Əhmədov 1997-ci ilin aprel ayında Horadiz istiqamətində Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində ağır yaralanaraq əsir götürüldüyünü, barəsində ölüm “hökm”ü çıxarıldığını söyləyib.

Zərərçəkmiş şəxs Hafizə Səfərova 1991-ci il dekabrın 7-də yaşadığı Füzuli rayonunun Divanalılar kəndinə hücum zamanı özünün və doğmalarının girov götürüldüyünü söyləyib. O, girovluq zamanı soyuq yerdə saxlanılıb, özü və digər girovlar pis rəftara məruz qalıb, atası Kərim Səfərov işgəncələr verilməklə qətlə yetirilib.

Şəhid Oruc Cabbarovun anası Ülviyyə Cabbarova övladının Vətən müharibəsində həlak olduğunu bildirib. Səidə Cəfərova 1992-ci ildə Xocalıda soyqırımı zamanı Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində güllə yarası aldığını bildirib. Zərərçəkmiş şəxs soyqırımı zamanı düşmənin qocaları, uşaqları, qadınları kütləvi şəkildə qətlə yetirdiyini söyləyib. Kənan Vahidli, Özal İsmayılov, Rəvan Məmmədov isə 2020-ci ildə Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin açdığı atəşlər nəticəsində yaralandıqlarını bildiriblər.

Sunay Adıgözəlov 2023-cü il oktyabrın 5-də Füzuli rayonunun Alxanlı kəndində Ermənistan silahlı qüvvələrinin basdırdığı minanın partlaması nəticəsində yaralandığını söyləyib. Asəf Xudiyev 2020-ci il noyabrın 14-də ANAMA əməkdaşı qismində minatəmizləmə fəaliyyəti ilə məşğul olarkən Füzuli rayonunun Alxanlı kəndində mina partlaması nəticəsində xəsarət aldığını deyib. Emin Baxşəliyev 2020-ci ildə Vətən müharibəsi zamanı əsir götürüldüyünü bildirib. Əlləri məftillə bağlanılıb, döyülüb, işgəncələrə məruz qalıb, bədəninə elektrik cərəyanı verilib.

Nurəddin Yolçuyev Vətən müharibəsi zamanı, yaralandığını, əsir götürüldüyünü söyləyib. O döyülüb, işgəncələrə məruz qalıb. Seymur Əhmədov, Rafail Zülfüqarov, Mətləb Allahverdiyev müxtəlif tarixlərdə Ermənistan silahlı qüvvələri tərəfindən girov götürüldüklərini bildiriblər. Onların hamısı döyülüb, işgəncələrə məruz qalıb. M.Allahverdiyevin ağzındakı qızıl dişləri zorla çıxarılıb. Mübariz Məmmədov 1992-ci il sentyabrın 1-də Füzuli rayonunun Horadiz kəndi yaxınlığında yaralanması nəticəsində əsir götürüldüyünü bildirib.

Xəyal Abdullayev 2022-ci il mayın 28-də Füzuli rayonunun işğaldan azad olunmuş hissəsində mal-qara otararkən minaya düşdüyünü deyib. Vüqar Mehdiyev 1993-cü il oktyabrın 23-də Füzuli rayonunda girov götürüldüyünü bildirib. Elşən Xəlilov 2021-ci il iyulun 12-də Füzuli rayonunda sursatın partlaması nəticəsində xəsarət aldığını söyləyib.

Bəxtiyar Tağıyev 1992-ci il dekabrın 8-dən 9-na keçən gecə Zəngilanda Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü bildirib. Əsirlikdə olarkən döyülüb, işgəncələrə məruz qalıb. Əli Talıbov ifadəsində 1996-cı ildə Naxçıvanda hərbi xidmətdə olarkən Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü söyləyib. Əsirlik zamanı burnu sındırılıb, dəfələrlə huşu itənədək döyülüb.

Dağlar Teymurov 2016-cı ildə Aprel döyüşləri və 2020-ci ildə Vətən müharibəsi zamanı xəsarət aldığını söyləyib. Namət Məmmədov 1994-cü ildə Haramı düzündə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü, işgəncələrə məruz qaldığını deyib. Cavanşir Hacıyev 2021-ci il aprelin 5-də Qubadlı rayonunda minaya düşərək xəsarət aldığını söyləyib. Alışan Səfərov 2022-ci il fevralın 18-də Tərtərdə yolda mina partlaması nəticəsində xəsarətlər aldığını deyib.

Tərtər rayon sakinləri - Yadigar Səfərov, Müşfiq Qurbanov və Xasay İbrahimov Ermənistan silahlı qüvvələrinin müxtəlif vaxtlarda artilleriya zərbələri endirmələri nəticəsində yaşadıqları evlərinin yararsız vəziyyətə düşdüyünü söyləyiblər.

Ramiz Hüseynov 1993-cü ildə Cəbrayılda mina partlaması nəticəsində yaralandığını deyib. İlqar Nəcəfov Ermənistan silahlı qüvvələrinin Kəlbəcər rayonuna hücum etməsi nəticəsində 1993-cü il aprelin 2-də yaşadığı torpaqlardan məcburi köçkün düşdüyünü deyib. Rəhman Hüseynov 1993-cü ildə Cəbrayıl rayonunun Daşkəsən kəndindən məcburi köçkün düşdüyünü bildirib. Həmin vaxt atası itkin düşüb.

Zərərçəkmiş şəxslər - İsmayıl Abbasov, Nəbi Əzimov, Almara Qurbanova, Vaqif Çıraqov, Sevda Məmişova, Xalıqverdi Nəsibov, Nahid Hüseynov, Faiq Abbasov, Elşən Mirzəyev, Əlövsət Musayev ifadələrində Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində yaşadıqları ərazilərdən (Şuşa, Ağdərə, Kəlbəcər) məcburi köçkün düşdüklərini söyləyiblər.

Zərərçəkmişlər, həmçinin təqsirləndirilən şəxslərin, o cümlədən Arayik Harutyunyanın, David Manukyanın, David Babayanın, Davit İşxanyanın, təqsirləndirilənlərin müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi avqustun 14-də davam etdiriləcək.

***XQ***

*Milli kimlik qaynaqlarımız*

# Türkmən bəyliklərində törə və ənənələr

**(əvvəli ötən saylarımızda)**

Törə, türkmən cəmiyyətində həyati-tənzimləyici gücünə rəğmən, sırf ənənəyə söykənən, əsasən, tabu, yasaq və qadağalar şəklində ağızdan-ağıza keçən, heç yerdə yazılı şəkildə fiksə edilməyən əski anlayışlar toplusu olmaqla bu qanlı savaşlara de-fakto qanuni (!) don geyindirmişdir!

Ən böyük paradoks isə bu idi ki, bir tərəfdən, qeyd etdiyimiz kimi, bütün şahzadələrin taxt hüququnu tanıyan və onların bu hüququ güc yolu ilə gerçəkləşdirmə üsuluna rəvac verən törə, o biri tərəfdən dövlətin mənafeyini də hər şeydən yüksək tuturdu. Odur ki, Fateh Sultan Məhmədin qardaşı Əhmədi boğdurması və "dövlətə zaval gəlməsin deyə" "qanunnamə" çıxarıb, qardaş qətllərini legitimləşdirməsi ciddi "bidət" sayılmamış, ictimai rəydə dağıdıcı təlatümlərə səbəb olmamışdı.

III Murad və III Məhməd taxta çıxan kimi körpəsindən böyüyünə bütün qardaşlarını uf demədən boğdurmuşdular. Yalnız Sultan I Əhmədin dövründə (1603–1617) əkbəriyyət prinsipi əsas götürülmüş (bu da "göydəndüşmə" bir şey deyildi), vərəsəlik məsələsi qanunla yaşca böyük qardaşın xeyrinə həll olunmuş, qalan şahzadələri isə hərəmxanaya verməyə başlamışdılar.

Türkmən tarixi-kütləvi yaddaşında 1436-cı il Bayındır Şurası presedenti ola-ola, əkbəriyyət qərarının, təqribən, 2 yüz il – bəzi mənbələrdə əkbəriyyət qanununun 1607-ci, bəziləri 1617-ci ildə çıxarıldığı deyilir – gecikməsinin özü də çox mətləblərdən xəbər verir.

Fakt budur ki, vərəsət savaşları cəmiyyətdə nə qədər anlayışla qarşılansa da, həddsiz gərginliyə, iqtisadi böhranlara səbəb olur, şahzadələrin taxt ehtirası bəzən hətta bəyliklərin istiqlal və mövcudluğunu təhdid altına salır, ağır fəsadlar törədirdi.

Ərtoğrul Qazidən sonra bəy postuna göz dikən Dündar, qardaşı oğlu Osmanı yolunun üstündən götürmək üçün Bizans təkurları ilə sövdələşmiş, qəsdinin üstü açılmış, edam edilmişdi. 1335-ci ildə ataları öldükdən sonra Karesioğulları ailəsindən Dəmirxan və Dursun bəylər arasında ixtilaf düşmüşdür. Dursun bəy hakimiyyətə yiyələnmiş qardaşına qarşı Osmanoğlu Orxan bəydən dəstək istəmiş və hərbi yardım qarşılığında ona bəzi torpaqlar vəd etmişdi. Orxan bəy Karesi ərazisinə daxil olduqdan az sonra Dursun bəy qardaşı tərəfindən öldürülsə də, o, geri dönməmiş, döyüşə girərək Dəmirxan bəyə qələbə çalmış, Karesioğulları ailəsini ortadan qaldırmış və sonrakı 10 il içində bu bəyliyin torpaqlarını parça-parça ələ keçirmişdi.

Meydan müharibələrində əraziləri işğal etmələrinə rəğmən, türkmən bəyliklərini sıradan çıxarmağın mümkün olmadığını bilən yadellilər onları ən zəif yerindən vurur, öz məqsədlərinə şahzadələr arasında ixtilafları körükləməklə çatırdılar. Teymuri sultanı Şahrux hakimiyyət Qara Yusifin oğlu Qara İskəndərin əlinə keçməsin deyə onunla qardaşları arasında vərəsət ziddiyyətlərini dərinləşdirmək yolunu tutmuş, Azərbaycan hakimliyinə əvvəl Əbusəidi, sonra isə Cahanşahı gətirmişdi. Nəticədə, İskəndər Əbusəidi öldürmüş, Cahanşah isə onu məğlub etmişdi.

Məşum Ankara döyüşündən (1402) sonrakı fitrət dövründə 1423-cü ildək sürən səltənət qovğalarının bir acı nəticəsi də taxt uğrunda rəqabət aparan şahzadələrin qonşu dövlətlərdən dəstək almaq ümidi ilə ataları Yıldırım Bayəzid dövründə ələ keçirilmiş bir çox torpaqları Bizansa, Serbistana, Əflaka, Arnavutluq bəylərinə qaytarmaları olmuşdu. Çələbi Sultan Məhməd hakimiyyəti ələ keçirdikdən sonra isə qardaşı Mustafanın azad edilməməsi müqabilində Bizansa xərac ödəməyə başlamışdı.

Ağqoyunlu Qara Yülük Osman ölkə ərazisini oğlanları arasında ülüş etmişdi. Əli bəy Harputda, böyük oğlu Yaqub bəy Ərzincan, Kəmax və Qarahisarda, Həmzə bəy Mardində, Şeyx Həsən Ərzurumda, Qılıc Arslan Paluda, Qutlu bəy Bayburtda, Musa isə Tərcanda hakimlik edirdilər. Osman bəy öləndə (1435) Teymuri sultanı Şahruxun təsiri ilə taxta Cəlaləddin Əli bəy sahib oldu. O, bacısı Xanımı sultan Şahruxun oğlu Məhəmməd Cukiyə ərə verib Diyarbəkirdə hakimiyyətini möhkəmləndirdisə də, qardaşları hakimi olduqları bölgələrdə müstəqil hərəkət edir, onunla hesablaşmırdılar.

Həmzə bəy, Yaqub bəy, Qılıc Arslan isə Əli bəyin hökmranlığını ümumiyyətlə tanımırdılar. Bəylikdə pərakəndəlik və qarışıqlıq hökm sürürdü. Şahzadələr daxili çəkişmələrdə Qaraqoyunlulardan da kömək istəyirdilər. Qara İskəndərin Qılıc Arslana kömək adı ilə Ərzurumu ələ keçirməsi, Ərzincanı qarət etməsi onsuz da xroniki hal almış tayfalararası ixtilafları daha da gücləndirdi. Təklənib Diyarbəkirə qapanan Əli bəyin Məmlüklərlə əhdnamə bağlamaq üçün Harputu onların vassalı olan Zülqədiroğullarına təhvil verməsi onun sonunu gətirdi.

Narazı qüvvələr Həmzə bəyin ətrafında qruplaşaraq "ulu bəy" kimi onu tanıdılar və paytaxt Diyarbəkiri tutdular. Əli bəy qısa müddətə olsa da, Osmanlılara sığındı. Onun varisi kimi ortaya çıxan oğlu Cahangir Mirzə isə hakimiyyətə yiyələnmək üçün Məmlüklərdən kömək istədi. Məmlük sultanı Barsbay onun xahişi ilə əmisi Həmzə bəyin və Qaraqoyunlu Cahanşahın üzərinə 50 minlik ordu göndərdi. Lakin 1438-ci ilə Barsbayın ölüm xəbərini alan bu ordu geri qayıtdı.

Cəlaləddin Əli bəy 1444-cü ildə taxt arzusuna qovuşmadan Hələbdə öldü, bundan az sonra Həmzə bəy də xəstələnib dünyasını dəyişdi. Ağqoyunlu tayfaları 2 yerə bölündü. Pornək, Mosullu və Qocahacılu tayfaları Həmzə bəyin oğlu olmadığına görə onun qardaşı Şeyx Həsəni, qalanları isə artıq Urfa hakimi olan Cahangir Mirzəni dəstəklədilər. Cahangir Mirzə Diyarbəkirə daha tez çataraq özünü Ağqoyunlu hökmdarı elan etdi. 1450-ci ildə Qaraqoyunlu Cahanşah yürüşə başlayanda Şeyx Həsən, əmirlərdən Musa bəy, Rüstəm Tərxan və b. onun tərəfinə keçdilər. Şeyx Həsəni dəstəkləyən Pornək, Mosullu və Hacılu tayfalarından olan əsgərlərin ordunu parçalaması Cahangir Mirzənin vəziyyətini daha da ağırlaşdırdı.

Ağqoyunlu dövləti dərin tənəzzül keçirirdi. Onu yalnız Uzun Həsənin qardaşının köməyinə gəlib, Şeyx Həsəni qətlə yetirməsi və onun tərəfdarlarını ortadan qaldırması xilas etdi. Qaraqoyunlu İskəndərin oğlu Şahqubad 1436-cı ildə onu öldürüb Əlincə qalasını əmisi Cahanşaha təslim etmişdi. Hadisəni araşdıran Cahanşah Şahqubadı qətlə yetirdi, amma 1445-ci ildə Bağdadda möhkəmləndikdən sonra Mosullu İskəndərin oğulları Əlvənd, Rüstəm və Tehrana verdi. Mosul hakimi təyin olunan Əlvənd əmisindən daha çox torpaq tələb etsə də Cahanşah qərarından dönmədi. Əlvənd Mirzə 1448-ci ildə, Qaraqoyunlu hakimiyyətinin onlara aid olması iddiası ilə Cahanşaha qarşı üsyan qaldırdı, Üsyan yatırılanda da canını qurtarmaq üçün qaçıb əzəli rəqibləri olan Ağqoyunlulara – Cahangir Mirzəyə sığındı.

Konstantinopolun fəthi ərəfəsində Osmanlı soyundan şahzadə Orxan Bizans imperatorunun əlində əsir idi. Dövlət "onun məsrəflərinin təminatı" üçün Bizansa ildə 300 min axça ödəyirdi. Sultan Murad öldükdən sonra bu məbləğin iki dəfə artırılması tələb olundu. Əks təqdirdə Orxan azad ediləcəkdi. Bu isə fəthə hazırlaşan gənc Sultan Məhməd üçün əlavə problemlər vəd edirdi. Bizans elçilərinin bu tələbi rədd edilsə də, şahzadə Orxan məsələsi bir təhdid aləti kimi İstanbulun mühasirəsi zamanı təkrar-təkrar ortaya atıldı.

Qaraqoyunlu Cahanşahın oğlanları ilə əhvalatı isə bir neçə cəhəti ilə ibrətamizdir. 1458-ci ildə o, Xorasan yürüşünə çıxmış, böyük Əmir Teymurun oturduğu taxt-tacı ələ keçirmişdi. Qaraqoyunlu qoşunu şahzadə Pirbudağın komandanlığı ilə teymurilərin həmlələrini dəf etmək qüdrətində idi. Lakin həlledici döyüş ərəfəsində Cahanşaha oğlu Həsənəlinin üsyan etməsi xəbəri yetişdi. Maku qalasında zindanda saxlanan Həsənəli atasının olmamasından istifadə edərək, Ağqoyunlu Qara Yülük Osmanın oğlu Mahmud bəy və Əmir Ərəbşahla birlikdə həbsdən qaçmağı bacarmış və Təbrizə gəlib paytaxtı ələ keçirmişdi.

Cahanşah artıq Xorasanda qala bilməzdi. O, Pirbudağa döyüşə girməyib geri çəkilməsini əmr etdi və təcili şəkildə sülh bağlayaraq, tutulan torpaqları teymurilərə qaytardı. Beləliklə, böyük igidlik, qurban və məhrumiyyətlər bahasına qazanılmış qələbənin üstündən xətt çəkilmiş oldu. Cahanşahın qərarı əmirlər və qoşun başçıları arasında narazılıq yaratdı. Atasına etimadı sarsılan Pirbudaq Yəzdə çatan kimi (o, Şiraz valisi idi) qiyam qaldırdı. Cahanşah, əlbəttə ki, oğlanlarına yenilmədi; əvvəlcə taxt-tacını geri qaytarıb Həsənəlini sürgünə göndərdi, sonra Pirbudağın qiyamını yatırdı, dövlət qarşısında xidmətlərini nəzərə alaraq, onu Şirazdan uzaqlaşdırıb, Bağdada vali təyin etdi.

Lakin məsələ bununla bitmədi, 2 il sonra Pirbudaq Bağdadda da üsyan qaldırdı, üstəlik, Ağqoyunlu Uzun Həsəndən yardım istədi. Bu zaman Ağqoyunlu – Qaraqoyunlu ixtilafı zirvəsinə çatmışdı, tərəflər bir-birinin daxili işlərinə də müdaxilə edir, vərəsət ziddiyyətlərini kəskinləşdirməklə qarşı tərəfi zəiflətməyə çalışırdılar. Cahanşah Uzun Həsənin taxt-tacına iddia edən qardaşı Cahangirə qoşun verib, onun üstünə göndərsə də, istəyinə nail ola bilməmişdi. İndi Uzun Həsənin də eyni qayda ilə hərəkət edib Pirbudağın üsyanından faydalana biləcəyindən ehtiyatlanırdı. Odur ki, Ağqoyunlu hökmdarına məktub yazıb, Pirbudağa yardım göstərməməsi üçün Sincar, Mosul və Ərbil şəhərlərini ona verməyi boyun oldu.

1473–1474-cü illərdə (bəzi mənbələrə görə, 1475-ci ildə) Uzun Həsənin böyük oğlu Uğurlu Məhəmməd qiyam qaldırdı. Bağdad valisi olan qardaşı Maqsud Mirzənin də qoşulduğu üçün bu qiyam çətinliklə yatırıldı. Uğurlu Məhəmməd Rum diyarına qaçdı və Ağqoyunlularla müharibədən yeni çıxmış Osmanlı sultanına sığındı.

Qaramanlı bəyliyi Osmanlının ən qəvi rəqibi idi. Anadoluda hegemonluq uğrunda uzunmüddətli və amansız mübarizə xüsusilə XV əsrdə bu iki qüdrətli türkmən bəyliyinin münasibətlərini düşmənçilik həddinə çatdırmışdı. 70-ci illərdə Fateh Sultan Məhməd Qaramanlı bəyliyini ortadan qaldırdı, oğlu şahzadə Mustafanı Qaraman valisi təyin etdi. 1474-cü ildə şahzadə Mustafa öldü və onun yerinə kiçik qardaşı Cem sultan (əslində, bu ad Cəm kimi yazılmalıdır, çünki Fatehin bu adı oğluna Sasani hökmdarı Cəmşidin şərəfinə verdiyi bəllidir) keçdi.

Cem sultan Fatehdən sonra Osmanlı taxtına oturan qardaşı Sultan II Bəyazidin (1481–1512) hakimiyyətini tanımadı, Bursa və İznik üzərinə yeriyərək ölkənin iki yerə-Anadolu və Rumelinə bölünməsini təklif etdi və Anadolunu özünə istədi. Bu təklifi rədd edən Bayəzid Yenişəhər döyüşündə Cemin qoşununa qələbə çaldı. Qardaşların hakimiyyət qovğasını "təbii" saymaq bəlkə də mümkün olardı, əgər Cem sultan II Bəyazidlə mübarizəsinə qaramanlıları qatmasaydı! Məhz onların daxil olması ilə Cem sultan qiyamı Qaramanlı-Osmanlı müharibəsinə çevrildi.

Qaraman şahzadəsi Qasım bəy Cemlə ittifaqa girib, öz bəyliyini bərpa etməyə çalışırdı. Müttəfiq qoşunlar 1482-ci ilin baharında Osmanlı torpaqlarına bir də daxil oldu, lakin bəxt yenə Cemin və Qasımın üzünə gülmədi. Bu zaman Cem sultan daha bir bağışlanmaz xətaya yol verdi–Rodos cəngavərlərindən onu Rumeliyə çatdırmaları üçün kömək istədi və öz xoşu ilə onların əlinə keçdi. Nəticədə, qalan ömrünü (ölümü: 1495) əvvəlcə Rodos cəngavərlərinin, sonra isə Roma Papası və Fransa kralının dustaqlığında yaşadı, Osmanlı dövləti isə onun azad edilməməsi müqabilində illik ödənc verməli oldu.

Göründüyü kimi, türkmən bəyliklərinin mərkəzləşdirilməsi, çoxdan idi ki, zərurətə çevrilmiş və aktuallıq qazanmışdı.



***Nizaməddin MUSTAFA***

---

# "Leyli və Məcnun" marionet səhnəsində

**"Leyli və Məcnun" ürkək, vəfalı, dünyalara sığmayan bir eşqin taleyindən bəhs edir. İki gənc – Leyli və Məcnun, bir-birini canlarından artıq sevsələr də, bu dünyada arzularına qovuşmaq onlara nəsib olmur... Şərqli aşiq-məşuqun klassik Avropa ədəbiyyatının Tristan və İzolda, Romeo və Cülyetta kimi obrazları ilə birbaşa analogiyası diqqət çəkir.**



Bu, üzərində 3 il işlənmiş 14 pərdəlik marionet tamaşası – Muğam operasıdır. Gələn ayın 18-də 140 illiyini qeyd etməyə hazırlaşdığımız dahi bəstəkar Üzeyir bəy Hacıbəyli operanı ölməz şairimiz Məhəmməd Füzulinin eyni adlı poeması əsasında ərsəyə gətirib. Operada həm Şərq, həm də Qərb musiqi ənənələri ahəngdar tərzdə yer alıb. Məşhur, klassik süjetin bənzərsiz musiqi ilə birləşməsi əsərin dünyanın bir çox ölkələrində populyar və sevilən olmasına yol açmışdır.

Artıq 100 dəfədən çox oynanılmış marionet tamaşasının quruluşçu rejissoru və rəssamı Tərlan Qorçu, musiqi aranjimançısı Salman Qəmbərov, kukla ustası Tengiz Xalvaşi, işıq işləri üzrə rəssamı Azər Muxtarov, səhnə qurğularının müəllifi İlkin Mirzəyevdir. Əsas obrazları Günay İmamverdiyeva (Leyli), Mənsum İbrahimov (Məcnun), Cabir Həsənov (Leylinin atası), Elgiz Əliyev (Məcnunun atası), Qızılgül Babayeva (Məcnunun anası), Cahangir Qurbanov (Nofəl, Məcnunun dostu) Elgiz Əliyev (Ərəb, Nofəlin silahdaşı), Ramiq Bayramov (İbn-Səlam) səsləndirirlər. Muğamların instrumental ifaçıları Rəşad İbrahimov (tar) və Təbriz Yusubovdur (kamança).

**Ya Rəbb, mənə cismi-can gərəkməz,**
**Canan yox isə cahan gərəkməz...**

Qeyd edək ki, Marionet Teatrı dünyada yetərincə maraqlı və populyar olan, çətin başa gələn, eyni zamanda, maraqlı və cəlbedici janrdır. Çətin olduğuna görə əksər ölkələrdə belə teatr ənənəsi mövcud deyil. Hansısa ölkədə Marionet Teatrının olması həmin xalqın zəngin milli mədəniyyətindən xəbər verir və bu teatr janrı ölkənin tanıdılmasında əvəzsiz rola malikdir. Bütün yaş qrupundan olan insanların heyranedici rəğbətinə səbəb olan bu teatr janrı xalqımızın zəngin, çoxşaxəli mədəni irsinin ən müxtəlif sahələrini – memarlıq, milli geyim, musiqi, dilimizin nitq melodikası, məişət və bayramlarımız, naxışlar və rəsmlərimizi özündə birləşdirir.

Seyrçilərin alqışları və aktyorları döndönə səhnəyə dəvət etmələri bu tamaşanın qəlblərin ən incə tellərinə toxunduğunu nümayiş etdirdi.

***Ə.ƏLİYEV***
***XQ***

---

# Diaspor Gənclərinin VI Yay Düşərgəsi başa çatıb




**Diasporla İş üzrə Dövlət Komitəsinin Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə keçirilən Diaspor Gənclərinin VI Yay Düşərgəsi başa çatıb.**

Xankəndi şəhərində təşkil olunan düşərgənin bağlanış mərasimində Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov və Qarabağ Universitetinin rektoru Şahin Bayramov çıxış edib. Natiqlər gənclərin inkişafının dövlət siyasətində prioritet istiqamətlərdən biri olduğunu vurğulayıb, bu mühüm tədbirin onların milli kimliyinin gücləndirilməsi, diaspor şəbəkələrinin genişləndirilməsi, icmalaşma prosesinin sürətləndirilməsi baxımından xüsusi əhəmiyyətini qeyd ediblər.

Mərasimdə düşərgə ilə bağlı geniş videomaterial göstərilib, iştirakçılara və diaspor könüllülərinə sertifikatlar, intellektual oyunların qalibi olan "Xankəndi" və "Zəfər" komandalarına hədiyyələr təqdim edilib.

Xankəndi şəhərindən böyük təəssüratla ayrılan düşərgə iştirakçıları ilk dəfə səfər etdikləri Qarabağda unudulmaz bir həftə keçirdiklərinə, dünya azərbaycanlı gəncləri ilə bir araya gəldiklərinə görə təşkilatçılara minnətdarlıqlarını bildirib, bu layihənin uzunömürlü olmasını arzulayıblar. Gənclər Qarabağın işğalı, müharibə və postmüharibə dövrü ilə bağlı müfəssəl məlumat almaq, işğaldan azad olunan ərazilərə həyatın yenidən qayıtdığını, regionda sülh və ədalətin bərpasını müşahidə etmək üçün düşərgənin böyük fürsət olduğunu dilə gətiriblər.

Düşərgə iştirakçıları Prezident İlham Əliyevin ABŞ-dakı görüşünü - möhtəşəm tarixi anları böyük maraq, coşqu və həyəcanla izləməsini, 61 ölkəni təmsil edən bu qədər gəncin dövlət başçısını bir arada dəstəkləməsini həyatlarının unudulmaz anı kimi xatırlayacaqlarını ifadə ediblər.

Xatırladaq ki, avqustun 3-dən 9-na kimi davam edən Diaspor Gənclərinin VI Yay Düşərgəsinə 61 ölkədən 128 azərbaycanlı və Azərbaycana dost münasibəti bəsləyən xalqları təmsil edən gənclər qatılıb. Gənclərin düşərgə çərçivəsində Azərbaycan Respublikası Prezidentinin İşğaldan azad olunmuş rayonlardakı nümayəndələri ilə, diplomatlarla, ölkəmizin görkəmli mədəniyyət xadimləri və məşhur idmançılarla, şəhid ailələri və qazilərlə, Xankəndidə, eləcə də Qərbi Azərbaycanda doğulub-böyüyən ziyalılarla görüşləri təşkil olunub. Onlar, eyni zamanda, işğaldan azad olunan rayonlara səfər edib, Azərbaycan dili dərslərində, əyləncəli, intellektual oyun və yarışlarda, müxtəlif istiqamətli təlimlərdə biliklərini artırıblar.

Diaspor gənclərinin bundan əvvəlki yay düşərgələri Şəki, Şamaxı, Şuşa, Naxçıvan və Laçın şəhərlərində təşkil olunub. Diasporla İş üzrə Dövlət Komitəsinin irihəcmli və uzunmüddətli layihələrindən olan Diaspor Gənclərinin Yay düşərgələri həm ölkə daxilində, həm də diaspor arasında böyük rəğbətlə qarşılanıb, xüsusi marağa səbəb olub.

***XQ***

# "AzerGold"un istehsal və mənfəəti 35 faiz yüksəlib

**Ölkəmizin qiymətli metalların istehsalı sahəsində əsas operatoru olan "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti özünün və törəmə şirkətlərinin 2024-cü il üzrə nəticələrini açıqlayıb. Hesabatlardan göründüyü kimi, ötən il qurumun gəlirləri 135 milyon dollardan 182 milyon dollara yüksəlib. Bu isə 47 milyon dollar və ya 35 faiz artım deməkdir.**



Şirkət gəlirlərinin kəskin artımını qızılın satışı və qiymətlərin artımı ilə əsaslandırıb. Belə ki, 2024-cü ildə "AzerGold"un qızıl satışları fiziki olaraq 9 faiz artıb. Ümumilikdə, ötən il şirkət 70,5 min unsiya qızıl və 97,5 min unsiya gümüş satıb. Eyni zamanda, satışın həcmi ilə yanaşı, qızılın qiymətində də 29 faizlik artım qeydə alınıb. İl ərzində satışın maya dəyəri isə, təqribən, 21 milyon manat artaraq 2023-cü ildəki 93 milyon dollardan 114 milyon dollara çatıb. Şirkət satışın maya dəyərinin yüksəlməsini yanacağın bahalaşması, inflyasiya, istifadə olunan materialların qiymətlərinin və əmək haqlarının artımı ilə izah edib. Belə ki, ötən il qurumun amortizasiya xərcləri, təqribən, 11 milyon dollar artaraq 46 milyon dolları keçib.

Şirkətin bütün xərc artımının yarıdan çoxu amortizasiya xərclərinin payına düşüb. Bundan əlavə, il ərzində partlayış və daşınma xərcləri 2,7 milyon dollar artaraq 23 milyon dolları ötüb. Material və kimyəvi reagent xərcləri isə 5,1 milyon dollar artaraq 11 milyon dollara yaxınlaşıb. Nəticədə, 2024-cü ildə şirkətin ümumi satış mənfəəti 68 milyon dollara çatıb ki, bu da əvvəlki ilin göstəricisindən 26 milyon dollar artıqdır. 2024-cü ildə şirkət bu vəsaitin 27 milyon dollarını inzibati və ümumi xərclərə sərf edib, daha 1,4 milyon dollar isə aktivlər üzrə dəyərsizləşməyə silinib. Eyni zamanda, ötən il "AzerGold" QSC sair gəlirlər kimi, təqribən, 4 milyon dollar qazanıb.

Hesabata əsasən, maliyyə xərc və gəlirlərini, eləcə də 9 milyon dollar mənfəət vergisini nəzərə aldıqda şirkətin illik xalis mənfəəti 33 milyon 22 min dollar təşkil edib. Bu isə 2023-cü illə müqayisədə 5,8 milyon manat və ya 21 faiz artım deməkdir. Bununla belə, 2024-cü ildə qurumun fəaliyyətində diqqəti daha çox cəlb edən məqam onun öhdəliklərini kəskin azaltması, yəni borclarının böyük hissəsini bağlamasıdır. Ötən ilin nəticələrinə əsasən, şirkətin aktivləri, təqribən, 20 milyon dollar artaraq 468 milyon dollardan 488 milyon dollara yüksəlib. Artım, əsasən, uzunmüddətli aktivlərin hesabına baş verib. 2024-cü ildə "AzerGold"un 49 milyon dollarlıq investisiya mülkiyyətinin yaranması da əsaslı yüksəlişdən soraq verir.

Şirkətin fəaliyyətində diqqətçəkən daha bir məqam isə onun öhdəliklərinin kəskin azalması olub. Belə ki, ötən il "AzerGold"un öhdəlikləri 62 milyon dollar və ya 40 faizdən çox azalaraq 150 milyon dollardan 88 milyon dollara enib. Qurum ötən il uzunmüddətli borclarını da 57 milyon dollardan 25 milyon dollaradək azaltmağa müvəffəq olub. Bundan əlavə, il ərzində şirkətin ticarət kredit borcları 8 milyon dollar azalaraq 18 milyon dollardan 10 milyon dollara enib. Qısamüddətli borclar isə 11 dəfə azalaraq 35 milyon dollardan 3,1 milyon dollara düşüb.

Ümumilikdə, 2024-cü ildə "Azergold"un mövcud bank kreditlərinin 69 faizi və ya təqribən, 65 milyon dolları tam şəkildə bağlanılıb. Nəticədə, şirkətin borc/kapital nisbəti 0,29-dan bir qədər də azalaraq 0,07-yə qədər enib. Müqayisə üçün bildiririk ki, dağ-mədən sənayesində fəaliyyət göstərən şirkətlər üçün bu göstəricinin 1.00 səviyyəsində olması olduqca yaxşı nəticə sayılsa da, "AzerGold"da bu göstərici daha yaxşıdır. Bütövlükdə, öhdəliklərin kəskin azalması ilə şirkətin kapitalı 20 faizdən çox artaraq 400 milyon dollara yaxınlaşıb.

Yeri gəlmişkən, son 9 ildə "AzerGold" QSC yerli və xarici bazarlarda qızıl və gümüşün satışından 1 milyard 691 milyon manat (995 milyon dollar) gəlir əldə edib. Həmin vəsaitin isə 1 milyard 592 milyon manatı və ya 94 faizi ixracdan əldə edilib. Bu barədə bir qədər əvvəl "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Zakir İbrahimov açıqlama verib. Onun sözlərinə görə, şirkətin məhsuldar fəaliyyətinin nəticəsində əldə edilmiş gəlirlərin 224 milyon manatı dövlət büdcəsinə vergi və sosial köçürmələr formasında ödənilib. Hazırda qızılın ölkəmizə ən çox valyuta gətirən qeyri-neft məhsulu olduğunu vurğulayan sədr deyib ki, qurum ixrac imkanlarının artırılması ilə daha çox töhfələr verməyi, növbəti 5 ilə qədər illik dövriyyəsi 1 milyard manat olan, ölkənin aparıcı vergi ödəyicilərindən birinə çevrilməyi hədəfləyir.

# Aqrar sığorta fermerləri ziyandan qoruyur

## *6 ayda dəymiş zərərə görə 4 milyon 435 min manat ödəniş edilib*

**Ölkəmizdə dövlət dəstəyi ilə təqdim olunan aqrar sığorta mexanizmindən faydalanan təsərrüfatların sayı getdikcə artır. Ödənişlərin məbləği, eləcə də məhsulların və bölgələrin əhatəsi genişlənir.**

2025-ci ilin yanvar – iyun aylarında Aqrar Sığorta Fondu tərəfindən 13 milyon 115 min manat sığorta haqqı toplanılıb ki, bu da ötən ilin eyni dövrünə nisbətən 18 faiz çoxdur. Hesabat dövründə bitkiçilik və heyvandarlıq üzrə sığorta haqları müvafiq olaraq 13 faiz və 65 faiz artıb. Cari ilin birinci yarısında Aqrar Sığorta Fondu təsərrüfatlara dəymiş zərərə görə, ümumilikdə, 4 milyon 435 min manat sığorta ödənişi edib. İlk yarımillikdə fermerlərə əkin sahələri üzrə 4 milyon 245 min manat, heyvandarlıq üzrə isə 190 min manat sığorta ödənişi verilib. Zərər ödənişinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 55 faiz artıq olub.




Yanvar – iyun aylarında Aqrar Sığorta Fondu tərəfindən 342,6 min hektar əkin sahəsi sığorta edilib. Bu sahələr üzrə ödənilən sığorta haqqı 11 milyon 475 min manat, təminat verilmiş sığorta məbləği isə 497 milyon manat təşkil edib. Bu il, eyni zamanda, ölkəmizdə ilk dəfə olaraq çiyələk sahələrinin sığortası həyata keçirilib.

Hesabat dövründə ölkənin müxtəlif ərazilərindəki təsərrüfatlarda 3 min 231 baş heyvan sığortalanıb ki, bu da əvvəlki ilin eyni dövrünə nisbətən 84 faiz artım deməkdir. İlin ilk 6 ayında heyvandarlıq sığortası üzrə toplanan sığorta haqqı 1 milyon 640 min manat təşkil edib. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 65 faiz çoxdur. Heyvandarlıq sığortası üzrə sığorta təminatının məbləği 19 milyon 747 min manata çatıb.

Aqrar Sığorta Fondu 2025-ci ilin ilk yarısında əkin sahələrinin ən çox ziyan vuran təbiət hadisələrini də araşdırıb. Məlum olub ki, ilin ötən dövründə əkin sahələrinin 65 faizi dolu, 17 faizi fırtına, 15 faizi sel-subasma və 2 faizi leysan yağışlarının təsirinə məruz qalıb.

6 ayda taxıl, qarğıdalı və pambıq sahələrindən sonra ən çox sığorta ödənişi edilən bitkilər günəbaxan, tütün, armud, şaftalı, şəkər çuğunduru, fındıq, badam və qarpız olub. Hesabat dövründə ən çox zərər ödənişi Füzuli, Ağcabədi, Tovuz, Tərtər, Ağsu, Hacıqabul, Beyləqan və Şəki rayonları üzrə qeydə alınıb.

# Bakının mərkəzində "yaşıl" ada

## *Keçmiş "Sovetski" ərazisi parklara çevrilir*



**Bakının Yasamal rayonu ərazisində yerləşən, keçmiş "Sovetski" kimi tanınan ərazisində istismar müddətini başa vuran, qəzalı vəziyyətdə olan, şəhərin estetik görünüşünə xələl gətirən binaların söküntüsünə başlanılıb. Yasamal Rayon İcra hakimiyyətinin bununla bağlı mediada yayılan məlumatına görə, həm sakinlərin təhlükəsizliyi, həm də şəhərsalma baxımından əhəmiyyətli olan bu proses çərçivəsində daha səmərəli və faydalı layihələrin reallaşdırılması nəzərdə tutulub.**

Rayonda yerləşən Mərkəzi Parkın indiyədək istifadəyə verilən 3 hissəsi sayəsində onun ümumi sahəsi artıq 35,4 hektara çatır. Şəhərin mərkəzində bu qədər geniş yaşıllıq zonası yaratmaq təkcə estetik deyil, həm də ekoloji baxımdan çox böyük önəm daşıyır. Sakinlərin mədəni və rahat istirahəti üçün yaradılan belə bir müasir park indi həm yerli əhalinin, həm də qonaqların sevimli istirahət məkanıdır.

Hazırda davam edən söküntü işləri isə parkın daha da genişləndirilməsinə, yeni yaşıllıq zolaqlarının salınmasına, bir sıra sosial-ictimai əhəmiyyətli layihələrin həyata keçirilməsinə və paytaxtın ümumi görkəminin daha da abadlaşdırılmasına xidmət edir.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin bununla bağlı məlumatında bildirilir ki, Yasamal rayonu ərazisində həyata keçirilən söküntü işləri başa çatdırılandan sonra bu ərazidə paytaxtın Baş Planına və müasir şəhərsalma normalarına uyğun layihələrin icrası nəzərdə tutulur. Eyni zamanda, hazırda istirahət məkanının ərazisi, təxminən, 36 hektar təşkil etsə də, 4-cü hissədə parka metronun "Nizami" stansiyasının ətrafındakı 21 hektara yaxın ərazi də əlavə olunacağı qeyd edilir. İqlim şəraiti, flora və ətraf mühit nəzərə alınmaqla, burada geniş yaşıllaşdırma işlərinin aparılacağı, parkda qarışıq ağac növlərinin əkiləcəyi nəzərdə tutulan six meşə tipli zonanın ərazinin landşaftında özünəməxsus yer tutacağı vurğulanır.

İstirahət məkanı ərazisində böyük süni gölün, eləcə də rekreasiya, gölkənarı istirahət, idman, mədəni tədbir zonaları və uşaq oyun meydançalarının yaradılması planlaşdırılır. Layihədə ətrafdakı yaşayış sahələri və nəqliyyat infrastrukturu ilə əlaqələndirmə və nəqliyyat axınının optimallaşdırılması məqsədilə parkın ərazisində qapalı avtodayanacağın təşkili də nəzərdə tutulur. Təzə Pir məscidi ətrafındakı ərazidə tarixi məhəllənin də Bakının özünəməxsus şəhərsalma və memarlıq nümunəsi kimi ətraf mühitə və yeni şəhərsalma strukturuna inteqrasiyası üçün müasir standartlara uyğun abadlaşdırılması və yenidən qurulması planlaşdırılır.



# Avtomobil istehsalı 80 faiz artıb



**2018-ci ildən 2025-ci ilin birinci yarısı da daxil olmaqla İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan sənaye zonalarında 518 milyon manatlıq avtomobil istehsalı həyata keçirilib.**

Qurumdan verilən məlumata görə, bu ilin 6 ayı ərzində Hacıqabul Sənaye Parkında 59 milyon manat dəyərində 1928, Neftçala Sənaye Məhəlləsində isə 16,6 milyon manatlıq 1165 avtomobil buraxılıb. Ümumilikdə, avtomobil istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə, təqribən, 80 faiz artıb. Hesabat dövründə sənaye zonalarında "Chevrolet", "Isuzu", "VGV", "UAZ", "Lada", "Khazar", "JAC", "Bestune" və s. markalı avtomobillər istehsal edilib.

Bu günlərdə ölkəmizdə ilk dəfə olaraq orta çəkili yük avtomobilləri və avtobuslar üçün əyləc bəndlərinin istehsalına başlanılıb. İZİA-nın idarəçiliyində olan Hacıqabul Sənaye Parkının rezidenti "Brake Systems Azerbaijan" MMC artıq 600 min manatlıq məhsul satışı edib. Hazırda müəssisədə Yaponiya və Cənubi Koreya istehsalı olan minik avtomobilləri üçün əyləc bəndlərinin hazırlanması həyata keçirilir. Burada Çinin qabaqcıl texnologiyaları əsasında 220 çeşiddən artıq əyləc bəndi istehsal olunur.

Müəssisədə hazırda ancaq minik avtomobilləri üçün əyləc bəndləri istehsal edilir, cari ildən etibarən isə orta çəkili yük avtomobilləri və avtobuslar üçün də sözügedən məhsulun istehsalına başlanılması nəzərdə tutulur. İnvestisiya kapitalı 1,9 milyon manat təşkil edən istehsal sahəsində də 15 nəfər daimi işlə təmin edilib.

Cənubi Qafqazda yeganə əyləc bəndi istehsal edilən müəssisədə xammal Çin və Özbəkistandan gətirilir. Yaxın vaxtlarda isə məhsul istehsalında yerli xammaldan istifadə edilməsi planlaşdırılır. Hazırda əyləc bəndlərinin "Klass" brendi adı altında daxili bazara satışı həyata keçirilir. Bununla yanaşı, məhsulun İraq, Qazaxıstan və s. ölkələrə ixracı istiqamətində də danışıqlar aparılır.

# Valyuta ehtiyatları 1 ayda 37 milyon dollar çoxalıb

**Mərkəzi Bankın (MB) məlumatına əsasən, cari ilin avqustun 1-nə valyuta ehtiyatları 11,191 milyard ABŞ dolları (iyulun 1-i ilə müqayisədə 37,3 milyon dollar və ya 0,3 faiz çox) təşkil edib.**

Qeyd edək ki, MB-nin valyuta ehtiyatları ilin əvvəlinə nisbətən 202,7 milyon dollar və ya 1,8 faiz artıb, son 1 ildə isə 574,5 milyon dollar və ya 4,9 faiz azalıb.

**Səhifəni hazırladılar:
Vaqif BAYRAMOV,
Mirbağır YAQUBZADƏ
XQ**

# Vətən sənə oğul dedi...

**Torpaq üçün canından keçmiş, əbədi qəhrəmanlıq simvollarından birinə çevrilmiş Tərzan Həşimovun ömür yolu igidlik və şücaətlə dolu şərəfli bir həyatdır.**



Tərzan Qəhrəman oğlu Həşimov 13 aprel 1989-cu ildə Lerik rayonunun Bibihoni kəndində anadan olub. Ailəsi onu milli-mənəvi dəyərlərə sadiq, vətənpərvərlik ruhunda böyüdüb. Kiçik yaşlarından dürüstlüyü, cəsurluğu, məsuliyyəti və Vətən sevgisi ilə seçilib. Elə bu cəhətlərinə görə də hərbçi olmaq istəyib.

Qəhrəmanımız Tərzan Həşimov 2010-cu il mart ayının 6-da Müdafiə Nazirliyinin əmri ilə gizir hərbi rütbəsi alaraq, Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə motoatıcı tağım komandirinin müavini vəzifəsində xidmətə başlayıb. Daha sonra Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrində xidmət etməyə başlayıb, peşəkar hərbçi kimi yetişib. O, rabitəçi gizir olub və bu sahədəki xüsusi bilikləri ilə seçilib. Döyüş yoldaşlarının söylədiklərinə görə, düşmənin dilini səlis bilməsi onun çox karına gəlib. Bir neçə dəfə düşmənlə rabitəyə girib, onu çaşdırıb sirrlərini alıb və əldə etdiyi zəruri məlumatlar sayəsində onların texnikasını məhv etmək imkanından yararlanıb. Bu, onun nə qədər bacarıqlı və qətiyyətli hərbçi olduğunu sübut edir.



Azərbaycan Ordusunun mövqelərinin Ermənistan silahlı qüvvələrinin aramsız artilleriya atəşinə məruz qalması ilə başlanan 2016-cı ilin məlum aprel döyüşlərinə Tərzan Həşimov da qoşularaq, ön cəbhədə əməliyyatlarda iştirak edib. Döyüş zamanı yaralanmasına baxmayaraq, güclü iradə ilə hərəkət edərək neytral zonada həlak olmuş bir əsgərimizi çıxarıb və bununla da əsl qəhrəmanlıq nümunəsi göstərib.

Şanlı Vətən Müharibəsinə isə gizir Həşimov elə ilk gündən – 2020-ci il sentyabrın 27-dən qatılıb və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda mücadilədə ön sıralarda yer alıb. O, Cəbrayıl və Füzuli rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə yaxından iştirak edib. Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olub.

Məhz müzəffər Ali Baş Komandanımız İlham Əliyevin sərkərdəlik istedadı və hərbi-siyasi qətiyyəti, eləcə də Tərzan Həşimov kimi igid oğulların misilsiz xidmətləri və xalq–ordu birliyi sayəsində 44 günlük müharibə Azərbaycanın hərb tarixində dönüş nöqtəsi oldu və bizi tarixi zəfərə qovuşdurdu. Qəhrəmanlarımız Vətən torpaqlarını yağı tapdağından azad etməklə xalqımıza qürur, gələcək nəsillərə isə örnək oldular.

Vətən qarşısındakı xidmətlərinə görə Tərzan Həşimov ölümündən sonra bir sıra medallarla təltif edilib. Bunlar "Azərbaycan bayrağı" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", eləcə də Cəbrayılın, Xocavəndin və Füzulinin azad olunmasına görə medallarıdır. Təltiflərin hər biri onun Vətən naminə göstərdiyi fədakarlığın, hərbi və insani borcunu ləyaqətlə yerinə yetirməsinin təsdiqidir.

Valideynləri – atası Qəhrəman Həsən oğlu və anası Gülçöhrə Məhərəli qızı oğullarının igidliyi ilə fəxr edirlər. Tərzan Həşimov gənc ailə basşçısı kimi də hamının sevimlisi olub. Həyat yoldaşı Mətanət xanım, iki qızı – Məsumə və Hökümə onun adını böyük qürurla anırlar.

Yaxınlarının və döyüş yoldaşlarının söylədiklərinə görə, Tərzan istiqanlı, mehriban, gülərüz və həyatsevər bir insan olub. O, hər anını dəyərləndirən, çevrəsinə müsbət enerji bəxş edən bir şəxsiyyət kimi yaddaşlarda qalıb.

Tərzan Həşimovun həyat yolu və şəhidliyi Azərbaycan gəncləri üçün vətənə xidmətin, fədakarlığın, cəsarətin və qeyrətin simvoludur. Onun adı yalnız sinif otaqlarında deyil, tarix dərsliklərində, hərbi marşlarda və xalq yaddaşında daim yaşayacaq.

O, yalnız bir ailənin övladı deyil, bir millətin qəhrəmanıdır.




*Bəhruz MƏMMƏDZADƏ,*
*Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları İctimai Birliyinin sədri,*
*Mətbuat Şurası İdarə Heyətinin üzvü*

# Gənclər siyasətinin təntənəsi



**Artıq 26 ildir ki, dünya Gənclər Gününü qeyd edir. 1998-ci il avqustun 8-12-də gənclərin işləri üzrə nazirlərin ümumdünya konfransı keçirilib və BMT Baş Məclisində 1999-cu ilin sonunda avqustun 12-nin Beynəlxalq Gənclər Günü elan edilməsi haqqında qətnamə qəbul olunub.**

Ölkəmizdə isə gənclərin bayramı daha əvvəl – 1997-ci ildə ümummilli lider Heydər Əliyevin imzaladığı fərmanla təsis edilib. Azərbaycanda gənclərə ən yüksək diqqət və qayğı göstərilir, uğurlu dövlət gənclər siyasəti həyata keçirilir.

Dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədi ilə 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradılıb. Unudulmaz dahi şəxsiyyətin təşəbbüsü ilə 1996-cı ildən başlayaraq, Azərbaycan gənclərinin forumları keçirilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib. "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" – İlk forumda ulu öndər gənclərin qarşısında bu tarixi vəzifəni qoyub.

Əslinə qalsa, Gənclər Günü hamımızın bayramıdır. Təkcə yaşca gənc olanların deyil, ruhən gənc olanların da, gənclərlə işləyib onların tərbiyəsinə məsuliyyət daşıyanların da bu günü qeyd etməyə haqqı çatır.Tarix dəyişsə də, gənclik ruhu davam edir, milli-mənəvi dəyərlər yaşadılır. Məhz vətənpərvər gənclik özünün sanbalı ilə xoşbəxt gələcəyin müjdəçisi olur.

Ulu öndərin əsasını qoyduğu gənclər siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə uyğun davam etdirilir. 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində gənclərimizin qanı ilə yazılmış qələbə salnaməsinin parlaq sətirləri heç zaman solmayacaq. Məhz gənclərimiz öz ata-babalarının şöhrət yolunu şərəflə davam etdiriblər. Cənab İlham Əliyev Bakının Azadlıq Meydanında keçirilən Zəfər Paradında bu barədə fikirlərini tükənməz iftixar hissi ilə ifadə edib: "Müharibə dövründə Ermənistan ordusunda 10 mindən çox fərari olub. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıb. Yaralı əsgər və zabitlərimiz hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, biz qayıdaq döyüş meydanına, biz öz missiyamızı başa vurmalıyıq. Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi".

Dövlətimizin başçısı deyib ki, İkinci Qarabağ müharibəsindəki parlaq tarixi Qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır. Vətən uğrunda öz canlarından keçmiş şəhidlərimizin xatirəsi bizim üçün əzizdir, müqəddəsdir və gənclər bu nümunələr əsasında tərbiyə almalıdırlar. Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyürlər.

Prezident İlham Əliyev gənc kadrların irəli çəkilməsi ilə bağlı ardıcıl olaraq əməli addımlar atır, gənclər siyasətini zamanın çağırışlarına uyğun şəkildə yeni aspektdə gerçəkləşdirir. Hazırda neçə-neçə layiqli gənc etimadı nazir, icra hakimiyyəti başçısı və digər məsuliyyətli vəzifələrdə doğruldur.

Ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda dönməz mübarizəmizin ilk toxumları hələ Birinci Qarabağ savaşında səpilib. Daha sonra Ramil Səfərovun, Mübariz İbrahimovun, Raquf Orucovun qəhrəmanlıqları sayəsində o cücərtilər böyüyərək, nəhayət, 2020-ci ilin payızında həmişəyaşıl Zəfər çələngimizə dönüb. Bu tarixi Qələbə naminə müqəddəs mücadiləmizdə gənclərimiz – əsgər və zabitlərimiz, eləcə də könüllülərimiz canlarını, qanlarını əsirgəməyiblər.

Biz də Beynəlxalq Gənclər Günü münasibətilə hazırladığımız bu səhifəni bütünlüklə Zəfər yolçularımıza həsr edirik

# Ruhların görüş yeri



**1988-ci ildə ağır yığnaqlı Zəngəzur mahalından bir karvan qalxdı. Bu nə köç karvanı idi, nə də elat karvanı. Bu karvan yurdu yağıya qalan Didərginlər karvanı idi. Bu o zamanlar idi ki, qaniçən imperiya quduzlaşmış erməni faşistlərini zəncirdən açıb üstümüzə buraxmışdı. Ona görə də silahlı quldurların qarşısında əliyalın, ac-yalavac qalan əhalinin hərəsi bir yana üz tutmuşdu.**

Son mənzili bəlli olmayan həmin didərginlər karvanında bığ yeri yenicə tərləmiş Müşfiq də vardı. Heç kimin yolunun sonu bəlli olmasa da, sən demə, Müşfiqin yolu əbədiyyət yolu imiş.

Müşfiq Ağa oğlu ulu Zəngəzurun Qafan rayonunun Kirs kəndində doğulub. 1988-ci ildə qarı düşmən Qarabağı ələ keçirmək üçün ona mane olacaq qüvvəni – Qərbi azərbaycanlıları silah gücünə qovmaq qərarına gələndə Azərbaycanın o vaxtkı mağmun rəhbərliyi əhaliyə dayaq durmaq, bu yöndə ciddi ideoloji iş aparmaq əvəzinə, elatın əzəli yurd yerindən köçməsi üçün nəqliyyat vasitələri göndərdi. Beləcə soydaşlarımız pərən-pərən düşəndə 17 yaşlı Müşfiq də ata ocağından ayrılmalı oldu...

Ailəsi ilə birlikdə Azərbaycana pənah gətirən Müşfiq Bakının Nəsimi rayonundakı 19 saylı orta məktəbdə təhsilini başa vurub Sovet Ordusu sıralarında xidmətə gedib. O, hərbi qulluqdan qayıdanda isə azğın düşmən yurdumuza ayaq açmışdı. Qarabağda qanlı qırğınlar törədirdi. Buna görə də Müşfiq 1992-ci ildə ölməzliyə, əbədiyyətə aparan bir yolun yolçuluğuna başladı. Könüllü olaraq cəbhəyə getmək üçün hərbi komissarlığa müraciət etdi.

Rəhmətlik atası Ağa Vəliyev deyirdi: "O bilirdi ki, o torpaqlar bizimdir, həm də özü öz dədə-baba yurdundan qovulmuşdu. Ona görə də heç tərəddüd etmədən cəbhəyə getdi. Doğulduğu bölgəyə ən yaxın olan Zəngilan rayonuna düşdü. Vətən yolunda da şəhid oldu. Mən oğlumun şərəfli yolu ilə fəxr edirəm, təki vətən sağ olsun!"

Müşfiq silah-sursatın çatışmadığı, bəzən bir neçə əsgərin növbələşib bir silahla döyüşə girdiyi vaxtlarda ruhunun, Vətən sevgisinin gücünə arxalanaraq savaşırdı. O, kəşfiyyatçı idi. Ən mühüm döyüş tapşırıqlarını yerinə yetirirdi. Düşmənin döyüş mövqeləri, şəxsi heyəti barədə məlumat gətirmək üçün daim kəşfiyyatda olurdu. Zəngilanın Şərikan, Kollu Qışlaq, Şatazır, Rəzdərə kəndlərində, Cəbrayılın müdafiəsində, Qubadlının Xanlıq kəndi ətrafında gedən döyüşlərdə fəal iştirak edib. Düşmənin xeyli canlı qüvvəsini məhv edən Müşfiq qarşı tərəfin bir tankını, bir ədəd UAZ markalı avtomobilini və "Belarus" markalı qoşqu maşınını qənimət gətirib.

Müşfiq Zəngilanda döyüşə-döyüşə Qərbi Azərbaycandakı dədə-baba torpağına da sahiblənmək arzusu ilə alışıb-yanırdı. 1993-cü il aprelin 10-da silahdaşları ilə birlikdə qədim oğuz yurdu Qafanın 4 kəndini düşməndən təmizləyiblərmiş. Təəssüf ki, həmin vaxt Qubadlı, Cəbrayıl rayonları işğal olunduğundan Zəngilanın hər tərəflə əlaqəsi kəsilib. Oktyabrın 25-də düşmən ağır texnika ilə Qumlaq istiqamətindən hücuma keçib. İgidlərimiz düşmənlə ölüm-dirim savaşına atılıblar. Həmin gün düşmən cəbhəsinin 3 tankı yandırılıb, xeyli canlı qüvvəsi məhv edilib. Bu, Müşfiqin son döyüşü olub.

Müşfiqin anası Səkinə xala 2005-ci ildə Azərbaycan Televiziyasının "Zireh" verilişinin aparıcı müəllifinə verdiyi müsahibədə yeganə arzusunu belə ifadə etmişdi: "11 ildir Müşfiqim ölüb, hələ torpağına göz yaşı düşməyib, üstünə gül qoyulmayıb, məzarı ziyarət olunmayıb. Bircə Allahdan əhdim odur ki, İlham Əliyevə can sağlığı versin, dünya düzgünlük olsun, torpaqlarımız alınsın, Müşfiqin bacıları, anası, qardaşı qəbrinə ziyarətə getsin!"

**Haşiyə:** Qərbi Azərbaycanlı ananın nəşi tapılmayan oğlu Müşfiq Zəngilan rayonunda Şəhid olmuşdu. Döyüş yoldaşları meyiti atəş altından çıxara bilmədikləri üçün nişanlanmış bir ağac dibində dəfn ediblər ki, torpaqlarımız işğaldan azad olunanda gəlib tapalar. Şükür, 44 günlük Zəfər yürüşündən sonra döyüş yoldaşları Müşfiqin nəşini gətirib Zəngilan Şəhidlər Xiyabanında dəfn ediblər. O günü görmək Səkinə xanıma nəsib olmasa da, onun arzusu 15 ildən sonra çin olub.

Avqustun 9-da Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi, "Hərbi Mövzular üzrə İxtisaslaşmış Jurnalistlər" İctimai Birliyinin təşkilatçılığı ilə Müşfiqin doğmalarının, qohumlarının və Qafan Rayon İcmasının üzvləri Zəngilan Şəhidlər Xiyabanını ziyarət ediblər. Gülövşə Məmişova qardaşının mərmər məzar daşı ilə baş-baş verərək, göz yaşı axıdıb.

Hərbi Jurnalistlər Birliyi İdarə Heyətinin sədri Tamxil Ziyəddinoğlu Müşfiq Vəliyevin keçdiyi şərəfli döyüş yolundan danışıb. Misir Aslanov və şair şair Ramazan Səməroğlu bu müqəddəs ziyarətin təşkilatçılarına Kirs-Kurud camaatı adından minnətdarlıqlarını bildiriblər.

# Bir əldə süngü, bir əldə qələm

**İyul ayında keçirilmiş növbəti – XV Vaqif Poeziya Günlərinin iştirakçıları arasında qazi şair Eyvaz Əyyub da vardı. Vətən müharibəsində iştirak etmiş, qələmi silaha dəyişərək Qarabağımızın və Şuşamızın azadlığı uğrunda canını, qanını əsirgəməyən şairlərimizin ulu Vaqifin məqbərəsi önündə çıxışları sənət bayramına xüsusi ovqat qatdı.**



Əlbəttə, hər kəsdən öncə onun kimi igidlərin o torpaqlara getmək, silahla azad etdikləri yurdda bu dəfə qələmlə, sözlə var olmaq haqları danılmaz idi. Buna görə təşkilatçılar bu il də qazi şairlərimizə haqq etdikləri yüksək dəyəri verdilər.

Eyvaz Əyyub döyüşlərə Suqovuşandan başlayaraq Ağdamda qədər gedib. Dövlət başçısının sərəncamları ilə medallarla təltif olunub. Şuşada yaddaqalan çıxışında da qalib əsgər davanın ağrı-acılarını inandırıcı boyalarla ifadə edə bildi. Onu xarakterizə etmək üçün ədəbiyyatşünas Əsəd Cahangirin bir cümləlik fikrini misal göstərmək kifayətdir: "Qazi şairimiz, onlarla döyüşdən çıxmış, Allahın poetik istedad, ata-anasının adamlıq istedadı verdiyi Eyvaz Əyyub çox duyğulu insandır". Qazi şairin Şuşada söylədiyi şeirini oxuculara təqdim edirik:

**Sobada ağac...**
**Kəlbəcərdə bir odun sobasının**
**içindən ağac bitdiyini gördüm...**
**Kök atıb içində bitən bu şivin,**
**Budağı həsrətin, qəmin zorudu.**
**Biz səndən ayrıldıq, səni vətəndə**
**Bir vaxt yandırdığın ağac qorudu.**

**Uçub pəncərəsi, sınıb kərəni,**
**Gedib harda qursun yuva qaranquş?**
**Bir paslı sobanın tən ortasında**
**Evlər də çevrilib ağac olurmuş.**

**Dolub bulud kimi, yağa bilməyir,**
**Sahibin gözləyən yurdda yuvamız,**
**Qonağı yorulub yollarda qalan,**
**Ay uçuq evimiz, paslı sobamız,**
**Siz Allah, Siz Allah, icazə verin,**
**Sizin adınızdan sizi qoruyan,**
**Bu evin ən gözəl sakini olmuş**
**Bu ota, ağaca təşəkkür edim.**

*Qazi şair Eyvaz ƏYYUB*

# Qəhrəman polis zabitlərimiz

**Beynəlxalq Gənclər Günündə cavan ömrünü Vətənə qurban vermiş 2 Milli Qəhrəmanımızı da ehtiramla yad edirik. Onlar bu gün yubileyləri olan Əli Məmmədov və Sərdar Səfərovdur. Hər ikisi polis zabiti olub və Birinci Qarabağ müharibəsində şəhadətə ucalıb.**





Əli Hüseyn oğlu Məmmədov 1955-ci ildə Naxçıvan şəhərində dünyaya göz açıb. Orta təhsilini Bakıdakı 255 saylı məktəbdə alıb. 1975-ci ildə ordu sıralarına çağırılan Əli Macarıstanda xidmətini başa vurub. 1982-ci ildə Polis Akademiyasına daxil olub. Polis kapitanı rütbəsinədək yüksəlib. Əli Məmmədov 1992-ci ildə torpaq iddialı erməni separatçılarının dərsini vermək üçün cəbhəyə gedib. Həftələrlə Qarabağın müxtəlif bölgələrində döyüşlərdə qəhrəmancasına vuruşub, Laçının müdafiəsində rəşadət göstərib.

Qızartı yüksəkliyini ələ keçirən döyüşçülərimiz həmin il oktyabrın 1-də səhər tezdən güclü hücuma məruz qalırlar. Yaralıları təhlükəsiz yerə çıxaran və döyüşün qaynar nöqtəsində vuruşan Əli də başından ağır yaralanır. Mərd və cəsur döyüşçü elə bu yaradan da əbədiyyətə qovuşur.

Bakıda Şəhidlər xiyababında dəfn edilmiş Əli Məmmədovun adı paytaxtdakı küçələrdən birinə verilib...

Sərdar Mədət oğlu Səfərov isə 1960-cı ilin bu günü Kəlbəcər rayonunda doğulub. 1977-ci ildə orta məktəbi bitirib və kolxozda işləyib. 1979-cu ildə əsgərliyə gedib. Hərbi xidmətini Ermənistan və Gürcüstan respublikalarında keçib. Ordudan tərxis olunduqdan sonra Bakı Avtomobil Zavodunda işə düzəlib. Daxili işlər orqanlarında işləmək arzusu onu Tula vilayətinə aparıb. O, Zaoks rayonunda 3 il mühafizə bölməsində milis nəfəri kimi xidmət edib. Təhsilini davam etdirmək üçün SSRİ DİN-nin Kaunas Xüsusi Milis Məktəbinə göndərilib. 1987-ci ildə zabit kimi köhnə iş yerinə qayıdıb. Nümunəvi milis işçisi olduğunu nəzərə alaraq, onu sahə müvəkkili vəzifəsinə irəli çəkiblər. Amma gecə-gündüz qəlbi daim Vətənlə döyünən Sərdar 1991-ci ildə Azərbaycana qayıdıb. Qusar rayon polis şöbəsində sahə müvəkkili kimi xidmətə başlayıb.

...1991-ci il sentyabrın 25-də erməni terrorçuları Əsgəran rayonunda "QAZ-53" markalı sərnişin avtobusuna hücum edirlər. Baş leytenant S.Səfərov da köməyə gələn istintaq qrupunun tərkibində olur. Onun istintaq qrupunda müstəntiq işləməsi barədə sərəncam verilir. Hadisə yerindən qayıdan qrupun üzvləri Xankəndi yaxınlığındakı "Ağa körpüsü"ndə erməni yaraqlılarının hücumuna məruz qaldılar. Sərdar Səfərov yoldaşlarını xilas edərkən qəhrəmancasına həlak olur.

Ölümündən 2 həftə sonra – 8 oktyabr 1992-ci ildə Sərdar Səfərova "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib. Doğma yurdu Kəlbəcərdə dəfn edilmiş qəhrəmanın adına orada küçə var.

*Səhifəni hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*

*Ellərimiz, obalarımız*

# Ağac baba



**Dağların qoynunda ulu bir kənd vardı. Bala anasına sığınan kimi dağların qoynuna sığınmışdı. Anası dağlar, atası qayalardı o kəndin. Kirəmitli evləri uca dağların arasında elə sıralanmışdı ki, zirvədən baxanda deyərdin durna qatarıdı. Zirvədə gözlərinə Günəşin şəfəqləri saçılırdı. Dünyaya baxanda könlün açılırdı. O dağ kəndinin bənzərsiz gözəllikləri bulaq suyu kimi insanın içinə axıb xoş ovqata, duyğuya çevrilirdi.**

İlin qış fəslində sərnişin qatarı kimi tüstülənirdi evlərin buxarıları. O buxarılar evlərin bünövrəsinin dərinliyindən, qışda ocaqların istiliyindən, yayda evlərin sərinliyindən xəbər verirdi. Kənddə min ev vardı. Köhnə kişilər evlərin sayını dilə gətirmirdilər. Tüstü çıxan buxarıların sayına görə, min buxarılı kənd deyirdilər.

Gecələr o kənd dağların qucağında körpə kimi uyuyurdu. Ağgünlü kəndinin ulduzlu gecələrinin qoynunda nələr vardı, nələr... Saqqalından nur süzülən dədələr, dili alxışlı nur-ipək nənələr. Sözü-söhbəti eldə-elatda dastan olan köhnə kişilərdən qalan şirin xatirələr. O kəndin məğrur, mərd, alicənab və səxavətli köhnə kişilərni görmək xoşbəxtliyi mənə də nəsib olmuşdu.

Mən o kənddən ayrılıb şəhərə köçəndən sonra köhnə kişilərin sözü-söhbəti üçün elə darıxırdım ki... Orada uzunömürlülərdən tutmuş, öz halal zəhməti ilə hörmət-izzət sahibi olan insanlardan müsahibələr alırdım. Onların haqqında mətbuatda məqalələr yazırdım.

Kürəyini dağlara, ürəyini ötən çağlara söykəyən kişilərin gözləri yad ocaqdan od ummazdı. Əlləri haram tikəyə toxunmazdı. O kişilərin zəhmətindən, hünərindən, qeyrətindən halıydım. Oxuyanlar da bilsin deyə, yaddaşımdakıları yazmalıydım...

Köhnə kişilərdən indi Ağgünlü kəndində bir nəfər də qalmayıb. O həsrət, o nisgil ruhumu göynədir. Onların cismi qalmasa da, ruhu el-el, oba-oba dolaşır. Ta bineyi qədimdən belədir; ruhları səyyardı, cisimləri köçəridi ruh adamlarının. O ruhlarda nəsillərin tarixi var. O tarixlər daşdan-daşa yazılar... O daşlarda ululların sözləri var. Daşların hər zərrəsində, torpağın hər qarışında qoca tarixin izləri var. Başdan-başa tarixlə yüklənib o kənd.

Köhnə kişilər ömründə bir kitab oxumasalar da, sinə dəftərləri qiymətli sözlərlə doluydu. Ağac baba Ağgünlü kəndinin 125 yaşlı ağsaqqalı idi. Cavanlığından ovçuluğa meyl salsa da, ürəyi yumşaq adam idi. Öz dediyinə görə, ömründə ceyrana-cüyürə güllə atmamışdı. Kəndin cavanlarına deyərdi:

– A bala, uçarsız, qaçarsız dağ, düz susuz səhra kimidir. Təbiətdən zövq almaq istəyirsənsə, o çöllər gözəlinə qıyma. Ovlayanda da gözlərinlə ovla!

Əgər meşədə kimsə bir yaşıl ağacı kəssə, bir şüy budağı qırsa, Ağac baba gileylənərdi:

– İnsafsızlar meşələrin çır-çırpısını qoyub, cavan pöhrələri doğrayırlar.

...Ağgünlü kəndinə güllü-çiçəkli yaz gəlmişdi. Ağac baba öz nəvələrini də başına yığıb çöllərin tamaşasına çıxmışdı. Yolu "Ağ bulaq"dan düşdü. Ağac baba bulağın gözünə yaxınlaşıb üzünə bir-iki ovuc su vurdu. Bir ovuc da içdi. Ürəyi sərinləyəndən sonra canlı adamla danışırmış kimi:

– Elə bilirdin qışdan salamat çıxmayacam? Müharibəyə borclu qalmamışam. Əmin-amanlıqda da qismət payım var,- dedi.

Sonra da əlini gözünün üstünə qoyub uzun-uzadı dağlara, ucsuz-bucaqsız yaylaqlara baxdı.

Onun günü-güzaranı beləcə keçirdi. Hər səhər Günəş Gözəldağın arxasından çıxıb nur köynəyini geyirdi. Həmin vaxt bulağın yanındakı tək ağacın altında, mamırlı daşın üstündə oturan Ağac baba qırışmış əllərini hələ də nurdan, düşməmiş gözlərinin üstünə qoyub, diqqətlə gündoğana sarı baxırdı. Axşam gün qüruba gedəndə, yaşıl yarpaqlar qan rənginə boyananda da onu o tək ağacın altında oturan görərdilər. Kəkliklər onu görərdi, uçmazdı, cüyürlər onu görərdi, qaçmazdı. Ağac babanın mehrinə öyrəşmişdilər.

Ömrünün ikinci əsrini yaşayan Ağac baba keçmişə qayıdaraq deyirdi:

– Balalarım, nə az, nə çox, ömrümün yüz ilini çobanlıqda keçirmişəm. Yeyib-içdiyim süd, qatıq olub. Qoyun qatığı ağartıların şahıdır. Qoyun qatığını gərək quzu əmişdən kəsiləndən sonra yeyəsən.

Ağac baba qəlyanının tüstüsünü ilk baharın ılıq nəfəsinə qataraq nağıl kimi söhbətinə davam edib deyərdi:

– Mənim bir arıq yabım vardı. Atın başına yüyən yox, noxta vurardım. Çünki mənim atım yerişini, yaraşığını pozan deyildi. Mənə zarafatla deyirdilər ki, ay kişi, bu yazıq yabı səndən əl çəkir, sən ondan əl çəkmək istəmirsən.

– Yox, mənim balalarım, belə vəziyyətdə bir-birimizi atsaq, etibarsızlıq olar, - deyə cavab verirdim. Müharibənin qanlı-qadalı illərində aran yolu-dağ yolu nə arıq yabının, nə də mənim kəndirimi kəsə bilmədi.

Ağac babanın maraqlı oturuşu, duruşu vardı. Oturanda əllərini çarpazlayıb, dizlərini qucaqlayırdı. Çənəsini qollarına söykəyirdi. Ağappaq saqqalı yaz, yay ərimək bilməyən zirvə qarına bənzəyirdi.

Ağac baba o yaşında da dağlardan aşıb gədiklərdən keçirdi. Kollu quzeydən adlayıb Daşlı gəzdəyə qalxanda meşələrin ətrini, dağların havasını ciyərlərinə çəkirdi. Bir gün yenə o tək ağacın yanına sarı yeridi, yüyürdü və əbədi məskəninə çatdı. Qollarını çiynindəki ağaca keçirib kəndin keşikçisi kimi, iki dağın arası uzunu baxdıqca baxdı. Və nur heykəli kimi tək ağacın altındakı mamırlı daşın üstündə oturub sonuncu nəfəsini dərdi. Elə ora da onun son dayanacağı, son mənzili oldu qartalların yuvası kimi. Ağac baba bu dünyadan köçüb getdi. Babamızın babasının babası kimi...

Ağgünlü kəndinin ağ günləri, bini-bərəkəti, adamların doğmalığı, bir-birinə məhəbbəti, səmimiyyəti köhnə kişilərnən getdi. İllər sonra el yerindən oynadı, yad ellərə gedən getdi, şəhərlərə köçən köçdü. Üzü günə qalan evlərin qapısı bağlı qaldı. Qonşu qonşuya, qohum qohuma, dost dosta əlləri uzalı qaldı.

...Zirvələr qoynunda bir kənd varıydı. Gözümü dünyaya açandan könlümü o kəndə vermişdim. Uzun illərdən sonra ulu yurdlarımızı yoxlamağa, dağ çiçəklərini qoxlamağa getmişdim. Elə bil, rəngi sozalmışdı, ətri azalmışdı dağ çiçəklərinin. Məndən incimişdi dağ çiçəkləri, Ağgünlü kəndimin ağ çiçəkləri...

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# Azərbaycan cüdosunun canlı əfsanəsi

**Dünən saytlardan oxudum ki, ölkə cüdosunun inkişafında misilsiz xidmətləri olan Əməkdar bədən tərbiyəsi və idman xadimi Əhməddin Rəcəblinin 80 illik yubileyidir və Azərbaycan Cüdo Federasiyasının prezidenti Rəşad Nəbiyev, gənclər və idman naziri Fərid Qayıbov, yaşadığı Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov onu bu münasibətlə təbrik ediblər.**



Yubiley mərasimlərində həmçinin Milli Olimpiya Komitəsinin vitse-prezidentləri Çingiz Hüseynzadə və Fərid Mansurov, İdman Veteranları İctimai Birliyinin sədri Zemfira Meftahətdinova məşhur məşqçinin Azərbaycan idmanının inkişafı naminə çalışdığını, gənc idmançıların yetişməsində mühüm rol oynadığını bildirib, nəcib və gözəl xüsusiyyətlərə malik insan olduğunu vurğulayıblar.

...Onu 50 ildir ki, tanıyıram. Boks üzrə tanınmış məşqçi olmuş dayım Bəbiş Nuruşovla yaxın dost idi. Jurnalistlik fəaliyyətimlə əlaqədar onunla dəfələrlə görüşmüş, müsahibələr almışam. 3 il əvvəl redaksiyamıza dəvət edib görüşmüş və haqqında oçerk yazmışdım. Azərbaycan cüdo məktəbinin binasını qoyanlardan biri olan Əhməddin müəllim yeniyetmə yaşlarında Sumqayıt Kimya Texnologiya Texnikumuna daxil olduğu vaxtdan taleyini bu şəhərə bağlayıb. 66 ildir ki, sumqayıtlı adını daşıması ilə fəxr edir.




– Mən əvvəlcə sambo ilə məşğul olmuşam, – deyir. – İdmana gəldiyim ilk illəri həyatımın ən unudulmaz dövrü hesab edirəm. Mərhum müəllimim, Azərbaycanda sambo güləşini təbliğ edən "Əməkdar məşqçi" İsmayıl Əhmədovun idman yolumda rolu çox böyükdür. Məhz onun sayəsində samboya başladım və bu, həyatımın dönüş nöqtəsinə çevrildi. 1961-ci ildə respublika çempionu oldum, növbəti il isə Xankəndidə keçirilən respublika yarışlarında yenidən qalib adını qazandım. Ardınca "Spartak" cəmiyyətinin qalibi kimi SSRİ birinciliyində iştirak edərək bürünc medala sahib çıxdım. Sonra da yeni açılan cüdo növünə keçdim, uğurlarım beləcə davam elədi.

Əhməddin Rəcəbli 1981-ci ildə Azərbaycanda cüdo idman növündə ilk "Əməkdar məşqçi" fəxri adını alıb. Sonra "Bədən tərbiyəsi və idman xadimi", "Tərəqqi" medalı, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" gəlib, ardınca Prezidentin fərdi təqaüdünə, "Şöhrət" ordeninə layiq görülüb. Fəaliyyəti təkcə ölkə daxilində deyil, cüdonun vətəni sayılan Yaponiyada da diqqətdən kənarda qalmayıb. 2021-ci ildə bu ölkənin "Gümüş Şüalı Gündoğar" ordeni ilə təltif edilib. Deyir ki, bu mükafatlar onun üçün sadəcə təltif və titul deyil, həm də idmana sevginin, onillərlə davam edən zəhmətin, əzmkarlığın təsdiqidir.

"Cüdo əfsanəsi"nin qardaşları – rəhmətlik Məmməd, Fərhad və Əhəd, övladları Zaur və Elxan – idman ustası və tanınan, Əməkdar məşqçidirlər. Fərhad Rəcəbli ustalar arasında 12 qat dünya, 11 qat Avropa çempionudur və bu gün də qazandığı nəticələrlə gənclərə "dərs" keçir. Əhməd müəllimin nəvələri də onun yolunu davam etdirirlər. Elə yuxarıda yada saldığım oçerki yazdığım gün Rəcəblilər nəslinin gənc nümayəndəsi Ömər Azərbaycan çempionatında çıxış edirdi. Yazımı onun 2-ci yeri tutması barədə xəbərlə bitirmişdim (İndi artıq Ömər iki dəfə Avropa birinciliyinin qalibidir) Murad, Cəsur, Şamil, İbrahim Rəcəblilər estafeti layiqincə davam etdirirlər.

Şanlı idman tarixindən həvəslə danışan yubilyar digər yetirmələrinin də adını iftixarla çəkir:

– Faiq Ağayevi də xüsusi qeyd edirəm. 1982-ci ildə İrəvanda keçirilən finalda erməni idmançını məğlub edərək SSRİ birinciliyinin qalibi, ardınca isə Parisdə ilk dünya çempionu adını qazanıb. SSRİ Xalqları Spartakiadasının mükafatçısı Qüdrət Pəncəliyev, Yusif Kazımov, İntiqam Məmmədov, ikiqat paralimpiya çempionu İlham Zəkiyev və digər adlı-sanlı idmançılar da mənim tələbələrim olub.

**– Əhməddin müəllim, 80 illik yubileyinizi qeyd edirsiniz. Bu mötəbər yaşa çatmaq necə bir hissdir?**

– Ömrün bu çağı insan üçün çox dəyərli bir mərhələdir. Ən böyük mükafatım yetirmələrimin uğurları və onlardan eşitdiyim xoş sözlərdir. Bu yaşda geriyə boylananda görürəm ki, ömrüm hədər keçməyib. Gənclərə baxanda özümü onların yaşıdı kimi hiss edirəm. Çünki mən idmanla yaşayıram, idman mənim qanımdadır.

Öz növbəmdə yubiley münasibətilə məni yada salıb, dəyərləndirdiyiniz üçün təşəkkür edirəm. Eyni zamanda, Milli Olimpiya Komitəsinə, Gənclər və İdman Nazirliyinə, Azərbaycan Cüdo Federasiyasına və Ağsaqqallar Şurasına, Sumqayıt şəhərinin rəhbərliyinə də bu gün mənə göstərdikləri diqqətə görə minnətdarlığımı bildirirəm.

***Əli NƏCƏFXANLI***
***XQ***

*Türkiyədə zəlzələ*

# Bu dəfə Balıkəsir silkələndi



**Türkiyənin Balıkəsir vilayətinin Sındırqı bələdiyyəsində baş verən 6,1 bal gücündə zəlzələ bölgədə böyük dağıntılara və insan tələfatına səbəb olub. Rəsmi məlumata görə, zəlzələ nəticəsində 16 bina tamamilə dağılıb, 1 nəfər həyatını itirib, 29 nəfər isə yaralanıb.**

Zəlzələdə həyatını itirən 81 yaşlı Nihat Önbaş dağılan 3 mərtəbəli binanın dağıntıları altında qalıb. Hadisə yerinə cəlb edilən xilasedicilər onu yaralı vəziyyətdə çıxarsalar da, xəstəxanada aparılan tibbi müdaxilələr nəticə verməyib. Onun nəşi ailəsinə təhvil verilib və İzmirdəki Soğukkuyu qəbiristanlığında dəfn olunub. Məlumata görə, dağılan bina 1998-ci ildə tikilmiş, son illərdə isə birinci mərtəbəsində əvvəlcə pidə evi, daha sonra isə aptek fəaliyyət göstərib.

Avqustun 10-da saat 19:53-də baş verən güclü təkanlar təkcə Balıkəsirdə deyil, ətrafdakı 11 vilayətdə də hiss olunub. Zəlzələ bölgə əhalisi arasında ciddi təşviş yaradıb, xüsusilə də Simav Fayı barədə sualların artmasına səbəb olub. Mütəxəssislərin ilkin qiymətləndirməsinə görə, Balıkəsirdəki zəlzələ Simav tektonik plitə üzərində baş verib. Bu plitə Türkiyənin Qərbi Anadolunun mühüm seysmik zonalarından biridir və 6,1–7 bal gücündə zəlzələlər yaratmaq potensialına malikdir. Bu tektonik zona Afyon–Akşehir–Gıraverdi istiqamətindən Konya–Karaman tərəfə uzanır və Balıkəsir, Kütahya, Afyonkarahisar, Manisa və Konya kimi geniş əraziləri əhatə edir. Simav tektonik plitənin keçdiyi ərazilərdə yaşayan əhali yüksək seysmik risk altında qalır.

AFAD-ın açıqlamasına görə, əsas təkanlardan sonra bölgədə 237 afterşok qeydə alınıb, onlardan 10-nun gücü 4 baldan yuxarı olub. Xüsusilə zəlzələnin episentrinə yaxın ərazilərdə gecə boyu yeraltı təkanlar davam edib, sakinlər çadırlarda və açıq sahələrdə gecələməyə məcbur olublar.

Ümumiyyətlə, Türkiyə dünyada zəlzələlərin ən sıx müşahidə olunduğu ölkələrdən biridir. Bunun əsas səbəbi onun coğrafi mövqeyidir - ölkə Avrasiya, Afrika və Ərəb litosfer plitələrinin toqquşma bölgəsində yerləşir. Plitələrin qarşılıqlı hərəkəti nəticəsində müxtəlif tektonik zonalar formalaşıb ki, bu zonalar həm ölkənin relyefinə, həm də seysmik aktivliyinə birbaşa təsir göstərir.

Türkiyənin tektonik quruluşu onun həm təbii gözəlliklərini, həm də təhlükələrini müəyyənləşdirir. Plitə sərhədlərində yerləşməsi ölkəni davamlı seysmik aktivliyə məruz qoyur. Tarixi təcrübə göstərir ki, bu risklə mübarizə yalnız elmi araşdırmalar, mühəndislik tədbirləri və ictimai hazırlığın birləşməsi ilə mümkündür. Zəlzələ mütəxəssisləri də Simav tektonik plitə boyunca hər an yeni təkanların ola biləcəyini, bölgədə aktiv tektonik gərginliyin davam etdiyini bildiriblər. Onlar, həmçinin bölgədə tikinti standartlarının yenidən nəzərdən keçirilməsini, köhnə binaların təcili olaraq gücləndirilməsini və əhalinin maarifləndirilməsini vacib sayırlar.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Pul itkisi kədərlidir, yoxsa vaxtın hədər getməsi?

**Bir dəfə uğursuzluğa düçar olan şəxs məqsədindən vaz keçir. Ancaq ABŞ və Tayvanda aparılan yeni araşdırma göstərib ki, sadə bir psixoloji yanaşma motivasiyanın qorunmasına kömək edə bilər: əsas diqqəti xərclənmiş pullara yox, sərf olunan vaxta yönəltmək lazımdır.**

Binghamton Universitetinin marketinq üzrə mütəxəssisləri müəyyən ediblər ki, insanlar sərf etdikləri maliyyəni düşünəndə uğursuzluqlar onlarda daha kəskin emosional reaksiya yaradır. Halbuki sərf olunan vaxt və öyrənilən biliklərə fokuslanmaq insanı ruhdan salmır, əksinə, irəliləməyə təkan verir.



Prolific platforması vasitəsilə 600 nəfər əmək fəaliyyətində olan insan arasında iki ayrı sorğu keçirilib. Üçüncü eksperiment Tayvanda universitet tələbələrinin iştirakı ilə aparılıb. Burada iştirakçılar bir neçə dəfə İngilis dili imtahanından keçmədiklərini təsəvvür ediblər.

Nəticələr göstərib ki, vaxta fokuslanan iştirakçılar daha güclü iradə nümayiş etdiriblər və məqsədlərindən vaz keçməyiblər. Əksinə, pulu düşünənlərdə motivasiya ikiqat azalıb – xüsusilə də ardıcıl iki uğursuzluqdan sonra.

Tədqiqatçılar bu nəticələrin real həyatda geniş istifadə imkanlarının olduğunu vurğulayırlar. Xüsusilə onlayn kurslar, fitnes proqramları və "özün et" kateqoriyalı məhsulların satışı zamanı bu üsuldan yararlanmaq mümkündür. İstifadəçilərə motivasiyaedici mesajlarla dəstək verilməklə onların davamlılığını artırmaq olar.

***Qabil ƏLİYEV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 167 (30861) 12 avqust 2025-ci il, çərşənbə axşamı

## İDMAN

### Azərbaycanı Braziliyada təmsil edəcək uşuçular



**Azərbaycanı Braziliyada keçiriləcək uşu üzrə böyüklər arasında Dünya çempionatında təmsil edəcək idmançılar müəyyənləşib. Bu barədə mediaya Uşu Federasiyasından məlumat verilib.**

Yarışda məşqçi Elçin Eminovun rəhbərliyi altında Orxan Hətəmov (52 kq), Amin Əlilli (60 kq), Həmzə Rəsulzadə (65 kq), Nicat Kisiyev (70 kq) və Elvin Abbasov (85 kq) iştirak edəcəklər.

Qeyd edək ki, dünya çempionatı avqustun 31-dən sentyabrın 7-dək keçiriləcək.

### Çimərlik voleybolu yığmalarımız Avropada



**Azərbaycanın çimərlik voleybolu yığmaları Avropa çempionatlarında iştirak məqsədilə Avstriya və İspaniyaya yola düşüblər.**

Azərbaycan Voleybol Federasiyasından mətbuata verilən məlumata görə, U-22 millisi avqustun 14-17-si aralığında Avstriya, U-20 isə avqustun 20-25-i aralığında İspaniyadakı yarışda iştirak edəcək.

Ölkə hər iki turnirdə həm oğlanlardan (Muhammad Aslanlı/İbrahim Məmmədov; ehtiyat komanda Nəriman Bayramlı/Tural Əsgərov), həm də qızlardan (Səbinə Əlizadə/Cəmilə Başirova) ibarət bir komanda ilə təmsil olunacaq.

### Revva ilə müqavilə uzadıldı



**Qadın həndbolçulardan ibarət Azərbaycan millisinin baş məşqçisi Aleksandr Revva ilə müqavilənin müddəti uzadılıb. Rusiyalı mütəxəssislə 1 illik yeni sözləşmə imzalanıb.**

Qeyd edək ki, Aleksandr Revva 2023-cü ilin oktyabr ayından Azərbaycan millisinə rəhbərlik edir. Mütəxəssis, həmçinin qadın həndbolçulardan ibarət "Azəryol" komandasının da baş məşqçisidir.

*MH ACIXANLI*
*XQ*

*Belə ola həmişə!*

# "Qarabağ": 3 oyunda qapısından top buraxmayan 2 komandadan 1-i




**Çempionlar Liqası turnirinin 3-cü təsnifat mərhələsinin "Qarabağ" Azərbaycan- "Şkendiya" Şimali Makedoniya cavab görüşündən gözləntilərimiz barədə qeydlərə bu günlər beynəlxalq futbol dairələrində elan edilən və ölkə çempionumuzun pərəstişkarları üçün qürurverici rəqəmlərlə başlamaq istərdik. Statistiklər bildirirlər ki, təsnifat mərhələsində mübarizəyə qoşulan 44 kollektivdən yalnız ikisi – Ağdamın "Qarabağ" klubu və Danimarkanın Kopenhagen şəhərinin eyniadlı komandası ilk 3 raundda qapılarından top buraxmayıblar. Əgər Azərbaycan təmsilçisinin hər 3 görüşdən qələbə ilə ayrıldığını da xatırlasaq, həqiqətən, ürəkaçan və yaddaqalan göstəricilərdir.**

Bu gün saat 20-yə təyin edilmiş dördüncü oyunumuz isə başlanmaq üzrədir. Həmişəki kimi, görüş yeri Tofiq Bəhramov adına Respublika Stadionudur. Rəqib də bir həftə əvvəl yaxından tanış olduğumuz Şimali Makedoniyanın "Şkendiya" klubudur. Hakimlər briqadası Niderland futbolunun nümayəndələridir. Baş hakim rolunda Denni Makkelini görəcəyik. Ona da, köməkçilərinə də məzmunlu və ədalətli oyun arzulayaq.

Təcrübədən bilirik ki, futbol daim öz pərəstişkarlarına səbrlə, təmkinlə tövsiyə edir ki, hər hansı oyun ərəfəsində rəqiblərin ad-sanından, turnir mövqelərindən, evdə və ya səfərdə çıxış etmələrindən asılı olmayaraq, onlardan heç birinə yuxarıdan aşağı baxmaq, imkanlarını qiymətləndirməmək olmaz. Bu, qəti şəkildə qadağandır. İndiki halda da "Qarabağ" avqustun 5-də 3-cü təsnifat mərhələsinin start görüşündə doğma yerlərdən uzaqlarda, Skopyedə kifayət qədər iddialı və inadkar komanda ilə görüşdən qalib ayrılıb (1:0) bu turnir çərçivəsində ardıcıl qələbələrinin sayını 3-ə çatdırsa da, bugünkü matçda bir an belə sayıqlığı itirmək olmaz. Əksinə, qələbələr seriyasını 4-ə çatdırmaq üçün arxa xətdə səhvsiz və etibarlı oynamaqla yanaşı, hücumda daha kəskin, daha dəqiq mübarizə aparmaq lazımdır. Kadi, Zubir, Leandro Andrade, Nəriman və onların oyundaşları məqsədə çatmaq üçün daha çox zəhmət çəkməli, daha yüksək keyfiyyətli oyun nümayiş etdirməlidirlər. Belə olsa, komanda azarkeşləri ilə birlikdə elə bu axşam 4-cü qələbəni əvvəlkilərdən də təmtəraqlı bayram edə bilər.

Artıq 12-ci ildir ki, avrokuboklar səhnəsində və ya əsas mərhələdə çıxış etmək hüququ qazanmış "Qarabağ" (Konfrans Liqasının qrup mərhələsinə "bilet" təmin olunub) bu dəqiqələrdə Çempionlar Liqasının pley-off mərhələsinin astanasında, bəlkə də, yarım addımlığındadır. "Şkendiya"ya bu axşam uduzmasaq, heç-heçə də bizim üçün qələbəyə bərabər olacaq, növbəti mərhələdə daha yüksək pillədə yolumuza davam edəcəyik.

Hər şeyin Azərbaycan çempionu azarkeşlərinin istəyinə uyğun olacağı, Şimali makedoniyalı qonaqlara uduzmayacağımız halda sabah Budapeştdə keçiriləcək "Ferentsvaroş" (Macarıstan) – "Ludoqorets" (Bolqarıstan) qarşılaşmasında hamı hakimin final işarəsini daha böyük maraqla gözləyəcək. Pley-off-da bu iki komandadan birinin rəqibimiz ola biləcəyi çoxdan məlumdur. Onların 6 avqust axşamında "Ludoqorets"in doğma şəhəri Razqradda ilk oyununda qapılara top vurulmayıb. İndi hər şey sabah macarların meydanında həll olunacaq.

Hər ikisi "Qarabağ"a da, onun azarkeşlərinə də yaxşı tanışdır. Yaxın keçmişdə Ağdam futbolçularının səfərdə macarlara 3:1, bolqarlara 7:2 hesabı ilə qalib gəldiyi oyunlar xatirələrdə hələ təzədir. Lakin onları yenidən tam təfsilatı ilə xatırlamaq hələ bir qədər tezdir. Komandamız hələlik "Şkendiya" ilə münasibətləri qəti şəkildə öz xeyrinə həll etmək üçün bütün qüvvələrini səfərbərliyə almalıdır. "Ferentsvaroş" və ya "Ludoqorets"lə oyunlar barədə daha ətraflı danışmağa imkan olacaq. Hələlik onu xatırladaq ki, pley-off görüşləri avqustun 19-20-də və 26-27-də olacaq. Onları ümidlə gözləyək.

Deyəsən, bəzi azarkeşlərimiz indi Konfrans Liqasına, Avroliqaya bir qədər yuxarıdan aşağı baxırlar. Çoxlarımız Qurban Qurbanovu və onun futbolçularını ikinci dəfə Çempionlar Liqasının baş meydanında, Avropa futbolunun nəhəngləri ilə döyüşlərdə görmək istəyirik. Bunu başa düşmək çətin deyil. Qitə miqyaslı digər iki yarış nə qədər mötəbər olsa da, Çempionlar Liqası onlardan üstündür. "Qarabağ" da bu meydanda oynamağın adama ayrı zövq verdiyini, əlbəttə ki, hamıdan yaxşı bilir.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*



# Soydaşımız 7 xarici universitetə dəvət aldı

**Bakı Mühəndislik Universitetinin (BMU) kimya müəllimliyi ixtisası üzrə məzunu Fatimeyi Zəhra Seyfiyeva dünyanın 7 nüfuzlu universitetindən dəvət alıb.**

Universitetdən mediaya bildirilib ki, o, Böyük Britaniyanın Edinburq, Mançester, Bristol, Varvik, York, həmçinin İsveç Krallığının Stokholm, Uppsala kimi nüfuzlu universitetlərində magistratura səviyyəsi üzrə təhsil almaq hüququ qazanıb.

BMU məzunu "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində tam təqaüdlə Böyük Britaniyanın Edinburq Universitetində (analitik kimya ixtisası) təhsil almaq qərarı verib.

Elm və təhsildə davamlı inkişafı hədəfləyən Fatimeyi Zəhra Seyfiyeva beynəlxalq təcrübə qazanaraq analitik kimya sahəsində müasir tədqiqatlar aparmaq, innovativ texnologiyalar və yeni həllər üzərində işləmək, əldə etdiyi bilik və bacarıqlarını Azərbaycanda tətbiq etməklə ölkənin elmi inkişafına töhfə verməyi qarşısına məqsəd qoyub.

*XQ*

# Abşerona yay yağışı yağacaq!

**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam yarımadanın bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi axşam arabir güclənən şimal-qərb küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturu gecə 21-24, gündüz 29-34 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 40-45 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 21-25, gündüz 30-35, dağlarda gecə 12-17, gündüz müsbət 20-25 dərəcə olacağı proqnozlaşdırılır.

*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Masallı rayonunun Yeddioymaq kəndinin sakini

**HEYBƏT KİŞİNİN**

vəfatından kədərləndiyini bildirir və Şükürovlar ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Quba Rayon Ağsaqqallar Şurasının sədri İldırım Məmmədov və şuranın idarə heyəti üzvləri Quba Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Tarıyel İbrahimova həyat yoldaşı

**NARGİLƏ XANIMIN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3417
SİFARİŞ 1515
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00